V.H. Əliyev, F.S.Xəlilov

# Ağsunun tarixi səhifələri

"Adiloğlu" nəşriyyatı
Bakı -2001

**V.H. Əliyev, F.S.Xəlilov**

**"Ağsunun tarixi səhifələri"**

**Bakı, "ADİLOĞLU" nəşriyyatı - 2001, 94 səh.**

Elmi redaktor: tarix elmləri namizədi F.L.Osmanov

Rəyçilər: Tarix elmləri doktoru I.A.Babayev, S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivinin direktoru M.Teymur

Müəlliflər kitabın nəşrində maliyyə köməkliyi göstərdiyinə görə "Mərkəzi Univermaq" Açıq Tipli Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Ərəstun Cavadova dərin minnətdarlıqlarını bildirirlər.

Müəlliflər kitabın ərsəyə gəlməsində yaxından iştirakına görə Azərbaycan Respublikası Milli Məclisi aparatının Sosial Qanunvericilik şöbəsinin böyük məsləhətçisi Məhəmməd Bazıqova dərin minnətdarlıqlarını bildirirlər.

Kitabda mövcud arxeoloji, etnoqrafik, toponomik materiallar əsasında Ağsunun tarixi mənzərəsi təsvir edilmişdir. Kitab yeni tarixi faktlarla zəngin olub elmi populyar dildə yazılmışdır və tarixlə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli mənbədir.

v $\frac{4908030100-178}{121-01}$ sifarişlə

© V.Əliyev, F.Xəlilov

*Kitab Ağsu rayonunun ictimai xadimi, el ağsaqqalı mərhum Ağamahmud MEHBALIYEVİN əziz xatirəsinə ithaf olunur.*

## ÖN SÖZ

Azərbaycanın şimal ərazisində minillik tarixə malik qədim Qafqaz Albaniyası (e.ə. IV - e-nın VII əsri) və orta əsr Şirvanşahlar (VI-XVI əsrlər) dövlətləri mövcud olmuşdur. Müasir Ağsu rayonunun ərazisi bu dövlətlərin mərkəz hissəsini - Ağsuçay və Girdimançay vadisini əhatə edir. Bu çayların vadiləri bərəkətli, münbit torpaqları, təbii zənginlikləri ilə tarix boyu insanların diqqətini cəlb etmiş və əhalinin sıx məskunlaşdığı mədəniyyət mərkəzinə çevrilmişdir. Odur ki, Ağsu rayonu ərazisi Azərbaycan tarixinin miixtəlif dövrlərinə aid abidələrlə çox zəngindir.

Ağsu rayonunun Nüydi, Nuran, Sanqalan, Qırlar, Gəgəli, Ərəb-mehdibəy, Qaraqoyunlu və s. kəndləri ərazisində mövcud olan qədim, antik, orta əsrlər dövrlərinə aid yaşayış yerləri, nekropollar, qəbiristanlıqlar, qalalar, türbələr, dini ibadətgahlar və başqa maddi-mədəniyyət abidələri xalqımızın əvəzsiz tarixi xəzinələridir.

Ağsu rayonu ərazisindəki abidələrdən arxeoloji qazıntılar və təsərrüfat işləri görülərkən təsadüfən zəngin tarixi materiallar aşkar olunmuşdur. Bu tarixi yadigarlar içərisində Qafqaz Albaniyası maddi-mədəniyyətinin özünəməxsus yeri vardır. Qırlartəpə eneolit dövrü yaşayış yeri Qafqaz Albaniyasının ən qədim tarixini, mədəniyyətini araşdırmaq üçün çox dəyərli, nadir abidədir. Qafqaz Albaniyasında qədim hərb sənətinin yüksək dövlətçilik səviyyəsində quruculuğunu əyani olaraq əks etdirən sərkərdəyə məxsus Nüydi tunc dəbilqəsi, Nərgizava şəhər yerinin nekropolundan tapılmış tuncdan atlı cəngavər fiqurları, ayrı-ayrı abidələrdən toplanmış müxtəlif silah növləri bu qədim diyarın tarixi sirlərini açmağa imkan verir.

Şeyx Dursun türbəsi, Şeyx Əmir Əhməd türbəsi, Pir Bəxtiyar türbəsi, Bilal Əfəndi məscidi, Ağ günbəz, Qırmızı günbəz və başqa memarlıq abidələri orta əsrlər dövründən bizə gəlib çatan qiymətli maddi-mədəniyyət abidələridir. Şeyx Dursun türbəsi və onun üzərindəki kitabə Ağsu rayonu ərazisində yaşayan padarlar haqqında müəyyən tarixi fikir söyləməyə, onların əsasən Şah İsmayıl dövründə bu

ərazıyə köçürülməsi haqqında söylənilmiş mülahizələrə düzəliş etməyə elmi əsas verir.

XVIII əsrin birinci yarısında yaranan Ağsu şəhəri az bir vaxtda Azərbaycanın çoxsaylı əhalisi olan şəhərlərindən birinə çevrilmişdi. Ağsu şəhəri Şirvanın ticarət mərkəzləri vəsiləsində əhəmiyyətli yer tutmuşdu. Şirvan xanlığının 1763-cü ilədək iki mühüm ticarət, mədəniyyət mərkəzlərindən biri olan Ağsu şəhəri sonralar da uzun müddət öz iqtisadi, siyasi və mədəni mövqeyini saxlamışdır. Orta əsr Ağsu şəhərinin maddi-mədəniyyət abidələri müasir Ağsu şəhərinin cənub hissəsində yerləşir.

Azərbaycan Respublikası Baş Arxiv İdarəsinin Dövlət Tarix Arxivində Ağsu şəhəri və onun ətraf əraziləri ilə bağlı XIX əsrə aid bir sıra maraqlı materiallar vardır. Bu arxiv materiallarına əsasən kitabda Ağsunun həmin dövrdə sosial-iqtisdi həyat tərzi, inzibati idarə quruluşu və s. məsələlər barədə məlumat verilir.

Ağsu rayonunun maddi-mədəniyyət, memarlıq abidələri, şəhərin yaranması və təşəkkülü, bu regionun kəndlərinin toponimik cəhətdən öyrənilməsi və s. məsələlərlə bağlı ilk dəfədir ki, bu kitab vasitəsilə lazımi məlumatlar verilməsinə təşəbbüs göstərilir.

## AĞSU RAYONUNUN COĞRAFİ MÖVQEYİ VƏ TƏBİİ ŞƏRAİTİ

Tarixən Şirvan ərazisinə daxil olan Ağsu rayonu Bakı şəhərindən 156 km qərbdə, Bakı - Qazax şosse yolunun üstündə yerləşir. Ağsu rayonu qərbdən və şimal qərbdən İsmayıllı, şimal-şərqdən və şərqdən Şamaxı, cənubdan isə Kürdəmir və Hacıqabul rayonlarının torpaqları ilə sərhədlənir. Ərazisi 1020 $km^2$, əhalisi 61635 nəfərdir.

Relyefi dağlıq, dağətəyi və meylli düzənliklərdən ibarətdir. Dağlıq hissəsi dəniz səviyyəsindən 700-1000 m hündürlükdə yerləşir. Dağlıq zonalar çaylar, dərələr və yarğanlarla parçalanmış mürəkkəb relyefə malikdir. Göyçay sahillərindən başlayaraq Pirsaatçaya qədər xırda boz dağlar Şirvan dağ silsiləsini təşkil edir. Alçaq dağlardan ibarət olan bıı sahələrdə Hinqar, Gürcüvan, Nuran, Kərkənc, Qəşəd, Ləngəbiz yaylaları qərb-şərq istiqamətində uzanır. Şirvan düzünün şimal sərhəddi Qaraməryəm yasamalı, Girdimançayın Şirvan düzünə çıxdığı sahə isə Xançobanı düzü adlanır.

Dağətəyi ərazilərdə relyef əsasən şimaldan cənuba alçalan müxtəlif baxarlı yamaclardan ibarətdir. Dağların yamacları zəif, orta və şiddətli dərəcədə erroziyaya uğramışdır. Bu ərazidəki düzənlik sahələri güclü daşqınlar baş verməsi nəticəsində yuyularaq xırda çaylarda, dərələrdə qobular əmələ gətirir.

Ağsu rayonu ərazisinin belə təbii parçalanma relyefi orada şorlaşma prosesinin getməsinə şərait yaradır.

Ağsu rayonunun Böyuk Qafqazın cənub yamacında yerləşməsi onun iqlim şəraitinə böyük təsir göstərir. Bu bölgənin iqlimi əsasən qışı quraq keçən mülayim-isti, yarımsəhra, quru bozqır iqlimi (cənub) və yayı quraq keçən mülayim isti (şimal) iqlim tiplərindən ibarətdir. Qışı quraq, günəşli və az qarlı keçməsilə səciyyələnir.

Havanın orta illik temperaturu 13-14S°-dir. Orta aylıq nisbi rütubət isə il ərzində 50-81% olur. Yağıntının illik miqdarı 400-600 mm təşkil edir.

Ərazidə ən çox yağıntı yaz-payız fəsillərində düşür. Səth örtüyündən il ərzində 800-1000 mm mümkün buxarlanma gedir. Orta dağlıq ərazidə yağıntıların buxarlanmadan az olmasına baxmayaraq yaz aylarında temperatur yüksək olmadığından dəmyə şəraitində tarla, meyvə və üzüm bitkilərinin becərilməsi mümkündur.

Geoloji məlumatlardan aydın olur ki, Şirvan düzü vaxtı ilə Xəzər dənizinin körfəzi olmuşdur. Dəniz bu sahələri bir neçə dəfə basmışdır. İqlimin dəyişməsi ilə əlaqədar olaraq həmin sahələrdən dəniz çəkilmiş və hazırki vəziyyətə düşmüşdür. Relyef xüsusiyyətlərindən asılı olaraq tədqiq olunan ərazidə müxtəlif dövrlərdə çökdürülən dəniz çöküntülərinə müxtəlif geoloji laylarda rast gəlinir. Bu çöküntülərdə çoxlu iri qum dənələri ilə qatışıq balıqqulaqları üstünlük təşkil edir.

Rayon ərazisinin torpaqəmələgətirən süxurları dəniz çöküntülərindən başqa Ağsuçay, Girdimançay və bir sıra xırda dərələr vasitəsilə gətirilən müxtəlif tərkibli aşınma materialarından ibarətdir.

Rayon ərazisində qrunt sularına müxtəlif dərinliklərdə rast gəlinir. Dağlıq və dağətəyi hissələrdə qrunt sularına təsadüf edilməmişdir.

Lakin bəzi kəndlərdə qazılmış su quyularına əsasən demək olar ki, qrunt suyunun dərinliyi 6-8 metrdir. Düzən sahələrdə isə qrunt suları səthə yaxındır. Belə ki, 1976-cı ildə torpaq tədqiqatı zamanı rayonun Çaparlı, Cəlayir, Ərəbmehdibəy kəndləri ərazisində qrunt suları səthə daha yaxın olub, 52-170 sm arasında dəyişdiyi müəyyən edilmişdir. Qrunt suları şiddətli dərəcədə minerallaşmışdır.

Ağsu rayonunun ərazisindən Girdimançay, Ağsuçay və Nazır çay axır. Bu çaylar və onların məhsuldar vadiləri ən qədim zamanlardan cəmiyyətin həyatında mühüm rol oynamışdır.

Girdimançay öz mənbəyini Babadağdan (2000-2500 m) götürür və yalnız gur yağışlar zamanı Kür şayı sahilində Qarasuya birləşir.

Çayın uzunluğu 108 km olub, suyu suvarma işlərində istifadə olunur. Girdimançaydan ayrılan Nazırçay qolu Şirvan düzünun kənd təsərrufatını su ilə təmin edir.

Ağsuçay öz mənbəyini Lahıc dağlarından götürür. Ağsuçay orta axınında çox dərin, lakin enli dərədən axır. Ağsu şəhərindən cənuba doğru bu çayın vadisi öz formasını itirir. Burada çay suni suvarma əkinçiliyi və bostançılıqla əlaqədar arxlar vasitəsilə xırda şaxələrə parçalanır. Göründüyü kimi çay Ağsu rayonunun təsərrüfatında mühüm rol oynayır:

Ağsu rayonu ərazisinin torpaqları təsnifat etibarilə aşağıdakı altı növə bölünür.

1. Qəhvəyi dağ-meşə torpaqları;
2. Dağ-boz qəhvəyi torpaqlar;
3. Şabalıdı torpaqlar;
4. Çəmən-boz və boz-çəmən torpaqlar;
5. Bataqlıq - çəmən torpaqları;
6. Şoran torpaqlar.

Bu torpaqlar rayon ərazisinin ayrı-ayrı zonaları üçün səciyyəvidir.

Rayon ərazisinin bitki örtüyü onun coğrafı şəraitinə uyğun olaraq şaquli zonallıq qanununa müvafiq yayılmışdır. Dağlıq ərazi zəngin meşə zolağına malikdir. Meşələrdə palıd, vələs, ağcaqayın, yemişan və s. ağac və kol bitkiləri, relyefı çox meyilli yamaclarda isə qaratikan, cır nar, böyürtikan, itburnu və s. geniş yayılmışdır.

Dağətəyi və düzən sahələrdə quru bozqır və yarımsəhra bitkiləri geniş yayılmışdır. Bozqır sahələrdə qarağat, yovşan, yağtikan növləri bitir. Bu sahələr müxtəlif ot örtüyünə malikdir. Çay subasarlarında, qum çay vadilərində, qədim arxların kənarında çox zaman yulğun, böyürtkən və s. kol bitkilərinə rast gəlinir. Subasar çəmən sahələrdə, quru qobularda və Ağsuçayın aşağı hissələrində qamış, cil, çayır bitir. Bunlardan başqa biyan, qızıl çətir, əməkköməci və s. ərazidə geniş yayılmışdır. Düzən ərazilərdə efemer bitkiləri də geniş yayılmışdır.

Rayonun düzən ərazisində mədəni bitkilər-pambıq, taxıl, bostan-tərəvəz və s. bitkiləri becərilir.

Ağsu inzibati rayonunun ərazisində insanların təsərrüfat fəaliyyəti güclü torpaqəmələgətirən amil kimi özünü aydın göstərir. Burada relyef şəraitinin müxtəlifliyi, onun ərazisinin mərkəzi hissəsindən çoxlu qolları ilə Ağsu çayının və bir sıra xırda çay və sulu qobuların keçməsi, rayonun ərazisində xüsusilə şimal hissələrində xeyli səthi və qobu eroziyasının inkişafına səbəb olmuşdur. Rayonunun qərb ərazisindən axan Girdiman çayı Qaraməryəm yaylasını parçalayıb konyonlar yaratmışdır. Rayon ərazisində çınqıllı - daşlı proluvial çöküntülərdən ibarət geniş yarğanlar meridian istiqamətində yarılmış, Şirvan düzünə çıxan çoxlu sulu və qum qobular (Kükəş, Yasamal, Marafta və s.) yaratmışdır. Bu çay və qobuların başlanğıc sahələrində meşələrin nizamsız qırılması burada səthi və

yarğan eroziyasının genişlənməsinə, ərazinin xeyli hissəsinin aridləşməsinə, torpaqların təkamul prosesində müəyyən dəyişikliklər yaratmışdır*.

Ağsu inzibati rayonu 1943-cü ildə təşkil edilmişdir. 1963-cü ildə bu rayonun ərazisi Kürdəmir rayonuna birləşdirilmişdir. 1965-ci ildən yenidən müstəqil Ağsu rayonu yaradılmışdır. Ağsu rayonu inzibati ərazi cəhətdən Ağsu şəhəri və 77 kənddən ibarətdir. Əvvəllər şəhər tipli qəsəbə olan Ağsu 1967-ci ildən şəhər adlanır.

## QƏDİM MƏDƏNİYYƏT ABİDƏLƏRİ

Azərbaycan Respublikasının ərazisi insanların ilkin məskunlaşdığı mərkəzlərdən biridir. Azıx, Tağlar, Zar, Qazma, Damcılı, Əliköməktəpə və s. daş dövrü ibtidai insanlarının yaşayış məskənləri Azərbaycan xalqının çoxminillik, ən qədim tarixini özündə qoruyub saxlayan maddiləşmiş daş salnamələrdir. Kür və Araz vadilərinin geniş ovalıqlarında məskunlaşmış ulu nəsillər tarix boyu minilliklər, yüzilliklər keçdikcə ayrı-ayrı dövrlərin inkişaf səviyyəsinə uyğun iqtisadi həyat tərzi ilə bağlı müxtəlif mədəniyyətlər yaratmışlar. Qədim daş dövründən başlanan Azərbaycan tarixi həqiqətləri, müxtəlif tarixi dövrlərə aid abidələrin mədəniyyət xəzinələri qorunub zəmanəmizə bir ərmağan olmuşdur.

Azərbaycan tarixində çox mühüm rol oynamış Şirvanda yerləşən Ağsu rayonu ərazisində hələlik daş dövrü mədəniyyəti abidələri aşkar olunmasa da bu bölgə özünəməxsus qədim tarixi mədəniyyət zənginliklərinə malikdir. Şirvanın bu qədim mədəniyyət ocağının tarixi abidələrində uzun müddət heç bir elmi tədqiqat işi aparılmamışdır. XX əsrin 60-cı illərindən başlayaraq Azərbaycan Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu Ağsu ərazisində elmi tədqiqat işlərinə başlamışdır. Görkəmli Azərbaycan arxeoloqu F. L. Osmanov tərəfindən keçən əsrin 60-90-cı illəri ərzində Nüydi, Qaraçıbulaq, Uzunboylar, Qırlartəpə maddi mədəniyyət abidələrində tədqiqat işləri görülmüş və Qafqaz Albaniyasının tarixinə, mədəniyyətinə aid zəngin materiallar əldə edilmişdir. F. L. Osmanov bu abidələrdə aparılmış arxeoloji qazıntıların nəticələrini bir sıra elmi məqalələrdə ümumiləşdirmiş, Nüydi maddi mədəniyyət abidəsi haqqında isə "Qafqaz Albaniyasının maddi-mədəniyyəti" əsərində (1982) xüsusi bəhs etmişdir. Onun sayəsində "Azərbaycan tarixi"nin birinci cildində (1998) Ağsu ərazisindən aşkar olunmuş antik dövr maddi mədəniyyət nümunələri ayrıca tabloda verilmişdir.

---

* Ağsu rayonunun coğrafı mövqeyi və təbii şəraitinə dair qiymətli məlumatlar verən coğrafiya elmləri doktoru, professor Ş. G. Həsənova öz dərin minnətdarlığımızı bildiririk.

## Osmanov Fazil Lətif oğlu

1936-cı il mayın 10-da Ağsu rayonunun Sanqalan kəndində anadan olmuşdur. 1949-1953-cü illərdə M. Ə. Sabir adına Şamaxı pedaqoji texnikomunda orta ixtisas təhsili almış, 1954-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində oxumuşdur. 1968-ci ilin may ayında "Qafqaz Albaniyasının maddi mədəniyyəti e.ə. 4-b. e. 3-cü əsrlərində" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi adına layiq görülmüşdür.

1959-cu ildən Azərbaycan respublikası Tarix İnstutunda baş lobarant, kiçik elmi işçi, başelmi işçi, 1996-cı ildən isə Arxeologiya və Etnoqrafiya İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır.

1959-1960-cı illərdən başlayaraq bir sıra arxeoloji və etnoqrafik ekspedisiyalarda (Qəbələ, Xaçbulaq-Daskəsən, Şamaxı, Naxçıvan, Qazax, Bala, Kəlbəcər, Cəbrayıl və s.) iştirak etmiş, Ağsu-İsmayıllı, Ağcabədi arxeoloji ekspedisiyalarına rəhbərlik etmişdir. F. L. Osmanov tərəfindən ilk dəfə olaraq Ağsu rayonunda Nüydi, Qaraçıbulaq, Uzunboylar, Qırlartəpə antik dövr yaşayış məskən və nekropollarını, İsmayıllı rayonunda Talıstan, Kürdüvan, Mollaisaqlı, Hacıhətəmli, Qalagah, Şəkili, Ağcabədi rayonunda Qaraköbər, Qalatəpə, Bərdə rayonunda Şortəpə şəhərgah və nekropolları üzə çıxarılmışdır.

F. L. Osmanovun 40 illik elmi fəaliyyəti nəticəsində Azərbaycanın antik dövr tarixi və mədəniyyəti üzrə tədqiqat sahəsi və məktəbi yaranmışdır.

F. L. Osmanov elmi tədqiqatla yanaşı 1993-cü ildən ADPU-nun Şamaxı filialında müəllim, 1998-ci ildən ADPU-nun Şamaxı filialında tarix filologiya fakültəsinin "Ümumi tarix və ictimai elmlər" kafedrasının müdiridir

1997-2000-ci illərdə Gəgəli kəndi ərazisində e.ə. IV-I əsrlərə aid Nərgizava qədim şəhər yeri və ona məxsus zəngin nekropol, Ərəbmehdibəy kəndi ərazisində isə təknə qəbir abidələri müəlliflər tərəfindən ilk dəfə qeydə alınmış və burada təsərrüfat işləri zamanı təsadüfən aşkara çıxarılan maddi-mədəniyyət nümunələri toplanılaraq elmi cəhətdən tədqiq olunmuşdur.

Ağsu rayonunun indiyə qədər qeydə alınmış qədim maddi-mədəniyyət abidələri aşağıdakılardır:

-Qırlartəpə eneolit - antik dövr abidələri;

-Xanyurdu kurqanı;

-Ərəbmehdibəy kurqan abidələri və antik dövr qəbirləri;

-Nüydi antik dövr yaşayış yeri və nekropolu;

-Qaraçıbulaq antik dövr abidələri;

-Uzunboylar antik dövr abidəsi;

-Nərgizava antik şəhər yeri və nekropolu;

-Bəyimli qalası və s.

## QIRLARTƏPƏ ENEOLİT-ANTİK DÖVR ABİDƏLƏRİ

Qırlartəpə abidəsi Ağsu rayonunun Qırlar kəndinin 0,5 km-liyində yerləşir. Yerli əhali bu abidəni sadəcə olaraq "təpə", onun arxasındakı düzənliyi isə "təpədalı" adlandırırlar. Qeyd etmək lazımdır ki, Qırlartəpə Ağsuçayla Göyçay arasında uzanan Sanqalan və Həftəran yaylalarında yerləşmiş 20-dən çox maddi-mədəniyyət abidəsi ilə (Uzunboylar, Nüydi, Mollaisaqlı, Hacıhətəmli, Qışlaq, Şəkili, Gənzə, Şəbiyan, Tircan) eyni coğrafı arealdadır. Yaşayış yerinin sahəsi 5 ha-ya yaxın olub, mədəni təbəqəsinin qalınlığı 6 m-dir. Qırlartəpə abidəsi də F. L. Osmanov tərəfindən tədqiq olunmuşdur.

Yaşayış yerinin qədim mədəniyyət qalıqları eneolit dövrünə aiddir. E.ə. V-IV minilliklərdə yaşayış yerinin əhalisi əsasən əkinçiliklə məşğul olmuşlar. Qırlartəpə abidəsinin alt mədəni təbəqəsindən eneolit dövrünə aid müxtəlif məişət saxsı qab nümunələri, təsərrüfat küpləri, ocaq qurğuları, taxıl əzmək üçün olan dən daşları əldə edilmişdir.

Eneolit dövrünün ardınca Qırlartəpə yaşayış yerində tunc və ilk dəmir dövründə həyat davam etmişdir. Həmin dövrlərə aid mədəni təbəqələrin qalıqları izlənmiş, tikinti qalıqları aşkar edilmiş və məişət avadanlıqları əldə edilmişdir.

Qırlartəpədə antik dövrdə də yaşayış olmuşdur. Bu dövrə aid mədəni təbəqə daha zəngindir. Arxeoloji qazıntılar nəticəsində antik dövrü təbəqəsində yaşayış evlərinin və qala divarlarının qalıqları aşkara çıxarılmışdır. Qırlartəpə yaşayış yerinin ətrafında qalınlığı 3 m olan möhtəşəm qala divarları ucaldılmışdır. Müdafiə divarları orta ölçülü, kobud yonulmuş, əksərən yonulmamış, lakin xüsusi seçilmiş daşlarla hörülmüşdür. Bəzi yerlərdə qala divarları 3 m hündürlükdə indiyədək qalmaqdadır. Qala tikmə memarlığında bərkidici vasitə kimi palçıq məhluldan istifadə edilmişdir.

Qala içərisində daşla hörülmüş tikinti qalıqları aşkar olunmuşdur. Daxildə 10-dan çox otaq, anbar, müdafiə məqsədilə tikilmiş, divarlarının qalınlığı 1,3 m olan tikililər üzə çıxarılmışdır. Tikintilərdə dəhliz və qapı yerləri də aydın görünür. Qalanın cənub tərəfində giriş qapısının yeri (2,4 m enində) müəyyən edilmişdir. Şərqə doğru açılan qapı yerindən xaricdə, üst qatda gözətçi otağı kimi qeyd edilən tikililərə təsadüf edilir. Bu cür dördkünc tikinti qalığı abidənin şimal-qərb küncündə də yerləşir. Hər ikisindən sapand daşları, həmçinin mərkəz hissədə onun anbarı tapılmışdır ki, bundan da müdafiədə silah kimi istifadə olumuşdur.

Eramızın IV əsrindən başlayaarq Qırlartəpədən yalnız gözətçi məntəqəsi kimi istifadə olunmuşdur.

Kəndyeri adlanan ərazi ilə Təpədalı arasında zəngin avadanlığa malik torpaq qəbirlər üzə çıxarılmışdır.

Arxeoloji qazıntılar zamanı çoxsaylı gil qab nümunələri, heyvan sümükləri, əmək alətləri, silahlar, bəzək əşyaları və s. tapılmışdır. Qırlartəpə yaşayış yerinin daş divarları boyunca 25-dən artıq təsərrüfat küpləri basdırılmışdır. Küplərdə ərzaq məhsulları saxlanılırdı. Onlardan kömürləşmiş taxıl-buğda qalığı aşkar olunmuşdur. Ağzının ətrafında damğa olan başqa bir küp parçası da diqqəti cəlb edir. Basma üsulu ilə vurulmuş həmin damğada adam başının təsviri verilmişdir.

Gil qab nümunələri nehrə, cam, dopu, çıraq və s.dən ibarətdir. Buradan tapılmış qısa lüləkli çıraqlar xüsusi maraq doğurur. Çıraqlarla yanaşı yanacaq (mazut) izləri də qeydə alınmışdır.

Fauna qalıqlarına (heyvan sümükləri) əsasən demək olar ki, əhalinin təsərrüfat həyatında maldarlıq mühüm rol oynamışdır. Burada ov heyvanları (cüyür) sümüklərinə də təsadüf olunmuşdur.

Antik dövrdə müxtəlif silah növlərindən - üçtilli dəmir nizələr, xəncər, qılınc və sümük ox ucluqlarından istifadə olunmuşdur. Bu silah növləri Qırlartəpə əhalisi arasında hərb sənəti ilə məşğul olunduğunu göstərir.

Yaşayış yerindən tapılmış gil qadın fiqurları buranın qədim sakinlərinin dini inamları haqqında müəyyən təsəvvür yaradır. Bu tip gil qadın heykəlləri Nuran, Qalagah antik dövr abidələrindən də tapılmışdır.

Tapıntılar içərisində sümükdən hazırlanmış üzük, qədim Roma sənətkarlarına məxsus sancaq da vardır.

1986-cı ildə Qırlartəpədən eranın I əsrində kəsilmiş gümüş sikkə tapılmışdır. Gümüş dirhəmin bır üzündə Parfiya hakimi III Artabanın şəkli həkk edilmişdir. Digər üzündə isə yunan əlifbası ilə onun adı və başqa yazılar zərb edilmişdir.

Qırlartəpə maddi-mədəniyyət abidəsi bu ərazidə həyat tərzinin 7 min il bundan əvvəl başlandığını və uzun müddət davam etdiyini göstərir.

**XANYURDU KURQANI** - Ağsu rayon mərkəzindən 5 km cənubda, Ağsu çayı sahilində, Ərəbuşağı kəndi ərazisində Xanyurdu kurqan abidəsi vardır. Çoxdan qeydə alınmış abidədə arxeoloji qazıntıların aparılması vacibdir.

"Xaraba şəhər"in yaxınlığında yerləşməsi bu abidə ilə maraqlananlarda başqa cür mülahizələr yaratmışdır. Ağsu şəhər sakini Ağ-mahmud Mehbalıyev bu torpaq təpəsini tarixi Ağsu şəhərinə qədər olan gözətçi məntəqələrindən hesab edir. Ola bilsin ki, şəhərdə olan gözətçi qüllələrinə bu məntəqə vasitəsilə xəbər verilirmiş. Abidənin "Xanyurdu" adlanması da buradandır.

**ƏRƏBMEHDİBƏY KURQANLARI VƏ ANTİK DÖVR QƏBİRLƏRİ** - Ağsu rayon mərkəzindən 34 km qərbdə Ərəbmehdibəy kəndi ərazisində antik dövrə aid yeni yaşayış məskəni aşkar edilmişdir. (Abidə haqqında bizə

Ərəbmehdibəy kənd orta məktəbinin tarix müəllimi Usubov Allahverdi məlumat vermişdir.) Burada Girdimançayın sağ sahilini sel sularının yuması nəticəsində Qafqaz Albaniyasının dəfn adəti üçün səciyyəvi olan gil təknə qəbirlər üzə çıxmışdır. Bu abidələrdən müxtəlif saxsı qab nümunələri əldə edilmişdir.

Bu ərazidə daha qədim dövrə aid kurqan abidələri də yerləşir. Kurqan abidələrinin bəziləri təsərrüfat işləri nəticəsində dağıntıya məruz qalmışdır.

**NÜYDİ ANTİK DÖVR YAŞAYIŞ YERİ VƏ NEKROPOLU** -Ağsuçay və Girdimançay vadisinin arxeoloji həfriyyatı içərisində Nüydi maddi mədəniyyət abidəsi xüsusi əhəmiyyət kəsb edir. XX əsrin 60-70-ci illərində burada aparılan arxeoloji qazıntılar zəngin mədəni irsin qalıqlarını üzə çıxarmışdır.

Nüydi maddi mədəniyyət abidəsi Ağsu rayon mərkəzindən 27 km şimalda yerləşən Nüydi kəndi ərazisindədir. Nüydi kəndinin qərb kənarındakı Nüydi düzündə aparılan yerüstü axtarışlar və arxeoloji tədqiqatlar nəticəsində burada 10 hektardan artıq geniş sahəyə malik olan qədim yaşayış yerinin varlığı müəyyən edilmişdir.

Nüydi antik dövrü yaşayış yeri yer səthindən müəyyən hündürlükdə təpəlik üzərində yerləşmişdir. Burada təsərrüfat işləri görülərkən qədim yaşayış yerinin mədəni təbəqələri dağıntıya məruz qalmış və külli miqdarda müxtəlif maddi-mədəniyyət nümunələri üzə çıxmışdır.

Yerüstü axtarışlar və qazıntılar zamanı çoxlu sayda qayıqvari dən daşları, sürtgəclər daş qablar, iri təsərrüfat küplərinin qalıqları, habelə boğazında sünbül təsviri olan küp qırıqları əldə edilmişdir.

Nüydi qədim yaşayış yerində mədəni təbəqənin qalınlığı 1-1,5 metrdir. Burada qazıntılar zamanı 0,7 metr dərinlikdə yaşayış binalarına məxsus çaydaşından hörülmüş bünövrə qalıqları aşkar olunmuşdur. Tikintinin şimal - qərbində olan divarı 5 metr uzunluğunda, 60 sm enində nisbətən salamat qalmışdır. Bu divarlardan bir qədər aralıda digər tikinti qalığı aşkar olunmuşdur. Qədim Nüydi əhalisi evlərini özünəməxsus, müəyyən memarlıq üslubunda inşa etmişlər. Tikintidə yonulmamış daşlardan, saman qarışdırılmış suvaqdan, lazımi yerlərdə ağac materiallarından istifadə edilmişdir. Ağac inşaat materiallarını Nüydi meşələrindən əldə etmişlər. Qədim Nüydinin antik dövr memarlıq ənənələri tarix boyu yerli əhali tərəfindən davam etdirilmiş və zəmanəmizə qədər gəlib çıxmışdır. Etnoqrafik tədqiqatlar göstərir ki, hazırda Nüydi və Ağsunun digər kəndlərində yaşayış binalarının və təsərrüfat tikintilərinin inşası zamanı qədim memarlıq üslubunda olduğu kimi arakəsmələrin qurulmasında ağac materiallarından istifadə edilir.

Nüydi yaşayış evlərinin hər birində ocaq qurğuları olmuşdur. Arxeoloji qazıntılar zamanı odun təsirindən qaralmış, kül, kömür qatışıqlı təbəqə ətrafında nizamsız tökülmüş daşlar aşkara çıxarılmışdır.

Nüydi antik dövr yaşayış yerindən tapılmış maddi-mədəniyyət nümunələri içərisində taxıl əzmək üçün olan çoxlu dən daşları vardır. Bu əmək alətlərinin bir qismi qayıqvari formaya malikdir. Dən daşlarının bir hissəsi İsmayıllı rayonunun Qalacıq kəndi yaxınlığında yatağı olan Qabbro cinsli daşlardan hazırlanmışdır.

Nüydi yaşayış evləri Qafqaz Albaniyası memarlığı üçün səciyyəvi olan tikililərdən ibarətdir.

Nüydi antik dövr nekropolunda, 1965-ci ildən F. L. Osmanov tərəfindən arxeoloji qazıntılar aparılmış və torpaq qəbirlər açılmışdır. Onun tədqiqatları nəticəsində buradan əlliyə qədər torpaq qəbir nşkar olunmuşdur.

Nüydi qədim yaşayış yerindən və nekropolundan aşkar olunmuş gil qab nümunələri həcminə və formasına görə müxtəlifdir.

Qırmızımtıl rəngli, qabarıq gövdəli, kiçik küplərin boğazı enli olub, batıq xətlərlə çevrələnmişdir. Həmin xətlərin arası cızma, basma üsulu ilə bəzədilmişdir. Küplərin bir qismi üçqulpludur. Qulplar çiyin və boğaz hissəsindədir.

Orta həcmli, boz rəngli, uzunsov formalı küpün çiyin hissəsində dairəvi qulpu vardır. Gövdə hissəsi yapma kiçik məməciklərlə bəzədilmişdir.

Nüydi maddi mədəniyyət abidəsindən tapılmış süddan biçimli gil qabların yaxın oxşarları Yaloylutəpə mədəniyyəti abidəsindən məlumdur. Belə gil qablar Mollaisaqlı, Mingəçevir, Torpaqqala abidələrindən də tapılmışdır. Süddanbiçimli qablar kiçik həcmdə olub, gövdəsi şarşəkillidir. Əksəriyyətinin oturacaq hissəsi qabarıqdır. Bu qabların ağzı arxa hissədə dairəvi, kənarlar bayıra tərəf əyintili, ön hissədə iso novçalıdır. Novçavari çıxıntı ördək dimdiyini xatırladır.

Nüydi qədim yaşayış yerindən sadə formalı. müəyyən bədii tərtibata malik gil qablar daha çox tapılmışdır. Bu keramika məmulatlarının hazırlanması e.ə. I- e.-nın I əsrinə, yəni Roma işğalçılarının yürüşləri dövrünə aiddir. Tədqiqatlar göstərir ki, Roma işğalları ərəfəsində Qafqaz Albaniyasında əsasən metalişləmə sənətkarlığı ön plana keçmiş və hərb işi ilə bağlı silah istehsalı vacib olmuşdur. Odurki, dulusçuluq sənətində müəyyən tənəzzül özünü göstərir.

Gil məmulatı içərisində badya tipli qablar forma etibarilə diqqəti cəlb edir. Bu qabların ağzı uzunsov (yanları əyintili, bir növ qayığa oxşar, oturacağı nisbətən kiçik və yastıdır. Gövdəsinin bir tərəfində qulpu var.

Qədim nüydililərin məişətində çölmək tipli, mətbəx qabları geniş istifadə olunmuşdur. Geniş ağızlı, bir qədər qabarıq gövdəli, yastı oturacaqlı, ikiqulplu qabların çiyin hissəsi barmaqla basılmış batıqlarla ikiqulplu qabların çiyin hissəsi barmaqla basılmış batiqlarla naxışlanmışdır.

Nüydidə dolça tipli gil qablardan da geniş istifadə edilmişdir. Bu qablar qulplu olub, gövdəsində yapma qoşa məməcikləri vardır. Belə dolçaların bəzilərinin üzərinə qırmızı rəng çəkilmişdir. Üçayaqlı dolçanın gövdəsi şarşəkilli olub, boğazı slindirik və enlidir. Ayaqları qısa, alt hissəsi sferik formadadır.

Nüydinin zoomorf gil qabları öz bədii tərtibatı ilə diqqəti cəlb edir. Bunlar əsasən quş fiqurlarından (toyuq, xoruz) ibarət gil qablardır.

Nüydi abidəsindən qədim əhalinin əkinçilik, bağçılıq təsərrüfatları, məişəti, peşə sahələri ilə bağlı olan müxtəlif dəmir məmulatları tapılmışdır.

Buradan əldə olunmuş dəmir oraq Oğuz rayonunun Vardanlı yaşayış yerindən, Qəbələ rayonunun Şəfili kəndindən. Mingəçevirdən, Ermənistan ərazisindən tapılmış oraqlarla oxşar olub, e.ə. I minilliyin I yarısına aiddir.

Nüydi qəbirlərindən tapılan dəhrələr arxaik formadadır. Bu əmək alətləri Ağsu rayonu ərazisində bu günə qədər məişətdə, təsərrüfatda işlədilən çapaçaqlarla eyni formadadır. Belə çapacaqlar yalnız Mingəçevir abidələrindən məlumdur.

Dəmir bizlərin bir ucu ağac dəstəkli olmuşdur. İynə və qıyıqların bir ucunda sap keçirmək üçün deşik açılmışdır. O biri ucu şişdir.

Dəmir bıçaqların tiyəsi qövsvari və duz formadadır. Tiyələr iti kəsərlidir. Onların sulğuncuna ağac dəstək bərkidilmişdir.

Nüydi torpaq qəbirlərindən zinət əşyaları - qolbaqlar, üzüklər, sancaqlar və s. əldə edilmişdir. Qolbaqların daxili üzü hamar, xarici üzü isə bir qədər qabarıqdır. Diametrləri 5,3 sm olan bu qolbaqların ucu bir-birindən 2 sm aralı hazırlanmışdır. Belə qolbaqlar Nərgizava qəbir abidələrindən də məlumdur. Sadə, qaşsız üzüklər misdən hazırlanmışdır. Ucu şiş sancaqların bəziləri muncuqlarla bəzədilmişdir. Belə oxşar sancaqlara Mingəçevir küp qəbirlərində də rast gəlinir.

Nüydi abidəsindən ox ucları, qılınc, nizə, xəncər, bıçaq, yaba, balta növlü silahlar tapılmışdır. Nizə ucluqları yarpaq formalı olub, hər ikı tili iti kəsərli və şiş ucludur. Nizə və ox uclarının dəstəklərində ağac izləri qalmışdır. Deməli, bu silahlar ağac sapa bərkidilmişdir.

Qədim Nüydi döyüşçüləri hücum və müdafiə silahlarından istifadə etmişlər. Burada torpaq qəbirdən tunc dəbilqə tapılmışdır. Bu dəbilqə yeganə tapıntı olub, ulu babalarımızın hərb sənətinin, döyüş qabiliyyətinin Qafqaz Albaniyasında yüksək səviyyəyə çatdığını əyani şəkildə əks etdirir. Müəyyən baş ölçüsündə hazırlanmış dəbilqənin yanlardan çənəyə qədər uzanan, üzü müdafiə edən qulaq formalı, lövhəşəkilli çıxıntıları vardır. Alın hissədə xaricə çıxıntılıdır. Dəbilqə döymə üsulu ilə iki ayrı-ayrı hissədən düzəldilmiş və sonradan birləşdirilmişdir. Dəbilqənin çevrəsi 70-75 sm, onun uzunluğu isə 30 sm-dir. Dəbilqənin ətraf haşiyəsi bədii tərtibatlı olub, üzərində döyüş zamanı vurulmuş zərbənin izi qalmışdır.

1972-ci ildə, Nüydidə 11 saylı torpaq qəbir abidəsindən tapılmış pul dəfinəsi tariximizin iqtisadi, mədəni problemlərini araşdırmaq üçün çox böyük tapıntıdır. Dəfinə kiçik küpə (dopu) içərisində 36 ədəd gümüş sikkədən ibarətdir. Sikkələrin bir üzündə sxematik insan başı, digər üzündə isə bir əlində əsa və ya nizə, o biri əlində quş (bəzən də keçi?) tutmuş adam təsvir olunmuşdur. Sikkələrin yazısı yoxdur. Bu sikkələr Makedoniyalı İsgəndərin pullarına bənzədilərək zərb edilmişdir. Alban sikkələrindən başqa yalnız bir ədəd xarici sikkə vardır. Bu sikkə II Mitridatın (e.ə. 124-88) adına zərb edilmiş Parfiya puludur.

Göründüyü kimi Nüydi qədim yaşayış yeri Qafqaz Albaniyasının antik dövr mədəniyyət ocaqlarından biri olmuşdur. Qafqaz Albaniyasının iqtisadi, mədəni həyatında ticarət əlaqələrində bu yaşayış veri mühüm pul dəfinəsi aşkarlanarkən rol oynamışdır.

**QARAÇIBULAQ ANTİK DÖVR ABİDƏLƏRİ** - Ağsuçay vadisində yerləşən Nuran kəndi ərazisində bir sıra maraqlı tarixi-mədəniyyət abidələri vardır. Bu kənd Ağsu rayon mərkəzindən 24 km şimalda, Nüydi kəndindən 3 km cənubda yerləşir. Nuran kəndindən 2 km şimal-qərbdə, 1973-cü ildə antik dövrə aid Qaraçıbulaq yaşayış yeri və qəbiristanlığı aşkar edilmişdir. Yerli camaat arasında Qaraçuxa, Qaraçuq, Qaraçuxur kimi də tanınan bu ərazidə sahəsi 10-12 ha olan Qaraçıbulaq abidəsi yerləşir. Burada Pirqaraçuxa adlı yaşayış yerinin qalıqları da izlənilir.

Qaraçıbulaq abidəsində F. L.Osmanov tərəfindən arxeoloji qazıntı işləri aparılmış və e.ə. I minilliyə aid zəngin material əldə edilmişdir.

Qaraçıbulaq yaşayış yerində çaydaşından inşa edilmiş dördkünc plana malik tikinti qalıqları aşkar edilmişdir. Buradan dulus kürələri qalıqları açılmış, təsərrüfat küpləri, dən daşları, saxsı qıf, gil qadın heykəlciyi və s. tapılmışdır. Qadına sitayişlə bağlı olan gil fiqurlar Qırlartəpə abidəsindən də məlumdur.

Qaraçıbulaq nekropolundan gil qablar, tunc xəncər, dəmir nizə ucluqları, müxtəlif bəzək əşyaları tapılmışdır.

Qaraçıbulaq abidəsində yaşayış e.ə. XII əsrdən başlamış, e-nın I əsrinə kimi davam etmişdir. Arxeoloji materiallar göstərir ki, Qaraçıbulaq yaşayış yeri əhalisinin məşğuliyyətində bütün təsərrüfat sahələri, xüsusən sənətkarlıq mühüm yer tutmuşdur.

Nuran kəndi yaxınlığında yerləşən Qaraçı bulağı öz təbii gözəlliyi ilə diqqəti cəlb edir. Bulağın ətrafındakı daşlar üzərində keçmiş mədəniyyətimizin tarixi izlərini əks etdirən rəsmlər qeydə alınmışdır.

**UZUNBOYLAR ANTİK DÖVR ABİDƏSİ.** Uzunboylar antik dövr maddi mədəniyyət abidəsi Ağsu rayonunun Sanqalan kəndi ilə İsmayıllı rayonunun Sulut kəndi arasında 4 ha-lıq sahədə yerləşir. 1981-ci ildə F. Osmanovun rəhbərliyi ilə

Uzunboylar abidəsində aparılmış arxeoloji qazıntılar zamanı e.ə. I minilliyin son rübünə (e.ə. III - I əsrlərə) aid zəngin maddi-mədəniyyət qalıqları aşkar edilmişdir. Torpaq qəbirlərdə ölülər sağ böyrü üstdə bükülü vəziyyətdə basdırılmışdır. Ətrafına 50-70 saxsı qab, çoxlu dəmir nizə, çin, bıçaq, çapacaq, biz, qıyıq, bəzək şeyləri və s. habelə at, it və quş qoyulmuşdur. Qəbirlərin birindən Qafqaz Albaniyasına məxsus gümüş sikkə də tapılmışdır.

## NƏRGİZAVA QAFQAZ ALBANİYASININ NADİR TARİXİ ABİDƏSİDİR

Qafqaz Albaniyasmm ərazisindən axan Ağsu çayının hövzəsində antik dövrdə salınmış bir sıra yaşayış məskənləri iqtisadi-mədəni cəhətdən inkişaf edərək mühüm sənətkarlıq və ticarət mərkəzlərinə çevrilmişdir.

Həmin yaşayış yerlərindən və onlara məxsus nekropollardan əldə edilən arxeoloji materiallar - dəfinələr, sikkələr, dulusçuluq və metal məmulatları bunu sübut edir.

Şamaxı, İsmayıllı və Ağsu rayonları ərazisində aşkar olunmuş antik dövrü yaşayış məskənləri və nekropollar xalqımızın qədim tarixinin öyrənilməsində böyük elmi əhəmiyyət kəsb edir.

Ağsu rayonu ərazisində 1960-1990-cı illərdə görkəmli arxeoloq F. L. Osmanov tərəfindən aparılmış arxeoloji tədqiqatlar Qafqaz Albaniyasının antik dövrü tarixinin bir sıra mühüm məsələlərini öyrənməyə imkan vermişdir.

Bununla belə, Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünün öyrənilməsində müstəsna yeri və əhəmiyyəti olan Ağsu rayonu ərazisinin arxeoloji abidələri lazımınca tədqiq olunmamışdır.

XX əsrin 90-cı illərində Ağsu rayonunun Gəgəli kəndi ərazisində təsərrüfat, tikinti işləri görülərkən Nərgizava adlı antik və ilk orta əsrlər dövrünə aid qədim yaşayış yerinə məxsus nekropolun bir hissəsi dağıntıya məruz qalmış və buradan qiymətli maddi-mədəniyyət nümunələri aşkara çıxarılmışdır.

Bu arxeoloji materialların izi ilə Gəgəli kəndi ərazisində axtarışlar aparılmış Nəgizava yaşayış yeri və ona məxsus qədim nekropolun yeri müəyyənləşdirilmişdir. (Nərgizava abidəsinin yerli əhali arasında adı bu ərazidə bitən nərgiz gülü ilə əlaqələndirilir. Lakin çox ehtimal ki, Nərgizava Nərgizoba sözündən yaranmışdır).

Nərgizava yaşayış yeri Gəgəli kəndi ilə Bico kəndi ərazisində (Gəgəlidən təxminən 2 km şərqdə) Yasamal adlı qobuluq ərazidə yerləşir. Bu ərazini Gəgəli və Bico kəndlərinin əhalisi qədim Nərgizava şəhərinin yeri adlandırır. Nərgizava yaşayış məskəni 10 ha-dan artıq geniş bir sahəni əhatə edir. Bu abidənin ərazisi uzun müddət əkin sahəsi kimi şumlanıb istifadə olunmuş və mədəni təbəqəsi güclü

dağıntıya məruz qalmışdır. Odur ki, yaşayış yerində külli miqdarda keramika nümunələrinə, daş əmək alətlərinə (dən daşları) və s. maddi-mədəniyyət qalıqlarına rast gəlinir. Gil qab qırıqları çox olduğundan yerli əhali Nərgizava yaşayış məskəninin müəyyən sahəsini dulusxana adlandırır.

Nərgizava yaşayış yerində mindən artıq yaşayış evləri olması haqqında mülahizələr söylənilir. Deyilənə görə bu şəhər zəlzələ və yaxud hər hansı bir təbii fəlakət (sel suları) nəticəsində dağılmışdır. Həmçinin şəhərin monqolların Azərbaycana yürüşləri zamanı dağıdılması ehtimalı da vardır. Nərgizava yaşayış yerinin üst tərəfindən (şimalından) Ömər-Laici su arxı keçir. 1862-1863-cü illərin arxiv sənədində buradan Yasamal ərazisinin Gəgəli tayfalarına verilməsi haqda məlumat vardır.

Nərgizavaya məxsus nekropol bu yaşayış yerindən təxminən 2 km aralıda, Gəgəli kəndinin şimali-şərqində, Salman dərəsi ilə Şamı dərəsi arasında müasir Məmmədli və Təhməzli məhəllələrində yerləşir. Nekropolun sahəsi 4 ha-ya yaxındır. Nekropolun ərazisində müasir Gəgəli kəndinin yaşayış evləri (Məmmədli və Təhməzli nəslinə məxsus) və həyətyanı sahələri yerləşir. Nərgizava nekropolunda təsərrüfat-tikinti işləri görülərkən sadə torpaq, daş qutu, küp və təknə tipli qəbir abidələri aşkara çıxarılmış daş büt, keramika və müxtəlif metal məmulatlar əldə edilmişdir. (Nərgizava qəbir abidələri Gəgəli kənd sakinləri Məhəmməd Mirzəyev, İmran Bazıqov, Rüstəm Rüstəmov, Tofiq Mütəllimov, Cavanşir Şirəliyev, Akif Kərimov, Ağaverdi İsayev tərəfindən aşkar olunmuşdur).

Bu qəbir abidələri yer səthindən 0,5-1 m dərinlikdə yerləşir.

Daş heykəl tapılmış qəbir isə yer səthindən 3 m dərinlikdə yerləşmişdir. Bu qəbrin üzəri 50 sm qalınlığında olan sal daşla örtülmüşdür. Daş büt qəbrin baş tərəfindən tapılmışdır.

Gəgəlidən tapılmış daş büt boz rəngli əhəng süxurundan hazırlanmışdır. Onun baş hissəsi qırılmışdır. Büt realistik canlı yaradır. Bədən hissəsi düz dayanmış vəziyyətdədir. Başı yumru formalı olub, burun, gözlər və ağız hissələri aydın verilmişdir. Sallaq buğu vardır. Qollar dirsəkdən əyilmiş, əllər doş və qarın nahiyyəsinə qoyulmuşdur . Sağ əli sol döşu (ürəyi), sol əli isə kəmər yerindədir.

Nərgizava (Gəgəli) daş bütü Şamaxı rayonu ərazisindən axan Pirsaat çayının sol kənarında yerləşən Çraqlı abidəsindən tapılmış daş bütlərlə tam oxşardır. Tədqiqatçı C. Ə. Xəlilov həmin bütləri e.ə. I minilliyin son rübünə (e.ə. III - I əsrlər) aid etmişdir.

Məlumdur ki, antik və ilk orta əsrlər dövründə qədim Şirvan əhalisi arasında bütlərə inam geniş yayılmışdır. Bütpərəstlik dini inamını əks etdirən daş və gil heykəllər terrokat fiqurlar Şirvanın dağətəyi zonasında e.ə. III - bizim eranın III-IV əsrlərinə aid olan bir çox abidələrindən, xüsusilə Xınıslı, Çıraqlı, Mollaisaqlı və b. yaşayış yerlərindəki ibadətgahlardan və qəbiristanlıqlardan əldə edilmişdir.

Bu daş bütlərin yayılma arealları skiflər dövründən başlayaraq (e.ə. IV-eramızın III əsri) Şərqi Avropanın sol hissəsini, Cənubi Qafqazı əhatə etmişdir.

Nərgizava nekropolunda dağıdılmış sadə torpaq küp və təknə qəbir abidələrindən əldə edilmiş keramika nümunələri antik və ilk orta əsrlər dövrünə aiddir.

Antik dövrə aid gil qablar kiçik, minatür həcmdə olub əldə hazırlanmışdır.

Kasa tipli qab əldə hazırlanmış, açıq çəhrayı rəngdədir. Gövdəsi orta hissədə azacıq qabarıq olub, oturacağa doğru bir qədər yığılır. Ağzı geniş olub, kənarı düzdür. Oturacağı yastıdır. Ağzının kənarı ilə gövdəni birləşdirən həlqəvari qulpu var. Bu tip gil qablar e.ə. III-I əsrlərdə qədim Mingəçevirdə, İsmayıllı rayonunun Mollaisaqlı və Nüydi yaşayış yerlərində istehsal olunmuşdur.

Dopu tipli, çəhrayı rəngli qabın gilinə narın qum qatılmışdır. Gövdəsi orta hissədə qabarıq, oturacağı yastıdır. Ağzının kənarı düzdür. Gövdösində ilgəkvari qulpu var. Qarşı tərəfdə də hündür, şaquli qulpu vardır. Bu tip qulplar Şirvanın antik dövrü dulusçuluq məmulatı üçün səciyyəvidir. Eramızdan əvvəl I - eramızın II əsrlərinə aid olan bu tip gil qablar, qədim Şamaxı, Mollaisaqlı (İsmayıllı rayonu) və Ağsu rayonunun Nüydi abidələrindən məlumdur.

Minatur həcmli kasa tipli qab çəhrayı rəngli olub gövdəsi orta hissədə qabarıq, oturacağı yastıdır. Ağzının kənarı azca içəri yığılmışdır. İki tərəfdə qulpvari çıxıntıları, çiyin hissəsində isə 6 kiçik basma batıqlar vardır. Üzərində qırmızı boya-rəng çəkilmişdir. Bu qabın yaxın analogiyası Nüydi, Mollaisaqlı, Xınıslı, Qubaxəlilli və b. antik dövrü abidələrindən məlumdur.

Kasa tipli gil qab çəhrayı rəngdədir. Ağzı geniş olub, gövdəsi oturacağa getdikcə bir qədər yığılır, oturacağı yastıdır. Ağzının içərisi lentvari çıxıntı ilə əhatələnir. Bu çıxıntı qapaq qoymaq üçündür. Ağzının kənarında şaquli yuxarı qalxmış ilgəkvari qulpu vardır. Eramızdan əvvəl I - eramızın II əsrlərinə aid olan bu tip qablar qədim Ağsu dulusçuları tərəfindən istehsal edilmiş və geniş yayılmışdır. Eyni tip gil qablar Ağsunun Qırlartəpə və Uzunboylar, Şamaxıda Xınıslı abidəsindən tapılmışdır.

Minatur həcmli, çəhrayı rəngli ağzı novçalı qabın gövdəsi qabarıq, oturacağı yastıdır. Ağzı geniş olub, bir tərəfdən iki yandan barmaqla sıxılaraq novça əmələ gətirilmişdir. Belə açıq kənarı mayenin rahat süzülməsi üçün əlverişlidir. Ağız kənarı ilə gövdəni birləşdirən ilgəkvari qulpu var. Ağız kənarının qulpa birləşən hissəsi parallel çərtmələrlə bəzədilmişdir. Boğaz hissəsi isə maili cızma xətlərlə naxışlanmışdır. Üzərində qırmızı rəng - boya çəkilmişdir. Bu tip qablar Ağsu rayonunda Nüydi, Uzunboylar, Qırlartəpə və Mollaisaqlı yaşayış yerlərində b.e. I-II əsrlərində geniş yayılmışdır.

Eramızın əvvəllərinə, ilk orta əsrlər dövrünə aid qab nümunələri müxtəlif formalarda olub, gillərinin tərkibində narın qum qatışığı vardır. Bu qablar əldə hazırlanmış, sarımtıl, boz və çəhrayı rəngdə olub, yaxşı bişirilmişdir.

Çəhrayı rəngli, qabarıq gövdəli gil qabın oturacağı yastı, ağzı genişdir. İki yanda, çiyin hissə ilə boğazı birləşdirən burma qulpları vardır. Eramızın I-III əsrlərinə aid olan bu tip gil qablar Mingəçevir, Xınıslı (Şamaxı), İsmayıllı rayonunun Mollaisaqlı, Sultankənd, Qalagah abidələrindən əldə edilmişdir.

Dopu tipli, çəhrayı rəngli gil qabın gövdəsi qabarıq, oturacağı yastıdır. Ağzı geniş olub kənarı bir yandan novçalı düzəldilmişdir. Ağzının kənarı ilə çiyin hisssəsini birləşdirən halqavari qulpu var. Eramızın I-III əsrlərinə aid bu tip qablar Şamaxı rayonunun Quşçu, Qalacıq, Ağsu rayonunun Nüydi, Uzunboylar və Qırlartəpə abidələrindən məlumdur.

Dopu tipli çəhrayı rəngli qabın gövdəsi qabarıq olub, oturacağa doğru yığılır. Oturacağı kiçik və yastıdır. Boğazı dar və silindirik formadadır. Çiyni ilə boğazını birləşdirən qulpu vardır. Üzərində qırmızı rəng çəkilmişdir. Antik dövrü qırmızı boyalı qabları üçün səciyyəvi olan bu xüsusiyyətin qədim Ağsu rayonu ərazisində, Nərgizavanın I-III əsrlər dulusçuluq sənətində bir ənənə olaraq davam etdirilməsi çox maraqlıdır.

Nəlbəki tipli kiçik həcmli gil qab çəhrayı rəngdə olub, dıvarları qısa və düzdür. Oturacağı yastıdır. Bu tip gil qablar İsmayıllı rayonunun Qalagah abidəsinin II-IV əsrlərə aid mədəni təbəqəsindən tapılmışdır. Dopu formalı, kiçik həcmli qabın gövdəsi qabarıq, oturacağı batıqdır. Ağzının kənarı genişdir. Çiyin hissədə bir-birinə əks istiqamətdə qulpların bir hissəsi qalmışdır. Bu tip qablar Azərbaycanda II-III əsrlərə aid abidələrdən məlumdur.

Çəhrayı rəngli tək qulplu minatur gil qabın gövdəsi oturacağa yaxın hissədə qabarıqdır. Oturacağı bir qədər qabarıqdır. Ağzının kənarı xaricə mailli əyintilidir. Çiyinlə ağız kənarını birləşdirən halqavari qulpun yanında lüləyi vardır. Lüləkdən əks istiqamətdə, çiyin hissədə dairəvi batıq vardır. Bu tip gil qablar Azərbaycanın III -VII əsrlər dulusçuluq məmulatları ilə eyniyyət təşkil edir.

Kobud şəkildə hazırlanmış minatur gil qabın gövdəsi qabarıq, oturacağı yastıdır. Ağız hissəsi iki yandan basıq olub, ellikvari formaya salınmışdır. Bir növ antik dövrü süddan biçimli ağzı novçalı qablara oxşayır. Gövdə ilə ağzının kənarını birləşdirən qulpu vardır. Əks tərəfdə, çiyin hissədə qulpa bənzər qulaqcıq formalı rudiment yapma çıxıntı vardır. Bu tip gil qab nümunələrinə Şamaxı rayonunun Hacıqədirli abidələrində IV-VII əsrlərə aid gil məmulatları içərisində rast gəlinir.

Nərgizava gil qablarının bir qrupu özlərinin zoomorf elementləri (quş-xoruz dimdiyi) ilə diqqəti cəlb edir. Belə qablar qabarıq gövdəli, yastı oturacaqlıdır. Boğazları dar, ağzı nisbətən geniş olub, yanlardan basılmış, novçalıdır. Batıq yerlərdə quş gözünü xatırladan dairəvi yapmalar və çiyinlə ağzının kənarını

birləşdirən qulpu vardır. Bu qablardan bəzilərinin üzərinə və ağzının içəri qnağı boyunca qırmızı rəng - boya çəkilmişdir. Bu tip gil qablar II-IV əsrlərə aid olub qədim Şamaxı -Xmıslıdıdan, Şəhərgahdan və Mingəçevirdən məlumdur.

Minatür dopu tipli gil qabın gövdəsi bir qədər qabarıq, oturacağı yastı, ağzı novçalıdır. Ağzının kənarı ilə çiynini birləşdirən dirsəkvari qulpu həmçinin lüləyidir. Boğaz hissəsi maili cızma xətlərlə naxışlanmışdır. Eramızın III-IV əsrlərinə aid bu tip gil qablar Mingəçevir və Şamaxı abidələrində əldə edilmişdir.

Bir ədəd iki ayaqlı vaza tipli qab (qırıqlar) diqqəti xüsusi cəlb edir. Bu qab çəhrayı rəngdədir. Ayaqları hündür olub, oturacaq hissəsi dairəvi - disk formasındadır. Hər iki qulpun yuxarı hissəsində dimdikvari çıxıntı vardır. E.ə. I - eramızın I əsrlərinə aid bu tip vazalar Ağsu rayonunun Nüydi, İsmayıllı rayonunun Mollaisaqlı, Hacıhətəmli, Kənzə abidələrindən məlumdur.

Gəgəli kəndi ərazisindəki qəbir abidələrindən keramika ilə birlikdə tunc məmulatlar da əldə edilmişdir. Bu əşyaların bir qismi ilk antik dövrü mədəniyyəti üçün səciyyəvidir.

Zınqırov formalı asma bəzək nümunəsinin boğaz hissəsinə nazik tunc məftil spiralvari dolanmışdır. Asmaq üçün baş hissəsi həlqəvari düzəldilmişdir. Uzunluğu 3 sm-dir. Bu tip asma bəzək nümunələri Azərbaycanda son tunc və ilk dəmir və antik dövründə geniş yayılmışdır. Yaxın analogiyası İsmayıllı rayonunun Mollaisaqlı antik dövrü təknə qəbirindən məlumdur. (Bu haqda F.L.Osmanov məlumat vermişdir).

Həlqəvari üzük en kəsiyi slindirik olan tunc məftildən hazırlanmışdır. Diametri 2 sm-dir. Bu tip üzüklər e.ə. II-I əsrlərə aid olub Nüydi (Ağsu) torpaq qəbirlərdən yerli Alban pulları və II Mitridatın (e.ə.l23-88) gümüş sikkələri ilə birlikdə tapılmışdır.

Diskvari tunc əşya tökmə üsulu ilə qəlibdə hazırlanmışdır. İçəridən batıq, üz tərəfdən qabarıqdır. Orta hissəsi dairəvi deşiklidir. Bir yanında geyimə bərkitmək üçün qoşa deşikli çıxıntısı var. Ətraf dairəsi və oradakı deşiyin əhatəsi çəpinə kəsmələrlə naxışlanmışdır. Ortadakı deşiklə kənarlar arasındakı dairəvi sahə barelyef qoşa spirallarla bəzədilmişdir. Bu naxış-bəzək motivləri Azərbaycanda e.ə. II-I minilliklərdə bədii tunc və keramika məmulatlarının tərtibatında geniş tədqiq olunmuşdur. Bəzək motivləri proporsianal bölgüdə, yəni əşyanın üzərini dörd bərabər hissəyə bölməklə verilmişdir. Diametri 5,5 sm, ortadan deşiyin diametri 2,5 sm-dir. Ortadakı deşikdə çox ehtimal ki, qiymətli daş-qaş olmuşdur. Bu tip tunc məmulatı Ağsu rayonunun Nüydi, Qırlartəpə və Uzunboylar yaşayış yerlərinin metalişləmə sənətkarlığı üçün çox səciyyəvidir. (Analoji məlumatı tədqiqatçı F.L.Osmanov vermişdir.)

Digər diskvari formalı tunc əşya da tökmə üsulu ilə hazırlanmışdır. İçərisi batıq, üzü qabarıqdır. Mərkəzi hissəsi dairəvi deşikli olub həlqəvari çıxıntı ilə

əhatələnmişdir. Bir tərəfdə asmaq üçün deşikli saplağı vardır. Diskin kənarları boyunca kiçik, qabarıq dairəvi bəzəklər düzülmüşdür. Saplağın diskə birləşən hissəsi qoşa spiralvari bəzəklə tamamlanır. Diskin dairəsi boyunca dairəvi qabartmalar verilmişdir. Diskin tilinin dairəsi şəbəkəlidir. Asmaq üçün olan saplağın ucu ovalvari olub, deşiklidir. Saplağın deşiklə tamamlanan hissəsində dairəvi düyməcik vardır. Diametri 8 sm, deşiyin daimetri 2 sm-dir. Bu tip metal məmulatı Ağsu rayonunun Nüydi və Uzunboylar torpaq qəbilərindən məlumdur.

Bir ədəd tunc möhurun sası əldə edilmişdir. Möhürün həlqəsi nazikdir. Möhürün qaş hissəsi oval formadadır. Qiymətli daşdan olan möhür - qaş hissəsi qopub düşmüşdür. Diametri 1,3 sm, möhür çalasının diametri lx0,3 sm-dir. Bu tip möhürlər Roma hökmdarı Oktavian Avqustun hakimiyyəti dövründə (e.ə. 30 eramızın 14) zərb olunmuş gümüş sikkələrlə birlikdə qədim Bərdənin (indiki Şatıııı kəndi yaxınlığında) Şortəpə antik dövrü yaşayış yerinin nekropolundan küp qəbirdən əldə edilmişdir.

Antropomorf fiqurdan ibarət tunc əşya böyük maraq doğuran nadir tapıntıdır. Tökmə üsulu ilə hazırlanmışdır. Gövdə hissəsi zəncirvari bitişik iki dairəvi həlqədən ibarət olub kənarlarını əhatə edən haşiye maili kəsmə xətlərlə bəzədilmişdir. Orta hissədə bir qədər qabarıqdır. Bir tərəfdə adam başı fiquru verilmişdir. Adamın boynu uzun olub dörd cərgə spiralvari boyunbağı ilə əhatələnmişdir. Fiqurun başı yumru, uzu uzunsovdur. Burun, qulaqlar, gözlər, ağız və buğ hissələri verilmişdir. Uzunluğu 9 sm-dir. Bu fiqur bəzi əlamətlərinə görə Qafqazın e.ə. I minilliyə (e.ə. VIII-IV əsrlər) aid antropomorf tunc məmulatları ilə oxşarlıq təşkil edir. Bu antropomorf tunc fiqur özünün antropoloji xüsusiyyətinə görə həmçinin İsmayıllı rayonunun Mollaisaqlı, Hacıhətəmli abidələrindən tapılmış gil qadın fiqurları (e.ə. IV - I əsrlər) ilə yaxın oxşarlığa malikdir.

Küp qəbirindən tapılmış iki ədəd at fiqurları orjinal sənət nümunələridir.

At fiqurlarından biri atlı ilə birlikdə təsvir olunmuşdur. At qaçan-çapan vəziyyətdədir. Atın belində çul və yaxud yəhər vardır. Quyruğu düyülmüşdür. Yalı buruq-buruq verilmişdir. Bıı buruqlar çiyin hissədə iki yana ayrılır və qolların üzərində bitişik üçbucaqlardan ibarət bəzəklə tamamlanır. Boyunu dik tutmuş, başı qabağa yönəlmişdir. Hər iki üzündə spiralvari formada verilmisdir. Hər iki yanda boynu ilə döşündə bitişik spiralvari bəzək vardır. Qantarğasının boyunun ön tərəfinə uzanan hissəsi burmalıdır. Döşü ilə boynunu birləşdirən bəzək diqqəti cəlb edir. Döş hissədəki dörd qabarıq bəzək zınqrovu xatırladır. Atlı çapar vəziyyətdə olub, belinə sanki qurşaq sarınmışdır. Hər iki qolları dirsək səviyyəsində qaldırılıb atın yalından yapışmışdır. Adamın baş hissəsi dairəvi halqa kimi verilmisdir. Bu tip tunc at fiquru Ağsu rayonunun Nuran kəndi ərazisində e.ə. VI-IV əsrlərə aid torpaq qəbirlərdən tapılmışdır. Nərgizava tunc

atlı fiquruna yaxın və həmdövr analoji atlı fiquru Dağıstanın ilk antik dövrü Kidero abidəsindən məlumdur.

Bitişik at fiqurları bir-birinə əks istiqamətdə qaçan vəziyyətdə təsvir edilmişdir. Bir növ əfsanəvi dəniz atını xatırladır. Boyun hissəsi dik, başları yuxarı qalxmış, qulaqlar şəklənmiş və irəli baxır. Yalı hər iki tərəfdən burmalı saç kimi verilmişdir. Fiqurun başı ovalvari halqadan ibarətdir. Bədəni spiralvari bəzəklidir. Oturacaq hissədə hər iki yanda şarşəkilli qabarma vardır. Belə qabartma cıxıntılar at fiqurlarının döş hissəsinin hər iki yanında da vardır. Bu fiqurun atın bədənini əks etdirən aşağı hissəsi slindirik formadadır. Alt hissədə üç həlqə vardır. Ortadakı həlqədə zəncirin bir həlqəsi qalmışdır. Deməli bu fiqurun aşağı hissəsindən əlavə bəzəklər asılmışdır. Bu fiqur Qafqazın e.ə. VI-IV əsrə aid bədii metalişləmə sənəti üçün səciyyəvidir.

Bitişik at təsvirləri Mingəçevirdən tapılmış tunc toqqa üzərində də verilmişdir.

Bitişik at fiqurların gildən olan analogiyası İsmayıllı rayonunun Mollaisaqlı yaşayış yerindən tapılmışdır.

Tunc bilərzik ovalvari formaya malikdir. Xarici tərəfdən qabarıq tiplidir. Ucları çıxıntılı və yastıdır. Hər iki ucları yanlardan qraviro üsulu ilə sünbülü xatırladan naxışla bəzədilmişdir. Diametri 6,4 sm-dir. E.ə. II-I əsrlər üçün səciyyəvi olan bu tip bilərziklər Ağsu rayonunun Nüydi torpaq qəbir abidələrindən tapılmışdır.

E.ə. IV-III əsrlərə aid küp qəbirindən müxtəlif ölçülü bilərziklər və kəmərin toqqa hissəsi əldə edilmişdir. Ucları ilan başı fiquru şəklində olan tunc bilərzik ovalvari formadadır. Orta hissəsi bir qədər çıxıntılıdır. Diametri 5,5 sm-dir.

Kiçik ölçülü digər bilərziyin də ucları ilan başı formasındadır. Həmçinin ovalvari olub, orta hissəsi qabarıqdır. Diametri 4 sm-dir. Bu tip tunc bilərziklər Ağsu rayonunda Nüydi torpaq qəbirlərindən əldə edilmişdir. Kiçik ölçülü dairəvi formalı bilərzik yastı lövhədən hazırlanmışdır. Ucları yastı olıb bir-birindən aralıdır. Diametri 3 sm-dir. Kiçik ölçülü bilərziklər uşağa məxsus olmuşdur. Bu tip bilərziklər Nüydi antik dövrü (e.ə. II-I əsrlər) torpaq qəbirlərindən çoxlu miqdarda tapılmışdır.

Maral fiqurundan ibarət tunc kəmər toqqası tökmə üsulu ilə hazırlanmışdır. Oval formalı yastı lentvari lövhə çərçivə içərisində yerləşən iri şaxəli buynuzlu maral fiquru sağ istiqamətdə qaçan vəziyyətdə təsvir olunmuşdur. Hər buynuzun uc çıxıntısı vardır. Maralın qıçları sıçrayışa hazır olan bir dinamkadadır. Gözü, ağzı, burun deşiyi yaxşı verilmişdir. Maral boynunu geriyə çevirmiş, onun arxa hissəsində oturmuş qartala baxır. Bu iki totem simvollarının qarşı-qarşıya durması maraqlı məzmun kəsb edir. Toqqanın qayış bərkidilən hissəsi halqavari, kəməri bağlamaq üçün olan hissəsi isə qarmaqvari düzəldilmişdir. Uzunluğu 12. 5 sm-dir.

Tunc toqqalar Qafqazda, eləcə də Azərbaycanda bir çox abidələrdən tapılmışdır. Nərgizava tunc toqqasının yaxın analogiyası İsmayıllı rayonunun Mollaisaqlı gil təknə qəbirindən məlumdur.

Nərgizava metal məmulatlarına bir ədəd gümüş bəzək nümunəsinin qırığı da daxildir. Oval formaya malik bu bəzək əşyasının bir hissəsi qırılmışdır.

Nərgizava yaşayış yeri, ona məxsus olan Gəgəli kəndi ərazisindəki qədim nekropol, buradakı müxtəlif tir qəbir abidələrindəki dəfn adətləri, əldə edilən materiallar Qafqaz Albaniyası tarixi və mənəvi mədəniyyəti ilə bağlı yeni elmi fikirlər söyləməyə imkan verir. Bu maddi mənbələr Azərbaycan xalqının etnogenezi probleminə yeni baxış üçün əsaslı dəlillərdir.

Dulusçuluq və metalişləmə məmulatlarının səciyyəvi xüsusiyyətləri göstərir ki, antik və ilk orta əsrlər dövründə qədim Şirvanda özünəməxsus sənətkarlıq növləri və zərgərlik yüksək səviyyədə inkişaf etmişdir.

Qafqaz Albaniyasının iqtisadi, ictimai, siyasi həyatında həlledici rol oynayan Şirvan mədəniyyət mərkəzlərində atcılıq və hərb sənəti, eləcə də heykəltəraşlıq inkişaf etmişdir.

Bu mədəniyyət mərkəzləri, həmçinin Nərgizava Azərbaycanın qonşu Qafqaz, Şərqi Avropa regionları və Ön Asiya vasitəsilə Antik dünya - Roma ilə iqtisadi-mədəni əlaqələrində əhəmiyyətli rol oynamışdır. Odur ki, Nərgizava arxeoloji materiallarının antik dünya mədəniyyəti ilə bağlılığı vardır.

Beləliklə, Azərbaycan tarixinin bu günədək zəif öyrənilmiş antik və ilk orta əsrlər dövrü problem məsələlərinin hərtərəfli elmi şəkildə araşdırılması baxımından, Ağsu ərazisindəki abidələrdə, xüsusilə Nərgizava abidəsində arxeoloji tədqiqatlar aparılması çox vacibdir.

**BƏYİMLİ QALASI** - Ağsu rayonunun Bəyimli kəndi ərazisində erkən orta əsrlər dövrünə aid istehkam tikintilərinin qalıqları vardır. Bu istehkam dördkünc plana malik olmuşdur. Qala divarlarının künc hissələrinin qalığı 15 metrə qədərdir. Qalanın ətrafı dərin kanalla əhatələnmişdir. Görünür düşmən hücumları zamanı qalanın müdafiəsini daha da möhkəmləndirmək məqsədilə bu kanal Girdimançaydan gətirilən su ilə doldurulurmuş.

Göründüyü kimi, Ağsuçay və Girdimançay vadisi əhalisinin qədim dövr maddi-mədəniyyət abidələrinin öyrənilməsi yolunda ilk addımlar atılmışdır. Bu sıraya yeni maddi-mədəniyyət abidələri əlavə olunduqca Ağsu ərazisinin tarixçəsi genişlənir.

## TARİXİ - MEMARLIQ ABİDƏLƏRİ

Ağsuçay və Girdimançay vadisi əhalisinin maddi-mədəniyət abidələri içərisində XIV-XX əsrlərdə böyük ustalıqla tikilmiş tarixi memarlıq abidələri

üstünlük təşkil edir. Tarixi memarlıq abidələrinə turbələr, qalalar, məscidlər və s. aiddir.

1. Şeyx Dursun türbəsi
2. Xəzinə dağı qalası
3. Şeyx Əmir Əhməd türbəsi
4. Pir Bəxtiyar türbəsi
5. Həzrə piri
6. Dəmir körpü
7. Şıxməzid türbəsi
8. Bilal Əfəndi məscidi
9. Qırmızı günbəz
10. Ağ günbəz

**ŞEYX DURSUN TÜRBƏSİ.** 1399-cu ildə tikilən, hazırda pir deyə ziyarət edilən Şeyx Dursun türbəsi Ağsu şəhərinin şimal-şərq hissəsində, şəhərdən 1 km aralı məsafədə yerləşir. Abidənin divarları əl ilə kəsilib yonulmuş əhəng (pud) daşlarından tikilmişdir. Türbənin binası səkkizüzlü prizma şəklindədir. Binanın üst örtüyü konusvari tağla bağlanmışdır. Tağ əl ilə kəsilmiş daşdan düzəldilmişdir. Abidənin qapısı cənub-şərqədir. Qapının üstü tağvaridir. Qapı üzərində ərəb əlifbası ilə kitabə həkk edilmişdir. Kitabə bütöv daş lövhə üzərindədir. İki sətrlik gözəl süls xəttlə yazını Məşədixanım Nemət oxumuşdur: "Bu xoş rayihəli müqəddəs (ziyarətgah) və işıqlı məqbərə, övliyalırın görkəmlisi Şeyx Dursun ibn Əhməd Padarındır. Onun vəfatı haram zilhiccə ayı, səkkiz yüz birinci ildə (VIII - IX 1399) baş vermişdir

Abidənin kitabəsinin bir hissəsi pozulduğu üçün türbənin tarixi ilə bağlı müxtəlif fikirlər yaranmışdır. Ağsu rayonunda nəşr olunan "'Birlik" qəzetinin bir çox məqalələrində, Ağsu rayon tarix-diyarşünaslıq muzeyinin materiallarında bu tarix 1457-ci il kimi göstərilir. Lakin M.Nemətin yeni oxunuşunu və C.Aleksandroviç, B.Dorn oxunuşlarının səhv cəhətlərini nəzərə alsaq 1399-cu il tarixinin daha düzgün variant olduğu aydınlaşar.

Şeyx Dursun türbəsi yaxınlığında ikinci bir türbənin qalıqları vardır. Qırmızı bişmiş kərpicdən inşa edilmiş bu türbə memarlıq planına görə Şeyx Dursun türbəsi ilə eyniyyət təşkil edir.

Şeyx Dursun kimdir? Əvvəla Şeyx Dursunun kişi yoxsa qadın olması məsələsinə aydınlıq gətirilməlidir. Çünki rayon sakinləri arasında söylənən rəvayətlərdə Dursun qadın kimi yad olunur (qadınların şeyx rütbəsi daşımaları haqqında məlumat yoxdur). Lakin kitabənin mətnindən göründüyü kimi Şeyx Dursun Əhməd Padarın oğludur. Düməli, Şeyx Dursun kişidir.

İkincisi, Şeyx Dursunun padar tayfasından olmasının nə dərəcədə doğruluğudur. Qeyd etmək lazımdır ki, elmi ədəbiyyatda B.Dorrunun, M.Nemətin

rayon mətbuatında Ağamahmud Mehbalıyevin, Ağasəlim Babaşovun bu haqda mülahizələri maraqlıdır.

M.H.Vəliyev qeyd edir ki, patolar Səfəvilər tərəfindən İrandan köçürmüşlər və ləzgiləri itaətə gətirmək üçün onlara yaxın rayonlarda yerləşdirilmişlər. Hal-hazırda aşağıdakı kəndlərdə yaşayırlar:

Quba qəzasında - Şabran Padar, Armud Padar;
Göyçay qəzasında - Padar Gülməli;
Ağdaş qəzasında - Qaradağlı Padar;
Şamaxı qəzasında - Padar;
Nuxa qəzasında - Padar;
Cəbrayıl qəzasında - Padar.

Lakin kitabədən göründüyü kimi padarlar səfəvilərdən əvvəl də Şirvanda - Ağsuda yaşamışlar. Akademik B.Dornun fondunda olan bir arayışda maraqlı məlumat var. «Şeyx Dursun əsl Şirvan əhlindəndir. Xançoban mahalından, padar tayfasındandır. Şeyx Dursun ibn Əhməd Padar şərəfli bir adam olub, qoşun hissəsindən Kələxana qəryəsinin qərbində vaqe olan məşhur yeddi günbəzlər bu Şeyx Dursunun övladlarıdır».

Üçüncüsü, Şeyx Dursunun və onun nəslindən olan şeyxlərin məqbərələrinin ziyarətgaha çevrilməsi, onların şeyx ləqəbi daşıması, arayışda hərbçi adlandırılmaları sufiliklə bağlı cərəyanın və yaxud xalq hərəkatının başçıları olduqlarına dəlalət edir. Yəqin ki, bu hərəkat artıq ideoloji səviyyəni aşıb siyasi və hərbi xarakter daşımışdır.

Şirvan xanlığının aparıcı hərbi tayfalarından olan padarlar yarımköçəri həyat tərzi keçirərək əsasən maldarlıqla məşğul olmuşlar. Padar, Padarçöl kəndlərində, Gəgəli kəndinin bəzi nəsillərində, itib-batmış Axtaçı, Yekəqurşaqlı obalarında öz adını əbədiləşdirən padar tayfalan Ağsu ərazisində XX əsrin əvvəllərindən oturaq həyata keçmişdir.

Beləliklə, Şeyx Dursun türbəsinin kitabəsi padar tayfalarının Şirvanda məskunlaşması haqqında mövcud mülahizələrə yenilik gətirmişdir. Hələ XIV əsrdə Şirvanda, bu tayta aparıcı hərbi-siyasi mövqeyə malik olmuşdur.

**XƏZİNƏ DAĞI QALASI.** Girdiman çayının sol sahilində. Padar kəndi ərazisində xalq arasında Xəzinə dağı adlanan bir təpənin üç tərəfi sıldırım qayalarla əhatə olunmuşdur. Təpəyə qalxmaq üçün yeganə bir yolun üzərində çəkilmiş qədim qala divarının qalıqları zəmanəmizədək qalır. Qala istehkamının görünən hissəsinin uzunluğu 7 metr, eni isə 4 metrdir. Heç şübhəsiz ki, bu qala şəhərlər arasında yolüstü karvansara və yaxud çaparxana olmuşdur.

Xəzinə dağının şimal hissəsində iki yeraltı, üfiqi istiqamətdə uzanan tağvari boşluq əhəng daşları ilə hörülmüşdur. Tunel formasında olan bu yeraltı tikinti, görünür dağın içərisinə doğru gedən yol olmuşdur. Əsrlər keçdikcə təbii uçqunlar

nəticəsində tökülmüş torpaq hissələri tunel yolun qarşısını bağlamışdır. Odur ki, həmin yeraltı yolu axıradək getmək mümkün deyildir.

**ŞEYX ƏMİR ƏHMƏD TÜRBƏSİ.** Mustafalı kəndi qəbiristanlığında yerləşən, ətraf ərazilərin ziyarətgah yerinə çevrilən Şeyx Əmir Əhməd türbəsi 1722-ci ildə inşa olunmuşdur. Bu tarixi memarlıq abidəsi əl üsulu ilə kəsilib yonulmuş əhəng (pud) daşlarından hörülmüşdür. Abidə səkkizüzlü prizma şəklindədir. Fasad hissənin divar birləşmələrində oyma üsulla naxışlar həkk edilmişdir.

Ağsu rayonunun bu ərazisinin memarlıq abidələri haqqında Ərəbmehdibəy kəndi sakinləri maraqlı məlumat vermişlər. Burada topladığımız məlumata görə, İsmayıllı rayonunun Diyallı kəndində əməlisaleh adamlardan biri olan Şeyx Əmir Əhməd vəfat edir. Şeyx ölümündən əvvəl vəsiyyət edir ki, onun cənazəsini dəvənin üstünə qoyub, gəzdirsinlər. Dəvə harada dayanarsa, orada basdırsınlar. Mərhumun vəsiyyətinə əməl olunur. Dəvə Mustafalı kəndi ilə Xəlilli kəndi arasında qamışlıq sahədə dayanır. Şeyx burada dəfn olunur. Qəbri üzərində türbə tikilir. O vaxtdan türbə ziyarətgahdır (Bu haqda məlumatı Ərəbmehdibəy kənd sakini Soltanəhməd kişi vermişdir).

**PİR BƏXTİYAR TÜRBƏSİ.** Ağsunun maraqlı memarlıq abidələrindən biri Pir Bəxtiyar türbəsidir. Tarixi Cavanşir kəndi ərazisində yerləşən türbə dağılmaq təhlükəsində olmasına baxmayaraq hələ də ziyarət edilir. Bu ziyarətgah yerli camaat arasında mal-qara piri adı ilə tanınır. Bu pirə xəstələnən mal-qaranın sağalması, məhsuldarlığının artması arzusu, niyyəti ilə deyilən nəzirlər gətirilir və türbənin içərisində olan çürümüş ağac kötüyü üzərinə qoyulur. Məlumdur ki, Şirvanda ta qədim zamanlardan ağac kultu - inamı geniş yayılmışdır. Pir Bəxtiyar türbəsi içərisində nəzirin ağac üzərinə qoyulması görünür, bu qədim sitayiş adəti ilə bağlıdır.

Türbə düzbucaqlı planda ölçüsü 12x5 m olub, iki otaqdan ibarət olan qalınlığı 90 sm divarlar adi daşlarla inşa edilmiş və hər iki üzdən yonulmuş daşlar hörülmüşdür. Binanın cənub tərəfində qapısı və bir pəncərəsi vardır. Otaqlar bir-biri ilə daxili qapı vasitəsilə əlaqələnir.

Pir Bəxtiyar türbəsi iki künbəzli olmuşdur. Künbəzlərdən biri ölçüsü 5x5 m olan kvadrat otağın üzərində, digəri isə ölçüsü 7x5 m olan düzbucaqlı otağın üzərində qurulmuşdur. Türbənin giriş qapısı üzərində daş kitabə olmuşdur. Hazırda yerində yoxdur.

Pir Bəxtiyar türbəsinin tikilmə dövrü ətrafdakı qəbir abidələri əsasmda təxmini müəyyənləşdirilmişdir. Abidənin cənub-qərb tərəfindəki qəbirlər nisbətən qədimdir. Üzərində tarixi oxunan qəbirlər hicri 1199 (1784), 1212 (1797), 1220 (1805) və s. illərə aiddir. Buna əsaslanaraq demək olar ki, Pir Bəxtiyar türbəsi təxminən XVIII əsrin sonu XIX əsrin əvvəllərində inşa edilmişdir.

**HƏZRƏ PİRİ**. Həzrə piri Pir Bəxtiyar türbəsi ilə eyni dövrə aid olan abidədir. Əsrlər keçdikcə bu türbə dağıntılara məruz qalmışdır. Həzrə piri Ərəbmehdibəy kəndi ərazisində Girdimançayın sağ sahilində yerləşir.

Həzrə piri dördkünc memarlıq planında tikilmişdir. Türbənin fasad hissəsində, qapısı üzərində daş kitabəsi olmuşdur. Dağıntı nəticəsində kitabə parçalanmışdır. Kitabənin hissələri türbənin daşları arasında qalmaqdadır.

Elmi ədəbiyyatda "Həzrə" adının "Həzrət" sözündən yarandığı göstərilir. M.Nemət Qusar rayonunun Həzrə kəndində Səfəvi şeyxlərindən olan Şeyx Cüneydin qəbri üzərində türbə tikildiyini qeyd edir və kəndin adının da şeyxin elə "Həzrət" ləqəbindən alındığını bildirir.

Görünür Ərəbmehdibəy kəndindəki Həzrə pirinin həmin abidə ilə bilavasitə bağlılığı var. Yerli sakinlərin verdiyi məlumata görə müqəddəs yerləri ziyarətə gedənlərə bəzən deyilir ki, siz elə Həzrə pirini ziyarət etsəniz niyyətiniz hasil olar. Bu pir sahibinin yüksək şəxsiyyət olduğunu bildirir. Türbənin qalıqları içərisində başdaşı sınmış və sənduqəsi parçalanmış qəbir vardır.

Həzrə pirindən 50-70 m aralı tunc dövrünə aid Kurqanlar və antik dövrə aid nekropol (təknə qəbirlərdən ibarət) yerləşir.

**DƏMİR KÖRPÜ.** Ağsu şəhəri ərazisində, Ağsu çayı üzərində vaxtilə dəmir körpü salınmışdır. Bu körpü haqqında yaddaşlarda, ədəbi yaradıcılıq nümunələrində müəyyən məlumatlar qalmışdır. Belə ki, Haşimi Şirvaninin Ağsuda körpü tikilməsinə həsr etdiyi şerdə belə deyilir:

İki tarix etdi növ'icazi tə'bi- Haşimi,
Əvvəli zinöqtədir, ikinci misradır mənim.
Qıldı Paşa Ağsuya bir körpü, buldu çox savab
Ey zəhm yeganə kimi, ziba sirati-müstəqim.

Həmin şer hicri tarixi ilə 1153-cü ildə yazılmışdır ki, bu da milad tarixi ilə 1740-cı ilə təsadüf edir.

Dəmir körpünün XIX əsrdə çar hökuməti tərəfindən tikilməsi haqqında mülahizələr də vardır. Çar Rusiyası və onun milli ucqarlarından olan Azərbaycanda iqtisadiyyat, ticarət inkişaf etdikcə yeni yollar salınır, çaylar üzərində körpülər tikilirdi. Bu körpülərin əksəriyyəti eyni memarlıq üslubunda düzəldilmişdir.

Ağsu Dəmir körpüsü 1975-ci ildə yeni körpü salınması ilə əlaqədar sökülmüşdür.

**ŞIXMƏZİD TÜRBƏSİ.** Ağsu şəhərinin qərb hissəsində, Ağsu çayının sağ sahilində vaxtilə Şıxməzid kəndi olmuşdur. Kəndin adı tayfa başçısı Şeyx Məcidlə

bağlıdır. Bəzən belə fərz edirlər ki, Şirvanşahlar dövləti Məzyədilər sülaləsinin adı bu kənddə əbədiləşmişdir. Hər iki halda oykonim "Şıxməzid" forması almışdır.

Şeyx Məcidin qəbri üzərində Şeyx Dursun türbəsi üslubunda məqbərə tikilmişdir. Şeyx Məcid /Şıxməzid türbəsi müqəddəs yer və ziyarətgah kimi tanınmışdır. XX əsrin 30-cu illərində bu türbə islam dininə qarşı mübarizə ilə əlaqədar dağıdılmışdır.

Həmin dövrdə sökülmüş tikililərdən biri Hacı Əbdüləziz və Məşədi Əlimustafa qardaşları tərəfindən inşa edilmiş bina idi. Binanın uzunluğu 15 m olmuşdur. Damı dəmir örtüklə döşənmişdir.

1991-ci ildə müstəqil Azərbaycan Respublikası yaradıldıqdan sonra xalqımızın mənəvi dəyərlərinin bir çoxları ilə yanaşı, keçmiş inam yerləri, ziyarətgahları da yenidən bərpa olundu. Şıxməzid türbəsinin yerində şəhər əhalisi tərəfindən Şıxməzid məscidi tikildi.

**BİLAL ƏFƏNDİ MƏSCİDİ.** Ağsu rayonunun Padar və Külüllü kəndləri arasında, Girdimançayın sol sahilində Bilal Əfəndi məscidi yerləşir. Məscidin binası düzbucaqlı formadadır (ölçüsü 24,5 x 18,74 m). Binanın divarları (qalınlığı 90 sm) qırmızı və boz rəngli bişmiş kərpicdən hörülmüşdur. Məscidin binası 3 otaqdan (bir böyük-mərkəz və iki kiçik) ibarətdir. Mərkəz otaqda (ölçüsü 8,64x17 m) düzbucaqlı formada hazırlanmış 8 pəncərə (ölçüləri 2,2x1,3 m), bir ümumi giriş qapısı (ölçüsü 2,2x3,45 m), iki kiçik qapı (ölçüsü 3x1,3 m) vardır. Şərq üslubunda bağlanmış qapı və pəncərələrin şüşələri şəbəkə formasındadır. Mehrabının hündürlüyü 3 metrdir.

Məscidin kiçik otaqları (ölçüsü 3x2 m) iki mərtəbəlidir (birinci mərtəbənin hündürlüyü 3 m, ikinci mərtübünin hündürlüyü 1,74 m-dir). Bu otaqlardan biri mərkəz otaqla daxili qapı vasitəsilə əlaqələnir. Ayrıca giriş qapısı, iki pəncərəsi və mehrabı da vardır. Digər kiçik otaqda Bilal Əfəndi dəfn olunmuşdur. Bu otaq mərkəz otaqla əlaqələnmir.

Məscidin minbəri olmuşdur. Sovet hakimiyyəti illərində minbər uçurulmuş, sonralar bərpa olunmuşdur. Minbərə qalxmaq üçün taxta pilləkənlərdən istifadə edilir.

Məscidin həyətində üç su quyusu vardır. Quyunun divarları ağ əhəng daşları ilə hörülmüşdur. Kulullu kəndinin 100 yaşlı sakini, elmli, islamın nadir bilicilərindən olan, mədrəsə təhsili görmüş, hafız Molla Bəhram söyləyir ki, Bilal Əfəndi məscidini Qubadan gəlmiş Hacı Əhməd Əfəndi tikdirmişdir. Çar məmurları onun nüfuzunun artmasından qorxaraq Hacı Əhməd Əfəndini Ukraynaya aparmışlar. Rəvayətə görə Hacı Əhməd Əfəndi Ukraynada qeybə çəkilir. Maraqlıdır ki, Molla Bəhram Böyük Vətən müharibəsi zamanı Ukraynanın Kiyev və Aleksandrovka şəhərləri arasında bir ərazidə olarkən yerli sakinlərin Hacı Əhməd Əfəndinin qeybə çəkildiyi yeri abidə (təpəcik) şəklinə saldığını və bu yerin

ziyarət edildiyini öz gözləri ilə görmüşdür. Məscid Hacı Əhməd Əfəndinin oğlu Bilal Əfəndinin adı ilə belə adlandırılmışdır.

Vaxtilə məscidin həyətində mədrəsə olmuşdur. Mədrəsədə iki türk müəllimi - Asif Əfəndi və Əhməd Əfəndi ilahiyyatdan dərs demişlər.

Bilal Əfəndi məscidinin zərindəki tarixdən məlum olur ki, bina hicri 1305-ci ildə (1889) inşa olunmuşdur.

**QIRMIZI GÜNBƏZ.** Ağsu rayonunun tarixi memarlıq abidələri içərisində Qaraqoyunlu türbələrinin özünəməxsus yeri vardır. Burada iki türbə - Qırmızı günbəz və Ağ günbəz abidəsi yerləşir (Qaraqoyunlu günbəzlərini öyrənməkdə bizə kənd mollası Qüdrət kişi kömək etmişdir).

Qırmızı günbəzin tarixi daha qədimdir. Abidə hicri 1286-cı ildə (1869-1870) inşa olunmuşdur.

Qırmızı günbəzin divarları qırmızı bişmiş kərpicdən tikilmişdir. Odur ki, abidəni Qırmızı günbəz adlandırırlar. Günbəzin binası səkkizüzlü prizma şəklindədir. Bir giriş qapısı var. Pəncərəsi yoxdur.

Abidənin tağvari günbəzi vardır. Sonralar təbii aşınmaların qarşısını almaq üçün türbənin damı üzəri qırmızı rənglənmiş dəmir örtüklə bağlanmışdır.

Günbəzin içərisində, orta hissədə bir qəbir vardır. Qəbrin üzərində dördkünc sənduqə qoyulmuşdur. Sənduqənin hər iki yanında və başdaşının üzərində ərəb əlifbası ilə kitabə həkk edilmişdir. Başdaşı üzərində yazılmışdır: "Onun (Allahın) lizundən başqa hər şey məhv olacaqdır. Bu qəbir rəhmətlik, günahları bağışlanmış Hacı Soltan Baba ibn (oğlu) Hacı Salmanındır. Allah, Məhəmməd . 1286 (1869-1870)-cı il (Yazım tarix elmləri doktoru M.Nemət oxumuşdur).

**AG GÜNBƏZ.** Qaraqoyunlu kəndinin şimalında, Nazırçayın sol sahilində Ağ günbəz tarixi memarlıq abidəsi yerləşir. Bu abidənin yaranma tarixi yerli sakinlərə daha çox bəllidir.

Ağ günbəz memarlıq abidəsinin divarları əl üsulu ilə kəsilib yonulmuş və səliqə ilə cilalanmış ağ əhəng daşlardan səkkizüzlü planda tikilmişdir. Ağ günbəzin bir giriş qapısı və üç pəncərəsi vardır. Giriş qapısının üstündə ərəb əlifbası ilə kitabə yerləşir.

Abidənin fasad hissəsində tinlər var. Karniz çıxıntılar qədim şərq üslubunda daş üzərində oyma naxışlarla bəzədilmişdir. Ağ günbəzin tikintisində Abşeron memarlıq məktəbinin və qərb üslubunun izləri də aydın seçilir.

Tarix elmləri doktoru Məşədixanım Nemət Ağ günbəz abidəsinin dörd kitabəsini oxumuşdur. Bu daş kitabələrdən aydın olur ki, Ağ günbəz Əl-hac Hüseyn Əfəndinin qəbri üzərində tikilmişdir. O, hicri 1327-ci ildə (1909) vəfat etmişdir. Əl-hac Hüseyn Əfəndi Şirvanda "nəqşibəndiyyə cəmiyyətinin şeyxi" olmuş, "yüksək alimlərin qütbü" ləqəbi daşımışdır.

Abidənin baş tağında iri nəsx xəttilə yazılmış daş kitabədə (0,70 x 0,59 m) deyilir:

"Yüksək məqbərə Əl-hac Hüseyn Əfəndi Şirvaninindir. Ya sütunsuz səmaları qaldıran! F-ş-k-e ilində" 1325 (1907-1908)" (Ərəb əlifbasının ğayn; şin; kaf; he hərfləri əbcəd hesabıyla 1325-ci ilə uyğundur- M.N.).

İçəridəki ikisətirlik kitabədə:

"Nəqşibəndiyyə təriqətinin şeyxi, arif, ali (şəxslərin.) qütbü, Əl-hac Hüseyn Əfəndi Şirvaninin yüksək türbəsinin təmir olunmasına min üç yüz iyirmi yeddinci ildə (1909) əmr edilmişdir".

Binanın daxilində daha iki kiçik kitabə var: Birinci kitabədə ərəbcə -"ey bağışlayan" vəfat tarixi 1297 (1879-80) il: ikinci kitabədə isə "Bakılı Xələfin işidir" 1327 (1909) sözləri yazılmışdır. Ağ günbəzin içində üç qəbir var. Qəbirlərdən bin Hacı Hüseyn Əfəndi Şirvaniyə, digər ikisi isə oğlanlarına - Hacı Mustafa şah və Nizaməddin Əfəndiyə məxsusdur. Bu şəxslər məşhur nəqşibəndiyyə şeyxləridir.

Tarixi mənbələrdən və tədqiq olunmuş kitabələrdən aydın olur ki, Orta Asiyada, Qazaxıstan, Başqırdıstan və Qafqazda, Kiçik Asiya, Afrikada, İran, Səudiyyə Ərəbistanı, İraq, Suriya, Çinin Qansu əyalətində və başqa ölkələrdə nəqşibəndiyyə qardaşlıq cəmiyyətləri fəaliyyət göstərirdi. Azərbaycanın Qax, Zaqatala. Qəbələ rayonları ərazisindo, eləcə də Şirvan zonasındakı bir sıra abidələr bu cəmiyyətin XIX - XX əsrin əvvəllərində fəaliyyətdə olduğunu sübut edir.

Hacı Hüseyn Əfəndinin qardaşı Hacı Süleyman Əfəndi olmuşdur. Hacı Süleyman Əfəndi el arasmda "Şıx baba" kimi tanınır. Hər iki qardaş üçün türbənin tikilməsi nəzərdə tutulmuşdur. Lakin Ələtdən gətirilən tikinti daşlarının yarısı Ağsuda saxlanmış, burada hamam tikilmişdir. Odur ki, Hacı Süleyman Əfəndi üçün türbə tikilməmiş, hətta Ağ günbəz abidəsinin damı yarımçıq qalmışdır (Bu məlumatı Qaraqoyunlu kənd sakini Fariz Həsənov vermişdir).

Bu nəslin nümayəndələri Ağ günbəzin ətrafında dəfn edilirlər. Kənd əhalisi bütün dini bayramları Ağ günbəzi ziyarət etməklə qeyd edir. Bayramlar zamanı burada dini mərasimlər keçirilir.

Göründüyü kimi Ağ günbəzdə dəfn olunmuş şeyxlər Şirvanın adlı-sanlı nəsillərindən olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, 1901-ci ildə Ömər Faiq Nemanzadə Şirvanda səfərdə olarkən Hacı Hüseyn Əfəndi Şirvaninin oğlu Hacı Mustafa Şahın qonağı olmuşdur. O, Qaraqoyunlu kəndi və Hacı Mustafa Şah haqqında məqalələrində bəhs etmişdir. Ö.F.Nemanzadə Hacı Mustafa Şaha məktəb binası tikdirməyi və əhalini savadlandırmağı məsləhət etmişdir. 1911-ci ildə Hacı Mustafa Şah öz vəsaiti hesabına məktəb binası tikdirmişdir. Məktəbin binası böyük həcmli otaqlara malikdir. Məktəbdə rus-dili dərsi demək üçün Stepan adlı müəllim

dəvət olunmuşdur. Hazırda Qaraqoyunlu kənd məktəbi əlavə otaqlar artırılmaqla həmin məktəb binasındadır. Məktəb Hacı Mustafa Şahın adını daşıyır.

Qaraqoyunlu kəndində "Şıx dəyirmam" adı ilə tanınan tikili bu nəslin bütün sahələrdə iş gördüyünü aydın göstərir. Lakin həmin dəyirman sökülmüşdür.

XX əsrin 60-cı illərində Hacı Hüseyn Əfəndinin nəvəsi Mehdi Hüseynov qəbirləri bərpa etdirərkən onların baş daşları üzərindəki tarixlər yanlış verilmişdir.

Hacı Hüseyn Əfəndi Şirvani - 1122-1222 (1711-1808)

Hacı Mustafa Şah - 1838-1918

Nizaməddin Əfəndi - 1862-1927

Göründüyü kimi, burada tarixi dolaşıqlıq vardır. Belə çıxır ki, Hacı Hüseyn Əfəndi Şirvaninin ölümündən çox sonra oğlanları dünyaya gəlmişdir. Halbuki Hacı Hüseyn Əfəndinin qəbri üzərində yenidən bərpa işi görülməli və 1327 (1909)-ci il tarix verilməlidir.

***

**QOÇ QƏBİRLƏRİ** - Ağsu rayonu ərazisində olan orta əsrlər daş qoç heykəlləri böyük maraq doğurur. Ağsu rayonunun Padar kəndində Mustafa dağı deyilən yerdəki qəbiristanlıqda belə qəbirüstü qoç fiqurları vardır. Azərbaycan ərazisində qoç və at fiqurlarının təsvir olunduğu qəbirüstü abidələrə tez-tez rast gəlinir. Bu tip qəbir abidələri Cənubi Qafqazda, Şərqi Anadoluda, Orta Asiyada, Sibirdə, Altayda geniş coğrafi məkanda yayılmışdır.

Qoç lap qədim zamanlardan xalqımızın folklorunda bolluq, bərəkət, qələbə və güc rəmzi olmuşdur. Qeyd etmək lazımdır ki, daş-qoç fiqurları barədə ilk məlumatlara XVIII-XIX əsrlərdə respublikamızın ərazisini gəzmiş xarici ölkə səyyahlarının yazılı mənbələrində rast gəlirik. Hazırda Naxçıvan, Laçın, Kəlbəcər, Gəncə, Qazax, Ağdam, Tovuz, Zəngəzur ərazisində aşkar olunmuş daş-qoç, daş-at sənət abidələri maraqlı və müxtəlifdir.

Belə monumental fiqurlardan biri Novcu kəndinin cənubunda Şeyx Əziz qəbiristanlığındadır. Lakin yerlilərin dediyinə görə burada bir yox, bir neçə belə qəbirüstü daş-qoç fiqurları olmuşdur. Son vaxtlar təsərrüfat işləri zamanı bu nadir daş abidələr məhv edilmişdir. Qoç heykəllər Ağqoyunlu, Qaraqoyunlu orta əsr Azərbaycan dövlətlərinin mədəniyyət tarixi ilə bağlı abidələrdir.

**XIX ƏSR MƏKTƏBLƏRİ.** Ağsu rayonu ərazisi XIX-XX əsrin əvvəllərində əsasən Şamaxı qəzasına daxil olmuşdur. 1896-cı ilə aid Bakı quberniyası qəzalarındakı kənd məktəbləri barədə arxiv sənədləri vardır. Bu sənədlərdə Şamaxı qəzasının 29 kəndindən 11-də kənd məktəbinin olduğu göstərilir. 1887-ci ildən etibarən Kalva, Gürcüvan (Xanbulaq), Dilman kəndlərində kənd məktəbləri mövcud olmuşdur. M.Mahmudbəyov bu kənd məktəbləri haqqında məlumat vermişdir. Həmin məktəblərdə yeni üsulla tədris olunan fənnlər də olmuşdur.

## AĞSU ŞƏHƏRİNİN TARİXİNƏ DAİR

Ağsu şəhəri Ağsu çayının hər iki sahilində yerləşir. Bura 40° 35' şimal enliyi, 48° 24' şərq uzunluğunun kəsişdiyi yerdir. Şəhər öz adını hidronimdən - enli dərələrlə Şirvan düzünə çıxan Ağsu çayının adından götürmüşdür. A.A.Bakıxanov qeyd edir ki, Nadirqulu xan 1735-ci ildə Şamaxı əhalisini Ağsu çayı sahilində yeni saldırdığı şəhərə köçürdü.

Ağsu toponiminin birinci komponenti ağ "çayın suyunun keyfiyyətini, içməyə, istifadəyə yararlıbğını, yüngül olduğunu" bildirir. Bu ad öz mənbəyini bulaq sularından aldığına görə verilmişdir. Toponimin ikinci komponenti burada "çay" məfhumunu ifadə edir. Bir sıra tiirk dillərində su "su" mənası ilə yanaşı "çay" mənası da daşıyır. Bu söz sonuncu mənada yalnız hidronimlərin ikinci komponenti yerində işlədilir.

Qax, Laçın, Xanlar rayonları ərazisindəki bir sıra çayların Ağsu adlı qolu vardır. Bu hidronimlər eynimənşəlidir.

Ağsu şəhərinin adı bəzi mənbələrdə Yeni Şamaxı kimi də verilir. Bu Şamaxı əhalisinin Ağsu kəndinə köçürülməsi ilə bağlıdır. Tarixi Şamaxı şəhərinə bu dövrdən etibarən Köhnə Şamaxı, Ağsu kəndinə Yeni Şamaxı deyilmişdir.

Bəzən isə Ağsunu Beyləqan şəhəri adlandırırlar. Bunu tarixi Beyləqan şəhəri ilə də bağlayanlar var. Bu haqda bəzi ehtimali məlumatlar verilmişdir.

XVIII əsrdə mövcud olmuş şəhər öz adını Ağsu çayından götürməklə mənbələrdə daha çox Ağsu kimi göstərilir.

Ağsuçay vadisinin maddi mədəniyyət abidələrindən biri Ağsu şəhəri xarabalığıdır. XVIII əsrin yadigarı olan "Xaraba şəhər" müasir Ağsu şəhərinin cənubunda, Ülgüclü kəndi yaxınlığında yerləşir. Qala şəhər düzbucaqlı formasında olub, 34 ha ərazini əhatə edir.

Elmi ədəbiyyatda istehkamlı sahəsi 50 ha qədər olan şəhərlər orta dərəcəli şəhərlər sırasında qeyd edilir və əsasən vilayət mərkəzləri hesab edilir.

Ağsu şəhərinin xarabalıqlarında lazımi müşahidələr aparılmışdır (Müşahidələrdə Ağsu şəhər sakini, 2 saylı orta məktəbin dil-ədəbiyyat müəllimi, mərhum Ağamahmud Mehbalıyev iştirak etmiş, öz dəyərli mülahizələrini bölüşmüşdür). Burada yaşayış binalarının, ictimai binaların qalıqları, şəhərin küçələri aydın görünür. Ətrafdan xırda təpələr yığnağına oxşayan şəhər yeri 2400 metrlik torpaq sədd ilə əhatə olunmuşdur. Bu səddin kənarı dərin xəndəklə əhatələnmişdir. Xəndəyin, dibdən eni 8 m, buradan səddin üstünə qədər hündürlüyü 12 m-dir.

Təhlükəli müharibələr zamanı şəhərin müdafiəsini möhkəmlətmək məqsədilə xəndəyin içərisi daima su ilə doldurulmuşdur. "Xaraba şəhər"in giriş

darvazalarının şərqdən və qərbdən olması haqqında ehtimallı mülahizələr vardır. Şəhərin cənub hissəsində torpaq təpələr nəzəri cəlb edir. Bu təpəliklər şəhərin qala bürclərinin, gözətçi qüllələrinin qalıqlarıdır. Bürclər dairəvi planda olub, çevrəsinin uzunluğu 50 metrdir. Belə bürclər şəhərin şimal hissəsində də olmuşdur.

S.Bronevski qeyd edir ki, şəhərin ətrafına qala divarları çəkilmişdi. Qalanın dördkünc və dairəvi bürcləri var idi. Qala divarlarının qarşısında dərin xəndək qazılmışdı.

Şəhərin yaşayış binalarının alt hissəsi zirzəmilərdən ibarətdir. Binaların üst hissəsi uçub zirzəmiyə tökülmüşdür. Buradakı çalalar zirzəmilərın qalıqlarıdır. Şəhərdə yaşayış binaları sıx yerləşmişdir. Küçələr ensiz olub, arabalarla hərəkət etmək mümkün deyildi. Şübhəsiz şəhərin mərkəzi küçələri nisbətən enli olmuşdur.

İctimai binalar şəhərin şiınal hissəsində inşa olunmuşdur. Bu sahədə şəhər meydanı, karvansara və s. ictimai binaların qalıqlarını xatırladan tikinti izləri vardır. Torpaq sədd elə şəhərin bu hissəsində nisbətən salamat qalmışdır.

Ağsu şəhər yerindən sadə və şirli gil qab nümunələri və misdən hazırlanmış toxuculuq aləti əldə edilmişdir. Saxsı qab nümunələri son orta əsrlər dövrünə aiddir. Buradan Surxay xanın adına zərb edilmiş mis sikkə tapılmışdır. Pul Nadir şahın şəhərin salınması əmrindən əvvələ aiddir. Deməli, Ağsu şəhəri Ağsu kəndi əsasında yaranmışdır. Ağsunun ticarət və sənətkarlıq mərkəzi olması haqqında XVI-XVII əsrdə yerli və xarici mənbələrdə məlumat verilir.

"Xaraba şəhər"dən 1,5-2 km qərbdə çoxlu sayda saxsı məmulatları səpələnmiş sahə vardır. Burada şəhərə məxsus dulusçu sənətkarların məskunlaşdığını güman etmək olar.

XVIII əsrdə Ağsu şəhərinin möhkəm qala divarları, müdafiə istehkamları olmuşdur. Bu şəhər getdikcə inkişaf etmiş və XVIII əsrin son rübündə Azərbaycanın çoxsaylı əhalisi olan şəhərlərindən birinə çevrilmişdir. V.Leviatov qeyd edir ki, XVIII əsrin sonunda Yeni Şamaxı (Ağsu) şəhərinin əhalisi 10 minə yaxın olduğu halda Gəncə, Ərdəbil, Şuşa, Nuxa, Bakı və başqa şəhərlərin əhalisi 3-8 mindən çox deyildi. S.Yegiazarov Ağsu əhalisindən Şirvan xanının xeyrinə 15.510 manat vergi toplandığını qeyd edir. Bu fakt şəhərdə əhaliyə qarşı ağır vergi sisteminin olduğunu göstərir.

Ağsu şəhəri son orta əsrlər Azərbaycanın ictimai-siyasi və hərbi həyatında mühüm rol oynamış şəhərlərdəndir.

1734-cu ilin yayında Nadirqulu xan öz qoşunu ilə Şamaxıya hərəkət etdi. Surxay xanın Şamaxını tərk etməsinə baxmayaraq şamaxılılar iki ay müqavimət göstərdilər. Belə müqavimətdən qəzəblənmiş Nadirqulu xan 1734-cu il avqustun sonlarında Şamaxını ələ keçirdikdən sonra şəhəri yandırdı, darmadağın etdi, əhalisinin isə köçürülməsi əmrini verdi. Nadir 1735-ci il may ayının sonunda Şamaxının 4 fərsəxliyində Ağsu çayı sahilində yeni şəhər tikməyi əmr etdi. Şəhərin

tikintisinin başa çatmasından sonra bütün Şamaxı əhalisini burada məskunlaşdırdı. Şirvan hakimlərinin iqamətgahı da buraya köçürüldü.

1737-ci ildə Şirvan hakimi Sərdar xan üsyan etmiş Dərbənd ailələrini Ağsuda, Şirvanın sorsor tayfasını isə Dərbənddə yerləşdirdi.

1743-cü ildə Şirvanda Nadir zülmünə qarşı üsyan başlandı. Bu zaman özlərini Səfəvilərin xələfləri kimi təqdim edən yalançı şahzadələr - I, II, III Sam Mirzələr meydana çıxdı ki, onlardan ikisi Şirvanda fəaliyyət göstərirdi.

I Sam Mirzə əlli minlik qoşunla Surxay xanın müşaiyətində Yeni Şamaxını (Ağsu) tutdu. Nadir şahın zülmündən cana gəlmiş əhali onu rəğbətlə qarşıladı. O, xalqı Nadir şah tərəfindən qoyulmuş vergilərdən azad etdi. Lakin Şirvan düzündə baş verən döyüşdə Nadir şahın oğlu Nəsrullah Mirzə Sam Mirzəni məğlub etdi. I Sam Mirzə öldürüldü.

II Sam Mirzə Surxay xanın oğlu Məhəmməd xanın yardımı ilə 1743-cu ilin oktyabrında Şirvanda güclü üsyanın baş verməsində bö yük rol oynadı. Ağsu əhalisi İran məmurlarını qovdu. Lakin Nəsrullah Mirzə 3 dəfə məğlub olmasına baxmayaraq nəhayət top atəşi ilə Ağ su qalasını ələ keçirə bildi. Çiçəklənən Ağsu şəhərinə ilk zərbə dəy di. Mənbədə göstərilir ki, farslar şəhəri mühasirə etdilər. Burada az sayda ləzgi qalmışdı ki, bir neçə gündən sonra şəhəri tutub onları da tamamilə məhv etdilər. Nadir bu günü "Allah dad" (Allah köməyə çat) adlandırırdı.

1747-ci ildə mayın 9-da Nadir şah öldürüldü. Onun ölümündən sonra yerlərdə müstəqil xanlıqlar meydana gəldi. Bu xanlıqlardan biri Şirvan xanlığı idi. Şirvan xanlığında 1747-1763-cü illər ərzində ikihakimiyyətlilik hökm sürmüşdür.

Şamaxıda hakimiyyət başında Xançoban tayfasından Əsgər bəyin oğulları Məhəmməd Səid xan və Ağası xan olmuşdur. Ağsuda isə Nadir şahın Şirvanda vergi toplayanı təyin olunmuş Hacı Məhəmməd Əli xan hakimiyyəti ələ keçirmişdi. Xançoban tayfasından çıxan xanların siyahısı belədir:

Məhəmməd Səid xan Əsgər bəy oğlu

Ağası xan Əsgər bəy oğlu

Əsgər xan Məhəmməd Səid xan oğlu

Qasım xan Məhəmməd Səid xan oğlu

Mustafa xan Ağası xan oğlu

Bu dövrdə Azərbaycanda ağalıq uğrunda yerli feodalların mübarizəsi gedirdi. Belə şəraitdə 1755-ci ildə Şəki xanı Hacı Çələbi Ağsunu mühasirə etdi. Hacı Məhəmməd Əli xan qubalı Hüseyn Əli xanın yanına kömək üçün qaçdı. Qubadan 3000 atlı Hüseyn Əli xanın, 500 atlı Qaytaq usmisi Həmzənin olmaqla böyük qoşunla qayıtdı. Ağsu ətrafında döyüşdə Hacı Çələbi xan ağır itki verərək geri çəkildi. Hacı Məhəmməd Əli xanın Ağsu şəhər qapısının açarlarını təqdim

etməsinə baxmayaraq Hüseyn Əli xan onları qəbul etmədi. Üç günlük ziyafətdən sonra o, öz xanlığına qayıtdı.

1762-ci ildə Zaqafqaziyanı bürüyən güclü taun xəstəliyindən Ağsu əhalisi çox ziyan çəkdi.

1763-cü ildə Ağsu və Şamaxı vahid xanlıqda birləşdi. (Bu hadisəni A.A. Bakıxanov 1765-ci ilə aid edir). Məhəmməd Səid xan və Ağası xan Ağsunu ələ keçirib, Hacı Məhəmməd Əli xanı öldürdülər. Paytaxt Ağsudan Şamaxıya köçürüldü.

1767-ci ildə Quba xanı Fətəli xan Şəki xanı Hüseyn xan ilə birləşdi. Müttəfiqlər iki tərəfdən Şamaxı şəhərini mühasirə etdilər. Məhəmməd Səid xan və Ağası xan müqavimət göstərə bilmədilər. Hüseyn xan Ağası xanın gözlərini çıxartdırdı. Fətəli xan isə Məhəmməd Səid xanı Dərbəndə göndərdi. Paytaxt yenidən Ağsuya köçürüldü. Hər iki xan şəhərə öz naibini təyin etdi. Şirvanın Sərdərin və Həsən mahalları Şəki xanlığına, qalan hissəsi isə Quba xanlığına birləşdirildi.

1768-ci il avqust ayında Şəki xanının köməyinə arxalanan Hacı Məhəmməd Əli xanın oğlu Manafbəy Fətəli xana qarşı sui-qəsd təşkil etdi. Qəsdin üstü açıldıqda Fətəli xan Şirvan üzərinə qoşun yeritdi. Şamaxı və Ağsu şəhərləri tutuldu. O, sentyabrda Hüseyn xanın qoşununu məğlub etdi. Şəki xanının Ağsudakı vergi yığanlarını qovdu.

Quba xanı Fətəli xan tərəfindən 1769-cu il iyul ayında Ağsu şəhəri dağıdıldı və əhalisi Şamaxıya köçürüldü. Mənbələrin məlumatına görə az vaxtda bütün Ağsu əhalisi Şamaxıda yerləşdirilmişdi. S. Qmelin Ağsuda olarkən orada evlərin dağıdılmış divarlarından başqa heç nə tapmadığını bildirir.

M.Biberşteyn, S.Bronevski və digər müəlliflərin yazılı məlumatlarında göstərilir ki, Fətəli xan camaatı Ağsudan Şamaxıya zorla köçürdüyü zaman əhalinin miqdarı o qədər azalmışdı ki, şəhərin bir sıra küçələri bomboş qalmışdı.

Ağsu əhalisinin Şamaxıya köçürülməsinin bir neçə səbəbi göstərilir:

Birincisi, Ağsu şəhərinin yerləşdiyi coğrafi ərazidə iqlimin qeyri-sağlam olmasıdır. H.Z. Şirvani qeyd edir ki, Şamaxıya Ağsu adında yeni şəhər daxil edilmişdir. Burada su şirin deyil, iqlimi də sağlam deyildir.

İkincisi, Ağsuda daha bir antiquba hərəkatının başlanması ehtimalının olması idi. Çünki, Quba xanlığının siyasətindən narazı qüvvələr fürsət axtarırdılar.

Üçüncüsü, Ağsunun Şəki xanlığına daha yaxın coğrafi mövqedə yerləşməsi idi. Şamaxı isə nisbətən Qubaya yaxındır. Son iki səbəb Fətəli xanı bu addımı atmağa məcbur etmişdir. Beləliklə, Ağsu şəhərinə sayca dördüncü, ən böyük zərbə dəymiş oldu.

1774-cü ildə Məhəmməd Səid xan azad olundu. Əvvəllərdə olduğu kimi o, Ağsu şəhərini, Ağası xan isə vilayətləri idarə etməyə başladı. Lakin Ağası xan ilə

Fətəli xanın münasibətləri daima düşmənçilik xarakteri daşıdığından 1785-ci ildə Şirvanda növbəti döyüş oldu. Ağası xan məğlub olub, oğlanları ilə birgə Qubaya göndərildi.

1787-ci ildə qardaşının vəziyyətinin gec-tez onu da haqlayacağını başa düşən Məhəmməd Səid xan gizli olaraq Fətəli xan ilə döyüşə hazırlaşırdı. Fətəli xan bu haqda xəbər tutanda Məhəmməd Səid xan Şəkiyə qaçdı. Lakin Şəki xanı onu və oğlanlarını Fətəli xana verməyə məcbur oldu.

Sərkər ailəsinin kütləvi həbs olunması Məhəmməd Səid xanın oğlanları Əsgər bəy, Qasım bəy və Ağası xanın oğlu Mustafa bəyin Qarabağa qaçmasına səbəb oldıı. Lakin Şəki xanının əmri ilə onlar Ərəşdə həbs olundular. Buna baxmayaraq, Şəki xanının Fətəli xana göndərdiyi elçilər yolda sərkər ailəsini azad etdilər. Xan oğlanları Cara, oradan Avar xanı Umma xanın yanına getdilər. Umma xan Ağsuda olan Fətəli xanın üzərinə hərəkət etdi. Şəhəri üç ay mühasirədə saxladı. Umma xan Fətəli xanla qan düşməni olmasına baxmayaraq razılığa gəldi, qohum oldu və Avar xanlığına qayıtdı. Xan oğulları isə Qarabağa, oradan Axalkalaka, sonra isə Türkiyəyə getdilər.

1788-ci ildə Fətəli xanın əmri ilə Salyanda saxlanılan Məhəmməd Səid xan və oğlanları, Bakıda saxlanan Ağası xan və oğlanları, həmçinin Qubada saxlanan Məhəmməd Rəzi bəy öldürüldü. Sərkər ailəsinin kütləvi məhv edilməsinə başlanıldı.

1789-ci ildə Fətəli xan da öldü. Onun oğlu Əhməd xan Şəki xanı Məhəmməd Həsən xanın, Əsgər bəyin, Qasım bəyin, Mustafa bəyin və Manaf bəyin birləşmiş qüvvələrinin Şirvana girməsinə mane ola bilmədi. Sərkər ailəsi vilayətləri, Manaf bəy isə Ağsu şəhərini idarə etməyə başladılar. Lakin tezliklə sərkər ailəsi Ağsu şəhərini tutub Manaf xanı öldürdülər. Əsgər bəy Şirvan xanı oldu.

Manaf xanın öldürülməsi Quba və Şəki xanlarını Əsgər xana qarşı birləşdirdi. Onlar Ağsu şəhərini iki tərəfdən mühasirə etdilər. Lakin Əsgər xan ləzgilərə 5000 tümən göndərib, onların mühasirədən imtina etməsinə nail oldu. Müttəfiq xanlar mühasirədən əl çəkdilər.

Şirvanlılara görə Əsgər xan zəif hokmdar idi. Onun yerinə qardaşı Qasım bəyi oturtdular. Lakin Qasım xan da onların ümidini doğrultmadı. Qasım xanın Əlvənddə olan Mustafa bəy üzərinə yürüşü və məğlub olması Şirvanda siyasi vəziyyətə əsaslı təsir etdi.

1792-ci ildə Houzlu Yüzbaşı bəy və Sərdərinli Ömər Sultanın başçılıq etdiyi feodal qrupu Mustafa bəyi hakimiyyətə gətirdilər. Qasım xan Qubaya qaçdı.

1794-cü ildə Qasım xanla birləşən Quba və Şəki xanları Ağsu şəhərini bir neçə ay ərzində mühasirədə saxladılar. Leysan yağışının yağmasından istifadə edən

Sərdərinli Ömər Sultan onların qüvvəsinə gözlənilməz zərbə endirdi. Məğlub olmuş xanlar geri qayıtdılar.

1795-ci ildə Ağa Məhəmməd xan Qacar Azərbaycana yürüş etdi. O, Mustafa xan Dəvəlini Şirvan üzərinə göndərdi. Şəki xanı da onlara qoşuldu. Şirvan xanı Mustafa xan Ağsu şəhərinin əhalisinin əsasən Xançoban nəslindən olanlarını özü ilə Fit dağına apardı. Ağsu şəhərinin qalan əhalisi Quba və başqa əyalətlərə qaçdı. Şəhər dağıldı, qarət olundu. Sərdar Mustafa xan Dəvəli şəhərdən qaça bilməyənləri məhv etdi. Beləliklə, Nadir şahın əsasını qoyduğu Ağsu şəhəri Ağa Məhəmməd şah Qacar tərəfindən demək olar ki, süquta uğradıldı.

1798-ci ildə Şirvanı yenidən güclü taun xəstəliyi bürüdü və ən çox ziyan Ağsu əhalisinə dəydi.

1806-cı ildə şahzadə Abbas Mirzə Şirvana gəldi. Mustafa xanın Kür sahilindəki dəstəsini məğlub edib Şariyan, Muradxanlı tayfalarını (6000 ailə) Muğana köçürdü. O, Ağsuya gəldikdə Mustafa xan şəhər əhalisi ilə Fit dağına çəkildi və müdafiəyə başladı.

Artıq 1805-ci ilin dekabrın 25-də Mustafa xan Rusiya təbəəliyini qəbul etmişdi. Arxiv sənədlərində Ağsu Rusiya hərbi anbarlarının yerləşdiyi məntəqələrdən biri kimi göstərilir.

Göründüyü kimi, Ağsu şəhəri XVIII əsrdə dəfələrlə feodal basqınlarının qurbanı olmuşdur. Tez-tez köçürmələr, dağıntılar əhalinin bir şəhərdə yaşamaq ümidlərinə zərbə vururdu. Şəhər sakinləri bu səbəbdən yaraşıqlı binalar, türbələr, məscidlər, hamamlar, ictimai və rəsmi binalar tikməyə üstünlük vermirdilər. M. Biberşteyn Şirvanı nəzərdə tutaraq yazır ki, bu ölkədə xalqın ehtiyac içində olmasını onların yaşadıqları evlərindən müəyyən etmək olar. Burada həm ictimai, həm də xüsusi binalar çox pis vəziyyətdədir. Şəhər əhalisi demək olar ki, hər gün bu və ya digər feodalın basqınını gözləyir. Təbiidir ki, belə olduqda heç kəs çoxlu pul sərf edib özünə əsaslı bina tikməzdi.

XIX əsrin əvvəllərinə aid mənbələrdə adı çox hallanan Ağsu şəhəri əsrin sonlarında az xatırlanır. Ağsu 1967-ci ilə kimi şəhər tipli qəsəbə olmuş, həmin ildə şəhər statusu almışdır.

## AĞSU KƏNDLƏRİ VƏ OYKONİMLƏRİN ETİMOLOGİYASI

Tarixən Azərbaycan ərazisində məskunlaşmış, ölkəmizin müxtəlif yerlərinə yayılmış tayfalar, tirələr, nəsillər toponimlərdə, oykonimlərdə iz qoymuşlar. Həmin izlər nəsildən-nəsilə irsən keçmiş, folklorda, yaddaşlarda, yazılı mənbələrdə yaşamışdır.

Ağsu rayonunun 77 kəndi var (Bu haqda məlumatı Ağsu rayonu Statistika idarəsinin rəisi Ağaməmməd Zülfüqarov vermişdir). Hər bir kəndin adı maraqlı

etimologiyası ilə seçilir. Ağsuçay və Girdimançay vadisində mövcud olmuş, zəmanəmizə qalıqları gəlib çatmış qədim kəndlər, yaşayış yerləri, obalar dəyərli tarix və mədəniyyət abidələridir. Bu qədim yaşayış məskənlərinin adlarının etimologiyası haqqında müəyyən məlumatlar vermək mümkündur.

Kənd adlarının, oykonimlərin yaranmasında bir sıra amillər iştirak etmişdir:

1. Tayfaların, tirələrin, nəsillərin öz adlarını əbədiləşdirdiyi oykonimlər;
2. Antroponimlərdən-şəxs adlarından yaranan oykonimlər;
3. Dini rütbələrdən yaranan oykonimlər;
4. Ərəb mənşəli oykonimlər;
5. Fars mənşəli oykonimlər;
6. Goğrafi yerləşməyə görə adlanmış oykonimlər.

XIX-XX əsrin əvvəllərinə aid mənbələrdə kəndlərlə yanaşı obaların da adları çəkilir. Belə obaların həm qışlaq, yaylaq torpaqları, həm də daimi binələri olurdu. Burada həmin obaların vaxtilə məskun olduğu binələrin bəzilərini kənd anlayışı altında qeyd edirik.

Şirvan kəndləri öz mənşəyinə görə də fərqlənir. Onların əksəriyyəti ayrı-ayrı nəsillərdən (təbəhlərdən) təşkil olunmuşdur: Gəgəli (Sarılı, Təhməzli, Məmmədli, Çobantəpəli, Nağılı, Daşdəmirli, Məmmədgarlı, Gülalılı, Döşobalı, Həşimxanlı, Bağırlı, Haputlu, Eyvazlı, Şərifli, Mehralılı, Qasımlı təbəhləri), Qaraqoyunlu (Muradxanlı, Bəyli, Çaylaq, Səməndərli, Söyündlü, Umbaylı və s. təbəhlər) və s.

Oykonimlərin etimologiyası və kəndlər haqqında bəzi bilgilər aşağıdakı kimidir:

**Abasxanlı, Ağalarbəyli, Ağarx** - Ağsu rayonunun gec məskunlaşmış bir sıra kəndləri tarixi kök etibarilə gorus // garıs etnonimi ilə bağlıdır. Belə ki, bu kəndlərin ilkin adları Gorus Abasxanlı, Gorus Ağalarbəyli, Gorus Ağa Arx və s. olmuşdur. Sonralar oykonimləriin "Gorus" hissəsi işlənməmiş, yalnız ikinci komponentlər qalmışdır. Şirvan xanlığı dövründə Çaparlı, Abasxanlı və Ağarx kəndləri Gorus mahalına daxil idi. Goruslar qızılbaş tayfalarından biri idi. Onların Şirvanda yerləşdikləri ərazi Gorus mahalı adlanmışdır. Gorus mahalını XVIII əsrdə Şirvan xanı Mustafa xanın Kürəkəni Ağakişi bəy idarə etmişdir. Oykonim "Abbas xanın nəslindən olanlar, abbasxangillər" mənasındadır.

Yerli əhali arasında "gorus" etnonimi ilə bağlı maraqlı deyimlər, zərb-məsəllər bu günədək qalmaqdadır. Biri digərinə müraciət edəndə deyir: "Sən hələ garıslılığından əl çəkməmisən". Bu o mənadadır ki, deyilənə görə garıslılar üçün inadkarlıq, tərslik və s. bu kimi xasiyyətlər səciyyəvi olmuşdur. Bəllidir ki, müəyyən türk nəsillərində bu xüsusiyyətlər özünü daha qabarıq göstərmişdir.

Qafqaz Albaniyası ərazisindəki orta əsr Xursan şəhəri ilə bağlı olaraq Q.Qeybullayev gorus tayfasının adını alban tayfaları içərisində də çəkmişdir.

**Ağabəyli** - Ağabəyli kəndi Ağsu çayının sahilində, Şirvan düzündə yerləşir. Kəndin tam adı Hacı Ağabəyli formasındadır. Ərəb Əbdülkərimli tayfasının tirələrindən biri olan ağabəyli tirəsi isə Ağabəy Hacalıbəy oğlu adlı bir bəyə mənsub ailələrin adıdır.

**Axtaçı** - Axtaçı kəndinin qalıqları abidəyə çevrilmiş və indiyədək yaddaşlarda qalmaqdadır. Bu kənddə yaşayış tərzi XIX əsrdə mövcud olmuşdur. Arxivdə rastlaşdığımız vergi sənədlərindən bəlli olur ki, bu kənddə 1824-cü ildə 130 ailə yaşamışdır. Həmin dövrdə inzibati cəhətdən Şirvan əyalətinin Xançoban mahalına daxil olan Axtaçı kəndi sonralar kütləvi köçmələr nəticəsində boşalmışdır.

Axtaçı, Axtaçı Salyan, Axtaçı Soltanbəy və s. toponimlərdə adını əbədiləşdirən Axtaçı tayfası Şirvanın köçəri tayfalarından olmuşdur. XIX əsrin 60-cı illərində Axtaçı kəndindən Sabirabad rayonu ərazisinə köçən ailələr burada Axtaçı adı ilə bağlı 3 toponimin yaradıcısı olmuşlar. Axtaçı toponiminin padar etnonimi ilə əlaqələndirilməsi ehtimalları da mövcuddur.

Axtaçı axta -"at ilxısı" və -çı "sənət, peşə, məşğuliyyət bildirən şəkilçi" hissələrindən ibarətdir. Atabaxan, mehtər mənası daşıyır.

**Aratkənd** - Aratkənd oykoniminin adı 1917-ci ilə aid mənbələrdə Gorus-Aratkənd formasında göstərilir. 1933-cü ilə kimi yalnız bir Aratkənd olmuşdur. Sonralar kənd böyüyərək parçalanmış, iki kənd yaranmışdır. Onlardan qədim Aratkənd I, sonra yaranan Aratkəndə isə II fərqləndirici əlaməti artırılmışdır. 1992-ci ildən I Aratkənd Məşədiqanlı, II Aratkənd isə Curuqlu adlanır. Aratkənd oykonimi monqol ordusu tərkibində Azərbaycana gəlmiş oyratlarla əlaqələndirilir. Curuqlu isə həmin tayfaya mənsub tirələrdən birinin adıdır.

**Axundlu** - XIX əsrin əvvəllərində Şirvan əyalətinin Xançoban mahalına daxil olan Axundlu kəndi ərazisində, 1824-cü ildə 10 ailə yaşadığı məlumdur. Ümumiyyətlə, XIX əsrdə Şirvan ərazisində 30-60 ailəlik nüfusa malik kəndlər üstünlük təşkil edirdilər. Lakin bu dövrdə Axundlu kimi 5-10 ailəlik nüfusa malik kəndlər də az deyildi. Müasir dövrdə isə abad, çiçəklənən Axundlu kəndi Ağsunun sıx əhalisi olan kəndlərindəndir.

XIV-XIX əsrlərdə Azərbaycan ərazisindəki bir çox toponimlər öz mənşəyini "pir", "molla", "seyid", "axund" kimi dini rütbələrdən götürür. Axundlu toponimi də "axund" və "lu" hissəciklərindən ibarət olub, dini rütbə adı ilə bağlıdır.

**Alpout** - Alpout oykonimi qədim türk mənbələrində VIII əsrdən adı çəkilən alpout (alpavut) tayfasının adı ilə əlaqədardır. Onlar XI-XII əsrlərdə səlcuq oğuzlarının, XIV-XV əsrlərdə Qaraqoyunlu və Ağqoyunlu, XV əsrin sonlarından isə qızılbaş tayfasının tərkibində Ön Asiya və Cənubi Qafqazın siyasi hadisələrində

iştirak etmişlər. Alpoutlar Səvəfilərə hərbi xidmət əvəzində Cənubi Qafqazın müxtəlif bölgələrində torpaq almışdılar. Alpout tayfası Şirvanda ən çox yad edilən tayfalardandır. Hazırda Alpout adlı kənd olmasa da bir sıra kəndlərdə alpoutluların nəsilləri yaşamaqdadır. XIX əsrdə həmin tayfa ilə bağlı oykonimlər müasir Ağsu rayonu ərazisində də mövcud olmuşdur. 1824-cü ildə Şirvan əyalətinin Xançoban mahalında 12 ailə yaşayan Alpout kəndi, Houz mahalında isə 30 ailə yaşayan Alpout yaşayış məntəqəsi sonralar tamamilə boşalmışdır.

**Barmipərdi** - Ağsunun itib-batmış kəndlərindən biri Barmipərdi kəndidir. Bu kənd Muradlı ilə Ağarx kəndi ərazisində Nazır çayı üzərində yerləşirdi. XIX əsrin vergi sənədlərində Barmipərdi kəndinin adına rast gəlinmir.

**Bənəcik** - Bənəcik oykonimi iki hissədən (bənə-cik) ibarətdir. Birinci komponent bənə\binə olub, elat məskəni kimi tanınan "binə" anlamındadır, -cik isə kiçiklik bildirən şəkilçidir. Bənəcik /binəcik, kiçik binə, məskən deməkdir.

**Bəyimli** - Bəyimli oykonimi Bəyim-li hissəciklərindən ibarətdir. Bəyim şəxs adından yaranmışdır. Yerli məlumata görə yaşayış məntəqəsinin Bəyim adlı çoxuşaqlı bir dul qadının övladları bina etdiyi üçün belə adlanmışdır. Kəndin ərazisi keçmişdə bəyimli icmasının yaylaq yeri olmuşdur. Qışlaqları isə indiki Zərdab rayonu ərazisindədir. Bəyimli kəndi ərazisində Bəyimli qalası yerləşir.

**Bico** - 1824-cü il vergi sənədlərinə görə 35 ailə yaşayan Bico kəndi Şirvan əyalətinin Qoşun mahalına, sonralar isə Şamaxı qəzasının Qoşun dairəsinə daxil olmuşdur. Bico, Qəşəd, Keçdiməz vəLəngəbiz kəndlərinin Şıxəli bəyin övladlarının mülkiyyətində olduğu arxiv sənədlərindən məlumdur. Bu kənd müəyyən tarixi dövrlərdə baş vermiş ictimai-siyasi hadisələrlə əlaqədar öz yerini dəyişmək məcburiyyətində qalmışdır. Bico əhalisi XX əsrin əvvəllərində erməni təcavüzünə məruz qalmış, onlara qarşı lazımi silahlı müqavimət göstərmişdir. Bico kəndi ərazisində Pirəmsaq, Pir Şeydulla, Qarı Mazar sandığı, Sanqalan piri kimi ziyarətgah yerləri vardır.

Bico oykonimi haqqında müxtəlif mülahizələr mövcuddur. Birincisi, Bico oykoniminin peçoy /beçoy adlı oğuz soyları ilə bağlı olması haqqında mülahizələrdir. (Bu mülahizə Ağsu şəhər sakini Ağasəlim Babaşova məxsusdur).

İkincisi, bəzi tədqiqatçılara görə kəndin adı tat dilindəki buc (qoxulu) və ov (su) sözlərindən ibarət olub, kəndin yaxınlığındakı kükürdlü mineral bulaqlar ilə əlaqələndirilir.

**Bozavand** - Bozavand kəndi Şirvan düzündə yerləşir. Oykonim XIX əsrdə Şamaxı rayonu ərazisindəki Pirisfahan dağında yaşamış 64 ailədən ibarət bozavand obasının adı ilə əlaqədardır. Mollaisaqlı kəndi (İsmayıllı rayonu) ilə Göyçay arasında Bozavand meşəsi adlı yer də vardır.

**Cavadağa** - Cavadağa dağılmış Ağsu kəndlərindəndir. Cavadağa oykonimi antroponimdən yaranmışdır. Cavadağa komponentləri şəxs adı və rütbəsinin

oykonimdə əks olunmasıdır. Cavadağa kəndi Növcü və Musabəyli kəndi arasındakı ərazidə mövcud olmuşdur. Arxiv mənbələrində Şirvan xanı Mustafa xanın oğlanlarından birinin adı Cavad kimi qeyd edilir.

**Cavanşir** - Cavanşir kəndi Ağsu rayonunun qədim kəndlərindən olmuşdur. XX əsrin əvvəllərindən başlayaraq kənd əhalisi kütləvi olaraq Ağsu şəhərinə köçmüşdür. Hazırda Cavanşir kəndindən yalnız kəndin qəbirstanlığı və Pir Bəxtiyar türbəsi yadigar qalmışdır. Qəbir daşları üzərində yazılmış tarixlərə əsasən demək olar ki, burada bir neçə əsr fasiləsiz yaşayış olmuşdur (XVIII-XX əsrlər).

Ehtimal ki, Cavanşir oykonimi Qafqaz Albaniyası knyazlarından olan Cavanşirin adı ilə bağlıdır. Ümumiyyətlə, Ağsu rayonu ərazisində alban tayfaları ilə əlaqələndirilən çoxlu sayda toponimlərə rast gəlinir. Cavanşir oykoniminə uyğun olaraq Cavanşir hidronimi də yaranmışdır.

**Cəfərli** - Yaşayış məntəqəsi muğanlı tayfasının cəfərli tirəsinin məskunlaşması nəticəsində yaranmışdır.

**Cəlayir** - Cəlayir kəndi Ağsu rayon mərkəzindən 28 km cənubda yerləşir. Sıx məskunlaşmış kənd əhalisi bostançılıqla məşğul olur. Cəlayir oykoniminin etimologiyası tarixi Cəlayir dövlətini yaratmış cəlayir tayfasının adı ilə bağlıdır. Azərbaycanın digər rayonlarında da həmin tayfa ilə əlaqələndirilən toponimlərə rast gəlmək mümkündur. Qeyd etmək lazımdır ki, 1367-ci ildə Cəlayir hökmdarlarından Şeyx Üveysin Şirvanı zəbt etməsi barədə məlumatlar vardır.

**Çaparlı** - Gorus tayfaları tərəfindən məskunlaşmış kəndlərdən biri Gorus-Çaparlıdır. Əsrin əvvəllərində Şamaxı qəzasının Xançoban dairəsinə daxil olan bu kəndin adındakı "Gorus" etnonimi sonralar işlənməmiş, yalnız Çaparlı forması qalmışdır. XII-XIII əsrlərdə oğuz və türkmən tayfalarından biri çaparlı idi. Yaşayış məntəqəsi bu tayfalara mənsub ailələrin məskunlaşması nəticəsində formalaşmışdır.

Çaparlı oykoniminin çapar /çaparxana sözü ilə bağlılığı da qeyd edilir. XVIII əsrdə Ağsu şəhərinə gedən rabitə /çaparxana məntəqələrindən biri burada yerləşirdi.

**Çiyni** - Çiyni XIX əsrin əvvəllərində Şirvan əyalətinin Houz mahalına daxil olmuşdur. 1824-cü ilə aid mənbələrdə Çiyinli kəndi kimi qeyd olunur. Həmin dövrdə əhalisi 8 ailədən ibarət olmuşdur. Oykonim öz adında çiyni tayfasının adını əks etdirir. XVI əsrdə qızılbaş tayfalarından biri olan və mənşəcə qacar tayfasına mənsub olan çiyniləri Səfəvi şahı Təhmasib (1524-1576) üsyankar xarakterlərinə görə ölkənin müxtəlif ərazilərində yerləşdirmişdi.

**Daşdəmirbəyli** - 1851-ci ilə aid mənbələrdə daşdəmirbəyli obasının adı çəkilir. Obanın başçısı kimi Lütfəli bəy Daşdəmir bəy oğlu yad olunur. Oykonim mərzili tayfasının daşdəmirbəyli tirəsinin adındandır. Oba öz adını Daşdəmir bəyin adından götürmüş, oturaq həyata keçdikdən sonra isə məskunlaşdıqları kəndə eyni

adı vermişdir. Şirvan düzündə məskunlaşmış daşdəmirbəyli obası inzibati cəhətdən Şamaxı qəzasının Xançoban dairəsinə daxil olmuşdur. XIX əsrin 70-ci illərində 10 ailədən, sonlarında isə cəmi 7 ailədən ibarət olan kiçik icma idi.

**Dədəli** - Dədəli kəndi XIX əsrin ortalarında Şamaxı qəzasının Bərgüşad dairəsinə daxil olmuşdur. Yaşayış məntəqəsini keçmiş ərəbdədəli tayfasına mənsub ailələr qışlaq yerində salmışlar. Sonralar ərəb komponenti düşmüşdür. Dədəli oykonimi dədə - li hissəciklərindən ibarətdir. Dədə xalqımızın dünyagörüşünə görə ağsaqqal, hörmətli şəxslərə müraciət formasıdır. "Kitabi Dədə Qorqud" dastanından göründüyü kimi Dədə Qorqud bütün oğuzların hörmət etdiyi ağsaqqal şəxsdir. Həmin kənd hazırda Ərəbmehdibəy kəndi içərisində əriyib gedir.

**Dəllər** - Dəllər kəndi 1824-cü ilə aid sənəddə Şirvan əyalətinin Xançoban mahalı tərkibində Daliral (Dəlilərin rus dilində təhrif olunmuş forması) kəndi kimi qeyd olunmuşdur. Həmin dövrdə kəndin 15 ailəlik nüfusu var idi. Dəllər toponimi dəli və -lər hissəciklərindən ibarət olub, "igidlər", "qəhrəmanlar" mənasındadır.

Dəli etnonimi tele şəklində hunların bir tirəsinin adı kimi də məlumdur. Tofiq Əhmədov Dəllər toponimini tele tayfası ilə əlaqələndirir.

**Dilman** - Dilman kəndi XIX əsrin əvvəllərində Şirvan əyalətinin Qoşun mahalına daxil olmuşdur. Mənbələrdə Dilmanlı kimi qeyd olunan bu kəndin həmin dövrdə əhalisi 57 ailədən ibarət olmuşdur. Dilman kəndində artıq 1887-ci ildə kənd məktəbi də açılmışdır. Dilmanda Yunus baba, Oruc baba, İsitmə baba, Pirədini, Qoşa övliya, Bənövşə piri kimi müqəddəs ziyarətgahlar vardır.

**Elabad** - Elabad oykonimi el və abad hissələrindən ibarət olub "abad el, abad yurd" mənasındadır.

**Ərəbçəltikçi** - Ağsu rayonunun Çaparlı kəndi yaxınlığında mövcud olmuş Ərəbçəltikçi kəndi dağılmış yaşayış yerləri sırasındadır. Ərəbçəltikçi hissəciklərindən ibarət olub, "çəltikçiliklə məşğul olan ərəb" mənasındadır.

**Ərəbmehdibəy** - Ərəbmehdibəy oykonimi antroponimdən yaranmışdır. Mehdi bəy və oğlu Səlim bəy varlı, tanınmış Şirvan bəylərindən olmuşdur. Bu nəslin Qafqaz canişini Vorontsov-Daşkov və Azərbaycan xeyriyyəçisi H.Z.Tağıyevlə münasibətləri indi də kənd sakinləri tərəfindən tez-tez söylənilir. Mehdi bəyin adından yaranan oykonimin "ərəb" hissəsi kənd əhalisinin ərəb olması anlamına dəlalət etmir. Ola bilsin ki, Mehdi bəy bura Şirvan ərazisindəki ərəb mənşəli kəndlərin hansındansa gəlmədir.

Ərəbmehdibəy kəndinin ərazisi qədim yaşayış məskəni olmuşdur. Burada kurqanlar, gil təknə qəbirlər aşkar edilmişdir. Kənd əhalisinin ziyarətgah yerinə çevrilmiş Həzrə piri həm də tarixi memarlıq abidəsidir.

**Ərəbsarvan** - Ərəbsarvan kəndi 1824-cü ilə aid mənbələrdə Sarvan, 1851-ci ilin mənbələrində Ərəbsarvan, XX əsrin əvvəllərində Ərəbsarvan kimi qeyd olunur. Oykonimin ərəb hissəsi göründüyü kimi əvvəllər olmamış, sonralar

meydana gəlmişdir. 1824-cü ildə 24 ailəlik nüfusa malik olan Sarvan kəndi Şirvan əyalətinin Xançoban mahalına, 1851-ci ildə Şamaxı qəzasının Bərgüşad dairəsinə, XX əsrin əvvəllərində Göyçay qəzasına daxil olmuşdur. Ərəbsarvan toponiminin əsas hissəsi olan "Sarvan" komponenti "dəvə karvanını müşaiyət edən şəxs" mənasındadır.

**Ərəbuşağı** - Ərəbuşağı kəndi Ağsu rayon mərkəzindən 5 km cənubda, Ağsu çayı vadisində, Şirvan düzündə yerləşir. 1824-cü ildə Ərəbuşağı kəndinin 16 ailəlik nüfusu olduğu məlumdur. Həmin dövrdə Şirvan düzündə yerləşən əksər kəndlər kimi Ərəbuşağı kəndi də Şirvan əyalətinin Xançoban mahalına daxil olmuşdur.

Ərəbuşağı oykonimi ərəb və uşağı hissəciklərindən ibarətdir. VII əsrdə Azərbaycan ərazisini ələ keçirən ərəblər burada hərbi düşərgələrinə yanaşı, daimi yaşayış məskənləri də salmışlar. Ərəbuşağı oykonimi Azərbaycan ərazisindəki ərəb kəndlərindən gələn nəsillərlə bağlıdır. Z.Bünyadov qeyd edir ki, ərəb etnonimi ilə bağlı oykonimlərin bəziləri ərəb kəndlərindən gələnlər hesabına yaranmışdır. Ərəbuşağı oykonimi də istisna deyil.

**Garıs** - Ağsu ərazisində Gorus tayfasının adı ilə bağlı olan kəndlərdən biri də Garıs kəndidir. 1824-cü ilin məlumatlarına görə Şirvan əyalətinin Xançoban mahalına daxil olan Garıs kəndində 183 ailə yaşayırmış. Lakin həmin kənd hazırda dağılmış kəndlər sırasındadır. Garıs kəndindən yalnız "Garıs yeri" toponimi yadigar qalmışdır.

Göründüyü kimi Ağsu ərazisində məskunlaşmış gorus tayfalarının taleyinə toponimlərdə əbədiləşdirdikləri adlarını itirmək düşmüşdür. Hazırda həmin tayfanın adı ilə bağlı oykonimlər yoxdur.

**Gəgəli** - 1862-1863-cü ilə aid arxiv sənədlərində Şamaxı qəzasının Xançoban dairəsinə daxil olan, 70 ailəlik nüfusa malik Gəgəli obasının adı verilir. Bəzən Axtaçı Gəgəli oykoniminə də rast gəlinir. Köçəri həyat sürən bu oba tarixən Şirvanın siyasi hadisələrində fəal iştirak etmişdir. XX əsrin əvvəllərində oturaq həyata keçdikdən sonra Gəgəlinin əhalisi sürətlə artmış və Ağsunun ən böyük kəndlərindən birinə çevrilmişdir.

Gəgəli toponimi Qafqaz Albaniyasının 26 tayfasından biri olan gərgər/qarqarlarla əlaqələndirilir. Gərgərli "gərgər tayfasından olan lar" anlamına uyğun gəlir. Sonralar -r samitlərinin düşməsi nəticəsində müasir variant yaranmışdır.

Gəgəli kəndi ərazisində Uzun ata, Göyərən ağac, Sulu dəmrov (Molla İsanın yuat yeri) pirləri kimi ziyarətgah ocaqları vardır. Kəndin yaşlı sakinlərinin Uzun ata pirinin tarixinə dair bilgiləri yox dərəcəsindədir. Söylənən rəvayətlərə görə pir Həzrət Babanın dəstəmaz aldığı yerlərdəndir. Bakı xanı Hüseynqulu xana "Uzun ata" türklərinin bir ağ at peşkəş gətirmələri haqqında rəvayət də maraqlıdır.

Kənddə ölən körpə uşaqları bu pirin ətrafında dəfn edirlər. Göyərən ağac və Sulu dəmrov ziyarətgahları Şərifli nəslinin (Hacı Şirin və Molla İsa) adı ilə bağlıdır.

**Girdə** - Kənd yaxınlıqdakı Girdədağın adı ilə adlandırılmışdır. Girdədağ isə "yuruvari" dağ deməkdir.

**Göydəlləkli** - XIX əsrin əvvəllərində Şirvan əyalətinin Xançoban mahalına daxil olan Göydəlləkli kəndi Girdimançayın vadisində Şirvan düzündə yerləşir. 1824-cü ilə aid arxiv mənbələrində kəndin 24 ailəlik nüfusa malik olduğu qeyd edilir.

Göydəlləkli oykonimi göy (yaşıllıq) sözündən və dəlləkli (ərəb-şamlı tayfasının tirələrindən birinin adı) etnonimindən ibarətdir. XIX əsrdə Xançoban mahalının kəndlərindən biri Eldəlləkli adlanır. Göründüyü kimi dəlləkli kəndlərini fərqləndirmək üçün göy komponenti toponimə əlavə edilmişdir.

**Göylüc** - 1824-cü ilə aid mənbələrdə Göylüc kəndinin Şirvan əyalətinin Houz mahalına daxil olduğu qeyd edilir. Göylüc göylük, yaşıllıq mənasında olan oykonimdir.

**Gursulu** - Gursulu oykonimi gur-su-lu hissələrindən ibarət olub, suyun, çayın gur axdığı yer mənasındadır.

**Gürcüvan (Xanbulaq)** - Ağsu rayon mərkəzindən 13 km şimalda yerləşən Gürcüvan kəndini XVIII əsrdə Gürcüstanın Qurcaani rayonundan gəlmə erməni ailələri qədim Xanbulaq adlı yerdə salmışlar və gəldikləri ərazini Gürcüvan adlandırmışlar. Gürcüvan XIX əsrdə çar dövründə geniş üzüm bağları ilə tanınırdı. Gürcüvan və Mədrəsə şərabları Şirvanın ən yaxşı şərabları olub, dünyada məşhur idi. 1821-ci il məlumatma görə 41 ailəlik nüfusa malik Gürcüvan kəndi Şirvan əyalətinin Houz mahalına, sonralar isə Şamaxı qəzasının Houz dairəsinə daxil olmuşdur.

1887-ci ildə Gürcüvan kəndində kənd məktəbi açılmışdır.

1988-ci ildə ermənilər kəndi tərk etdikdən sonra 1989-cu ildə kənddə Özbəkistandan qovulan türklər məskunlaşdılar. 1990-cı ildə kəndin adı dəyişdirilərək qədim adı - Xanbulaq ilə adlandırıldı.

**Hacı Qasımlı** - Şahsevən tayfasının nüfuzlu başçılarından olan Yunsur Paşanın nəticəsi Qara Qasımbəydən törəyən nəsillər yerləşdikləri ərazilərə öz nəsillərinin adını verirdi. M.H.Vəliyev Şamaxı qəzasına daxil olan Hacı Qasımlı toponimini də həmin nəsillə bağlayırdı. Hacı Qasımlı kəndi dib yolunun alt tərəfində Gəgəli arxının sağ və solunda yerləşmişdir. Keçən əsrin əvvəllərində kəndin əhalisi Ağsu şəhərinə köçmüşdür.

**Hacı Qədirli** - Bəzi tədqiqatçılara görə XX əsrin əvvəllərində Şahsevənlərlə Cənubi Azərbaycandan Şimali Azərbaycana Qədirli tayfası da gəlmişdi. Hacı Qədirli oykonimi bu tayfanın adı ilə bağlı olması haqqında tarixi ədəbiyyatda qeydlər vardır. XIX əsrdə Şamaxı qəzasma daxil olmuşdur. 84 ailədən ibarət Hacı

qədirli obasının məskunlasması nəticəsində yaranmışdır. Onlar yayı Dağlıq Şirvanda, qışı isə Şirvan düzündə keçirirdilər.

**Hacı Səmədli** - Oykonim "Hacı Səmədin nəslindən olanlar, hacısəmədlilər" mənasındadır.

**Hacıuşağı** - Bəzi oykonimlor antroponimlərdən (şəxs adları) törəmişdir. Belə yer adlarından olan Hacıuşağı oykonimi Hacı şəxs adı və uşağı "övladı" hissələrindən ibarətdir.

**Hacman** - Antroponimdən yaranan toponimlər sırasında Hacman toponimini də qeyd etmək lazımdır. Hacı şəxs adı və iran mənşəli man "ev, mənzil, məskən" hissələrindən ibarət olub, hacı məskəni, evi deməkdir. Mənşəcə Cənubi Azərbaycandan köçüb gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

1824-cü ilə aid mənbələrə görə Şirvan əyalətinin Qoşun mahalına daxil olan Hacmanlı kəndinin 28 ailəlik nüfusu var idi. Hacmanda Yel piri, İsa baba piri, Cəhrə piri kimi müqəddəs ziyarətgahlar vardır.

**Hinqar** - Ağsunun qədim kəndlərindən biri Hinqar kəndidir. 1824-cü ilə aid arxiv sənədlərində Şirvan əyalətinin Houz mahalına daxil olan 25 ailənin yaşadığı İnqar kəndinin adı çəkilir.

Hinqar oykonimi hun tayfasının adı ilə bağlıdır. Hunqar/Hinqar hun əri, igidi mənasındadır. Hun etnonimi ilə bağlı oykonimlərin mövcudluğu Ağsu ərazisində qədim türk nəsillərinin məskunlaşdıqlarını göstərir. Oykonim türk dillərində anqar "geniş vadi" sözü ilə də əlaqələndirilir.

**Xanazad** - XIX əsrin əvvəllərində Şirvan əyalətinin Xançoban mahalına daxil olan kəndlərdən biri Xanazad kəndi olmuşdur. 1824-cü ilə aid arxiv sənədlərində Xanazad kəndində 4 ailə yaşadığı qeyd edilir. Xanazad kəndi müasir Qaraqoyunlu kəndinin yaxınlığında idi.

**Xasıdərə** - 1824-cü ildə Şirvan əyalətinin Houz mahalına daxil olan Xası kəndində 7 ailə yaşayırdı. Sonralar Xası oykoniminə dərə hissəciyi artırılmış, oykonim Xasıdərə formasını almışdır. Bu ailələrin hamısı Quba əyalətindən gəlmə idi. Elə bu səbəbdən 1936-cı ilə kimi bu kənd Qubalı adlanmışdır.

**Xatman** - XIX əsrin əvvəllərində Xatman kəndi Şirvan əyalətinin Qoşun mahalına daxil olmuşdur. 1824-cü ildə burada 20 ailə yaşayırdı. Həmin mənbədə toponim Xatmanlı kimi qeyd olunmuşdur. XVIII əsrdə Cənubi Azərbaycandan köçüb gəlmiş azərbaycanlı ailələrin məskunlaşması nəticəsində yaranmış məntəqələrdən (Dilman, Hacman və Xatman) biridir. Gətirilmə addır, mənası məlum deyil. Xatmanda Dalaq daşr, Pirquletan, Kələşmə, Süd piri kimi müqəddəs pirlərə yerli əhali pənah aparır.

**Xəlilli** - XIII əsrdə Azərbaycan ərazisinə monqollarla gəlmiş Xəlilli tayfası ağ hunların qayı adlandırılan dəstəsinə daxil olmuşdur. N.A.Abelov onların keçən əsrdə köçəri həyat keçirən tayfalardan ibarət olduğunu qeyd etmişdir. Xəlilli

tayfası öz adını bir sıra qəzalarda "Xəlilli" kəndlərinin adında yaşadır. Bu kəndlərdən biri Girdimançay vadisində Şirvan düzündə yerləşən Ağsu rayonunun Xəlilli kəndidir. Hələ XIX əsrin əvvəllərində Şirvan əyalətinin Xançoban mahalına daxil olan Xəlilli kəndinin nüfusu 39 ailə idi. Həmin dövrdə Xəlilli kəndi Şirvan feodallarından Qasım bəyin mülkiyyətində olduğundan xan və çar xəzinəsinə vergi vermirdi. Xəlilli kəndi getdikcə genişlənmiş, Ağsu rayonunun böyük kəndlərindən birinə çevrilmişdir.

**İlxıçı** - İlxıçı kəndi türk şahsevənlərlə Azərbaycana gəlmiş İlxıçı tayfasının məskunlaşdığı ərazilərdəndir. Hələ 1824-cü ildə həmin kənddə 38 ailəlik nüfusun olduğu arxiv sənədlərindən məlumdur. İlxıçı kəndi həmin dövrdə Şirvan əyalətinin Xançoban mahalına daxil olmuşdur.

İlxıçı kəndi Nazırçayın vadisində yerləşir. Cənubi Azəbaycanda da Nazırçay və vadisində İlxıçı kəndi olan coğrafi ərazi məlumdur. Bu onu göstərir ki, bəzi tayfalar özləri ilə nəinki mal-qaralarını, özünəməxsus həyat tərzini, hətta coğrafi adları da gətirmişlər.

**Kalva** - 1824-cü ilə aid mənbələrdə Kalva kəndinin 48 ailə nüfusuna malik olduğu qeyd edilir. Həmin dövrdə Quba əyalətindən bu kəndə 13 ailə köçdüyü arxiv sənədlərindən məlumdur. Kalva kəndi Şirvan əyalətinin Houz mahalına, 1851-ci ilə aid mənbələrə görə Şamaxı qəzasının Houz dairəsinə daxil olmuşdur. 1887-ci ildə Kalva kəndində kənd məktəbi açılmışdır. M.Mahmudbəyov 1889-cu ildə Kalva kəndində yeni üsulla tədris edən məktəb olduğunu qeyd edir.

Ağsu rayon mərkəzindən 30 km şimalda yerləşən Kalva kəndinin əhalisi son yüzillikdə sürətlə artmış, kənd xeyli genişlənmişdir. Kalva kəndi ərazisində Soltan Baba Hacı pirr, Pirdürahı, Səraki, İsitmə, Hacmanqulu Baba pirləri kimi ziyarətgah ocaqları vardır. Kalva kal və oba komponentlərindən ibarətdir. Kələ (tat dilində "böyük") və ova/oba olmaqla böyük oba mənasındadır.

"Kalva" sözünün etimologiyasını Kəl Vəli şəxs adı ilə də əlaqələndirirlər. Digər variant isə Kalva dialektində işlənən "kalafa"- "sulu çökək yer" sözü ilə bağlıdır. Kalvanın coğrafi quruluşu bu etimologiya ilə uyğunluq təşkil edir.

**Keçdiməz** - Keçdiməz kəndi XIX əsrdə əvvəlcə Şirvan əyalətinin Qoşun mahalı, sonralar Şamaxı qəzasının Qoşun dairəsi tərkibində qeyd edilir. 1824-cü ildə Keçdiməz kəndində 20 ailə yaşayırdı. Bu kənd mənbələrdə "Qaşkənd" adlandırılan kəndlər silsiləsinə daxildir. A.Mustafayev bu kəndlər silsiləsinin bulaq ətrafında salınan kəndlər olduğunu qeyd edir. Kəndin əsl adı Kişdeməzdir. Rəvayətə görə burada yaşayan mömin şəxs hətta toyuğa da "kiş!" deməzmiş. Ona görə ləqəbi kişdeməz olmuşdur. Keçdiməz kəndi ərazisində əhalinin ziyarətgah yerinə çevrilmiş Gülməhəmməd piri vardır. Bədənində yara olan adamlar pirdən şəfa diləyərdilər.

**Kəlağayılı** - Kəlağayılı toponimi "kəlağayı" (ipəkdən hazırlanan parça) istehsal olunan, kəlağayı olan yer anlamındadır. Görünür bu kənddə kəlağayı istehsalı ilə bağlı sənətkarlar olmuşdur. Kəlağayılı kəndində türbə olması da məlumdur.

**Kəndəxan** - Keçmişdə Kəndüvan da adlanmışdır. Yerli məlumata görə yaşayış məntəqəsini Kəndəxan adlı bir şəxs saldığına görə belə adlanmışdır.

**Kəndoba (Qarağaclı)** - Kəndoba kəndi Ağsu rayonunun bostançılıqla məşğul olan böyük kəndlərindəndir. Bu kənd haqqında mənbələrdə məlumatlar az olduğundan belə qənaətə gəlmək olar ki, Şirvan düzünün əksər kəndləri kimi gec məskunlaşmışdır.

Kəndoba oykonimi kənd və oba hissəciklərindən ibarətdir. Kənd ilə obanın birləşməsini əks etdirir. Oba vaxtilə Qarağaclı kəndi ilə yanaşı salınmışdır. Sonralar Qarağaclı kəndi də Kəndobaya qarışmışdır.

**Külüllü** - 1824-cü ilə aid mənbələrdə Şirvan vilayətinin Bölüksət mahalına daxil olan Külüllü kəndində 28 ailə yaşayırdı. Külüllü oykonimi Şirvan ərazisində yaşayış məskəni kimi tanınan kühül komponentindən və -lü şəkilçisindən ibarətdir. Kühül mağara tipli yaşayış yeridir.

Vaxtilə Küllülü kəndi iki hissədən (müsəlman və malakan) ibarət olmuşdur. Kənd ərazisində XX əsrin ikinci onilliyində Çuxuryurddan (Şamaxı) Küllülü kəndi yaxınlığındakı su dəyirmanmda işləmək üçün Vasili xozeynin başçılığı ilə 8 malakan ailəsi məskunlaşmışdır. Sovet hakimiyyəti dağıldıqdan sonra malakan ailələri Çuxuryurda qayıtdılar. Hal-hazırda kənddə malakan yaşamır.

**Qarabağlar** - XIX əsrin əvvəllərində Qarabağ xanlığından Şirvan xanlığı ərazisinə kütləvi köçmələr olmuşdur. Odur ki, Qarabağlar oykonimi "Qarabağdan gəlmələr, Qarabağdan köçüb bu ərazidə yurd salanlar, qarabağlılar" mənasındadır.

**Qaravəlli** - Kəndin keçmiş adı Qaravəlli Qalabəy olmuşdur. Əvvəllər yarımköçəri, heyvandar tayfa olan qaravəllilər XIX əsrin axırlarında oturaq həyata keçmiş, əksəriyyəti Kür qırağına getmişdir. Bəzi müasir Qaravəlli kəndləri özlərini Ağsu ərazisindən gəlmə sayırlar.

Qaravəlli etnonimi və oykonimi qaraevli səlcuq soyunun dəyişmiş variantı ola bilər. Ümumiyyətlə Şirvan ərazisində səlcuq soylarının əksəriyyəti yayılmışdır.

**Qaraqaşlı** - İlk dəfə qaraqaşlı tayfası məskunlaşdığına görə belə adlanmışdır. Keçmişdə Qaraqaşlı Gorus adlanırdı ki, bu da "Gorus mahalındakı Qaraqaşlı kəndi" mənasındadır.

**Qaraqoyunlu** - XIII əsrdə monqolların yürüşü zamanı Azərbaycan ərazisinə köç etmiş tayfalardan biri qaraqoyunlu tayfasıdır. Qaraqoyunlu dövlətinin yaradıcısı olan bu tayfa 1467-ci il Muş döyüşündən sonra Çuxursəd vilayətində böyük əksəriyyətlə yaşayırdı. Qaraqoyunlu tayfası Ağsu ərazisində məskunlaşmış,

burada eyniadlı kəndin əsasını qoymuşdur. Qaraqoyunlu kəndində bəzi nəsillər özlərini qaraqoyunlu tayfasından hesab edirlər.

XIX əsrin əvvəllərində 62 ailəlik nüfusa malik Qaraqoyunlu kəndi Şirvan əyalətinin Xançoban mahalına daxil olmuşdur. Qaraqoyunlu kəndi XIX əsrdə - XX əsrin əvvəllərində Şirvan nəqşibəndiyyə təriqətinin mərkəzi olmuşdur. Ağ günbəz Qaraqoyunlu nəqşibəndilərindən yadigar qalmış memarlıq abidəsidir.

XX əsrin 20-ci illərində Qaraqoyunlu kəndi Şura hökumətinə qarşı mübarizə aparan mərkəzlərdən biri olmuşdur. Ona görə də Qaraqoyunlu kəndinə "bandit Qaraqoyunlu" deyilmiş, uzun müddət kəndə mənfi münasibət olmuşdur. Üsyana Maqsud əfəndi, Böyükağa kimi şəxslər rəhbərlik etmişlər.

**Qaradağ** - Əsl adı Qaradağlı olan kənd qaradağlı tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Qaradağlılar qızılbaş tayfalarından idilər. Tayfa öz adını Cənubi Azərbaycanın Qaradağ mahalından almışdır. Səfəvilər hakimiyyətə gəldikldən sonxa qaradağlılar müxtəlif ərazilərə yayılmışlar.

**Qaraməmmədli** - XIX əsrin əvvəllərində Şirvan əyalətinin Xançoban mahalına daxil olan kəndlərdən biri Qaraməmmədli kəndidir. Qaraməmmədli kəndi həmin dövrdə 10 ailəlik nüfusa malik idi.

Qaraməmədli oykonimi Qara Məmməd (Qara Məhəmməd) şəxs adından və -li mənsubiyyət şəkilçisindən ibarətdir. "Qara Məhəmmədin nəsli" mənasını bildirən oykonim kənddə həmin nəslin məskunlaşması nəticəsində yaranmışdır.

**Qasımbəyli** - XIX əsrin əvvəllərində Göyçay qəzasına daxil olan kəndlər sırasında Xəlilli - Qasımbəy kəndinin də adı çəkilir. Sonralar Xəlilli tayfasından Qasımbəy nəslinin ayrılması nəticəsində Qasımbəyli kəndi və oykonimi yaranmışdır. Hər iki kənd (Xəlilli və Qasımbəy) Şirvan düzündə yerləşir.

**Qəşəd** - Bəzi etnoqrafik məlumatlarda Ağsu rayonunun Bico, Qəşəd, Keçdiməz, Ləngəbiz kəndlərinin əhatə etdiyi ərazi insan orqanizminin qaş hisəsinə oxşadılır. Həmin kəndlər silsiləsi "Qaşkənd" adlandırılır. "Qaşkənd" toponimi Qəşəd oykoniminin ilkin variantıdır. XIX əsrin əvvəllərində 19 ailəlik nüfusa malik Qəşəd kəndi əvvələr Şirvan əyalətinin Qoşun mahalına, sonralar Şamaxı qəzasının Qoşun dairəsinə daxil olmuşdur. Ümumiyyətlə, Şirvan əyalətinin Qoşun mahalı tərkibində Ağsu rayonu ərazisindən yalnız yeddi kənd (Bico, Qəşəd, Keçdiməz, Ləngəbiz, Hacımanlı, Xatmanlı, Dilmanlı) olmuşdur. Qırlar - Oykonimin qır coğrafi termin hissəsinə Orta Asiyanın toponomikasında da rast gəlinir. Mənbələrdə kır (qır) adlı tayfanın olması da göstərilir. Qır türk dillərində yüksəklik, təpəlik mənasındadır. Qırlar kəndi yaxınlığında Qırlartəpə maddi-mədəniyyət abidəsi yerləşir. Burada eneolit dövründən başlayaraq yaşayış olmuşdur.

**Qiyaslı** - Oykonimin keçmiş adı Ərəb Qiyaslı olmuşdur. T.Əhmədov Qiyaslı oykonimini təkrarlanan etnonimlər sırasında qeyd edir. Bu oykonimi hər

hansı tayfa və ya tirə ilə bağlamaq çətindir. Qiyaslı oykonimi antroponimdən yaranmışdır. Qiyas şəxs adına -h mənsubiyyət şəkilçisi artırılmaqla Qiyaslı oykonimi əmələ gəlmişdir.

**Quzey** - Şirvanda kəndlərin əksəriyyəti dağların güney hissəsində salınır. Görünür Quzey kəndinin coğrafi yerləşməsi oykonimin yaranmasına təsir etmişdir. Kəndin əhalisi getdikcə azalmaqdadır. Hazırda Sanqalan adlanan kənd əvvəllər Güneyqazma adlanmışdır. Həmin kənd yolun güney tərəfində, Quzey kəndi isə qüzey tərəfində yerləşmişdir.

**Ləngəbiz** - Ləngəbiz oykoniminə Şirvan ərazisində həm də oronim (dağ adı) kimi rast gəlinir. Ləngəbiz kəndi XIX əsrin əvvəllərində Şirvan əyalətinin Qoşun mahalına daxil olmuşdur. 1824-cü il sənədlərində Ləngəbiz kəndinin 30 ailəlik nüfusa malik olduğu qeyd edilir. Ləngəbiz oykonimi bəzi mənbələrdə Lanqobaz kimi yazılır.

Bir fikrə görə toponim fars dilindəki ləng (dayaz yer, çala, çökək) və biz (buz puz sözünün təhrif edilmiş variantı olub, "çıxıntı" deməkdir) komponentlərindən ibarətdir. Digər fikrə görə isə Ləngəbiz toponiminin tərkibindəki ləng/ləngər İran dillərində "ticarət karvanının dincəlmək üçün bir-iki günlüyə dayandığı, ləngidiyi dayanacaq", biz isə "yüksəklik, dağ" mənasındadır.

Mırtı - Mırtı oykonimi Ağsunun itib-batmış kəndlərindən olan Mırtı kəndinin adı ilə bağlıdır. Əsl adı Murtu olmuşdur. Təklə tayfasının murtu tirəsinin məskunlaşması nəticəsində yaranmışdır.

Vaxtilə Mırtı obası Axtaçı obası ilə qonşu olmuşdur. Kənd dağıldıqdan sonra əhalisi Ağsu şəhərində də Axtaçı məhəlləsi ilə qonşuluqda yaşayır.

**Mollakənd** - Mollakənd oykonimi Molla-kənd hissəciklərindən ibarətdir. Molla dini rütbəsinə kənd hissəciyi artırılmışdır. Vaxtilə Mollakənd Qaraqoyunlu kəndi yaxınlığında yerləşmişdir.

**Məlikçobanlı** - Çobanlı tayfası Şirvanın hərbi-siyasi tarixində mühüm rol oynamışdır. Şirvan xanlığını idarə edən sülalə həmin tayfadan olub, Xançobanı adlanırdı. Məlikçobanlı kəndi həmin tayfanın adı ilə bağlı oykonimlərdəndir. Bu kənd XIX əsrin əvvəllərində Şirvan əyalətinin Xançoban mahalına daxil olmuşdur. Həmin dövrdə bu kənddə 41 ailə yaşayırdı.

**Muradlı** - Orta əsrlərdə Şahsevənlər Azərbaycanın güclü siyasi birliyə malik tayfalarından olmuşdur. M.H.Vəliyev toponimlərdə yaşayan Şahsevən tirələri sırasında Muradlı tirəsinin də adını çəkir. Muradlılar Şahsevənlərdən Kürdbəyin nəslindəndir.

1824-cü ilə aid mənbələrdə Muradlı kəndində 26 ailənin yaşadığı göstərilir. İnzibati cəhətdən Muradlı kəndi həmin dövrdə Şirvan əyalətinin Xançoban mahalına, XX əsvin əvvəllərində isə Göyçay qəzasına daxil olmuşdur.

**Musabəyli** - Musabəyli oykonimi antroponimdən yaranmışdır. Musa bəyin məskəni, yasayış yeri anlamındadır. Yasayış məntəqəsi XIX əsrdə Musabəy adlı şəxsə mənsub ərazidə salındığı üçün belə adlanmışdır.

**Mustafalı** - 1824-cü il sənədlərində Şirvan əyalətinin Xançoban mahalına daxil olan Mustafalı kəndi ərazisində 34 ailənin yaşadığı qeyd olunur.

Mustafalı oykonimi antroponimdən yaranmışdır. Yaşayış məntəqəsi mustafalı nəslinin məskunlaşması nəticəsində yaranmışdır.

**Navahı** - Ağsu şəhər mərkəzindən 300 m cənubda yerləşən Navahı kəndinin tam adı Borbor Navahı kimi qeyd olunur. Borbor tayfa adıdır. Navahı oykonimi ərəb mənşəli '"nahiyə" sözünün cəm şəkiçisi -"nəvahi" kimi ifadə olunur. Navahı rayon, sahə, dairə mənasındadır. Oykonim "borborlar yaşayan dairə" mənasındadır.

**Nəmirli** - 1824-cü ilə aid vergi sənədlərinə görə 12 ailəlik nüfusa malik Nəmirli kəndi Şirvan əyalətinin Xançoban mahalına daxil olmuşdur. Yaşayış məntəqəsi qışı Şilyan (Kürdəmir rayonu) yaxınlığında, yayı isə Babadağda (İsmayıllı rayonu) keçirən nəmirli tirəsinin məskunlaşması nəticəsində yaranmışdır.

**Növcü** - Növcü kəndi 1824-cü ildə Şirvan əyalətinin Bölüksət mahalına, 1851-ci ildə Şamaxı qəzasının Bərgüşad dairəsinə daxil olmuşdur. XIX əsrin əvvəllərində bıı kənddə 5 ailə yaşayırdı.

Növcü kəndi ərazisində qoç qəbirləri məlumdur. Kənd Nazırçayın vadisində yerləşir. Nöycü toponimi fars mənşəlidir. Nöy (təzə, yeni) və -cu (arx, kanal) hissəciklərindən ibarət olub, "yeni arx" mənasındadır.

**Nuran** - Nuran kəndinin XIX əsrin əvvəllərində 8 ailəlik nüfusa malik olması 1824-cü ilin vergi sənədlərindən məlumdur. Həmin dövrdə Nuran kəndi Şirvan əyalətinin Houz mahalına daxil olmuşdur.

Nuran kəndi ərazisində e.ə.1 minilliyə aid edilən Qaraçıbulaq maddi-mədəniyyət abidəsi vardır.

Nuran toponimi monqol mənşəli nur\nori (dağ silsiləsi, uçurum, yarğan və -an hissəciklərindən ibarətdir "Dağ silsiləsi yanında kənd" mənasındadır. Kəndin coğrafi mövqeyi də bunu sübut edir.

**Nüydi** - 1824-cü ilin sənədlərində 6 ailəlik nüfusa malik Nüydi kəndinin adı çəkilir. Həmin kənd Şirvan əyalətinin Houz mahalı tərkibində qeyd edilir. Ağsu rayon mərkəzindən 27 km şimalda yerləşən Nüydi kəndi ərazisində antik dövr yaşayış yeri və nekropolu aşkar edilmişdir. Qədim maddi-mədəniyyət abidəsinə malik olmasına baxmayaraq oykonim fars dilində "yeni kənd" mənasındadır. İran dillərindəki nöy\nöü (nou) "yeni, təzə" və di/dün (deh) "kənd'" sözlərindən Nüydi toponmi yaranmışdır. Görünür müasir kəndin ətrafında məskunlaşmış tayfa, nəsil bu ərazini özünə yeni məskən seçmiş və kənd belə adlandırılmışdır.

**Padar** - XIX əsrin əvvəllərində 57 ailənin yaşadığı Padar kəndi Şirvan əyalətinin Xançoban mahalına, sonralar isə Şamaxı qəzasının Xançoban dairəsinə daxil olmuşdur.

Padar oykonimi padar tayfaları ilə bağlıdır. Meşanninov İ.M. Azərbaycan ərazisində padar toponiminin çox qədim tarixə malik olduğunu qeyd edir. Urartu kitabələrində (e.ə. VIII əsr) tez-tez adı çəkilən Patari (şəhər adı) toponimi ilə bağlılığını göstərir. Digər mənbələr padarları Elxanilər dövründə Orta Asiyadan köçən 200.000 türkdilli ailə içərisində yerləşdirir. Padarların Şirvana köçmələri Səfəvilərlə əlaqələndirilsə də onların daha əvvəllər burada məskunlaşdıqları haqqında məlumatlar vardır. XIX əsrdə padarlar bir sıra tirə və qollardan (ilxıçı, qaraçörüklü, axtaçı, pölüklü, küyüllü və s.) ibarət idilər.

**Padarçöl** - Azərbaycanın bir sıra rayonlarında Padar oykonimlərinə rast gəlinir. Bəzən padar etnonimi tək işlənmir. Bu həmin oykonimləri fərqləndirmək üçündür. (Şabran Padar, Armud Padar, Padar Gülməli, Qaradağlı Padar və s.) Padarçöl oykonimi də bu qəbildəndir. Köçəri padar maldar nəsilləri XIX əsrin əvvəllərində Şirvan düzündə daimi məskən salmışlar. Padarçöl kəndi yaxınlığından dəmiryolu keçir. Bu Ağsu rayonunun dəmiryolu keçən yeganə kəndidir. Padarçöl kəndində Sofu Baxış baba, Hacı Qəhrəman baba pirləri vardır.

**Pirqaraçuxa** - 1824-ci il məlumatlarına görə 10 ailə nüfusuna malik Pirqaraçuxa kəndi Şirvan əyalətinin Houz mahalına daxil olmuşdur. Pirqaraçuxa toponimi Pir-qara-çuxa komponentlərindən ibarətdir. Bəzən toponimin önündəki "pir" dini rütbə anlayışı işlədilmir. Yəni Qaraçuxa/Qaraçuq toponimin əsas hissəsidir. Pirqaraçuxada Qaraçuxa adlı qədim pir var. Yerli camaat indi də həmin pirə sitayiş edir. Kənd öz adını həmin pirdən götürüb.

**Pirhəsənli** - Ağsu rayonunun böyük kəndlərindən olan Pirhəsənli kəndi XIX əsrin əvvəllərində Şirvan əyalətinin Xançoban mahalına, sonralar isə Şamaxı qəzasının Xançoban dairəsinə daxil olmuşdur. Həmin dövrdə 58 ailə yaşayan Pirhəsənli kəndi dini ocaqların mərkəzidir.

Pirhəsənli oykonimi pir, həsən və -li hissəciklərindən ibarətdir. "Pir" dini rütbə kimi Pirhəsənli dini ocaqları, pirləri ilə bağlıdır. Göründüyü kimi oykonim antroponimdən yaranmışdır.

Kəndin keçmiş tam adı Pirhəsənli Kəngərli və ya Pirhəsənli kən-gərlisi olmuşdur. Oykonim Quba xanı Fətəli xanın 1782-ci ildə bir hissəsini Qarabağdan Şirvana köçürdüyü kəngərli tayfasının adı ilə əlaqədardır.

**Rəhimağalı** - Keçmişdə kənd həm də Eldəlləkli adlanırdı. Rəhim ağa orada məskunlaşan ailələrin başçısı idı. XIX əsrin ortalarında Cavad qəzasında yaşamış 67 ailədən ibarət obanın məskunlaşması nəticəsində yaranmışdır.

**Rəhimli** - Şirvan düzündə yerləşən Rəhimli kəndi XIX əsrdə Cavad qəzasında yaşamış 70 ailədən ibarət rəhimli obasının məskunlaşması nəticəsində yaranmışdır.

Ağsu rayon mərkəzindən cənubda bu kəndlər Şirvamn düzünün əksər kəndləri kimi yarımköçəri həyat tərzindən oturaqlığa keçdikdən sonra daha da böyümüşdür. Rəhimli kəndi ərazisində orta əsrlər Zəngənə yaşayış yerinin qalıqları vardır.

**Sanqalan** (Güneyqazma, **Leninabad)** - Güneyqazma kəndinə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Leninabad (V.İ.Leninin şərəfinə) adını vermişdilər. Azərbaycan müstəqillik qazandıqdan sonra 1992-ci ildə Ağsu rayonundakı bəzi kənd adları kimi Leninabad kənd adı da dəyişdirildi və Sanqalan adlandırıldı. Oykonim tat dilindəki səng (daş) sözündən və -lan "məkan bildirən formadan" ibarət olub "daş olan yer, daşlıq" mənasındadır. Sanqalan kəndində 500 il yaşı olan qocaman palıd ağacı sitayiş yeri kimi ziyarət olunur. Bura mal piri də deyirlər.

**Sorsor** - M.H.Vəliyev Sorsor tayfasının XIII əsrdə Hülakilər tərəfindən Qərbi Türküstandan Azərbaycana köçürüldüyünü qeyd edir. Sorsor tayfası Ağsunun qədim tayfalarından olmuşdur. 1737-39-cu illərdə Nadir şahın Şirvana hakim təyin etdiyi Sərdar xan Ağsu şəhərinə bir çox Dərbənd ailəlrini köçürdü. Əvəzində isə Şirvandan "davakar, nadinc" adamlar kimi tanınan sorsorları Dərbənd və Quba ərazilərini ləzgilərdən müdafiə etmək üçün həmin yerlərə köçürdü. Habelə sorsorlar Ağsu şəhərində və ətrafında yerləşdirildi.

1824-cü ilə aid sənədlərdə Şirvan əyalətinin Xançoban və Houz mahallarında Sorsor obasının adı verilir.

**Suraxanı** - A.P.Fituniyə görə Suraxanı "yeddi cərgəli" daha dəqiq "yeddi xəndəyi olan" deməkdir. Lakin bu oykonimin ərəb dilində sur "divar" və fars dilində xana "ev" sözlərindən yarandığını da ehtimal edirlər. Digər ehtimala görə Suraxanı kəndini ilk bina etdiyi üçün "Suriya ölkəsindən gələn şəxsin kəndi" adı ilə formalaşaraq indiki Suraxanı şəklinə düşüb. Digərləri isə onun tat dilindəki sur (isti) və xani (bulaq, mənbə, qaynaq) sözlərindən ibarət olub, "isti bulaq" mənası daşıdığını göstərirlər.

**Şahbəyli** - Əsl adı Şahıbəylidir. Yaşayış məntəqəsi XIX əsrdə Cavad qəzasında maldarlıqla məşğul olmuş şahıbəyli nəslinin məskunlaşması nəticəsində yaranmışdır.

**Şamlı** - Ağsunun itib-batmış kəndlərindən biri də Şamlı kəndidir. Şamlılar monqolların basqını zamanı Suriyada məskunlaşmış tayfalardandır. Əmir Teymur 1402-ci il Ankara döyüşündən sonra Rum və Şamdan əsir alıb gətirdiyi qruplar sonralar rumlu və şamlı adı altında birləşərək qızılbaşların tərkibində müstəqil tayfa kimi çıxış etmişlər. Səfəvilərin hakimiyyətə gəlməsindən sonra şamlılar

Şimali Azərbaycan ərazisində də yayılmışdır. Şamlı tayfasının adı ilə bir sıra toponimlər mövcuddur. Şamlı kəndi müasir Qaraqoyunlu kəndi yaxınlığında yerləşmişdir.

**Şıxməzid** - Ağsu şəhərinin əhatə etdiyi ərazinin müəyyən hissəsində vaxtilə Şıxməzid kəndi mövcud olmuşdur. Getdikcə böyüyən Ağsu şəhərinə qarışmışdır. Əhalinin bir hissəsi isə yaxınlıqdakı Pirhəsənli kəndinə köçmüşdür. Bu kəndin ərazisi və əhalisi XX əsrin 30-cu illərinə qədər şıxməzidli nəsillərin türbə, dəyirman və s. tikinti obyektləri qalmaqda idi.

Şıxməzid oykonimi Şeyx Məcid antroponimindən yaranmışdır. Lakin Məzyədilərlə bağlılıq da qeyd olunur. Ərəb əsilli olan məzyədilər Şeyx kimi tanınırdı. Şeyx Məzyəd Şıxməzid formasına düşmüşdür.

**Talış** - Ağsu rayonunun itib-batmış kəndlərindən biri Talış kəndidir. Talış oykonimi Azərbaycanın cənub zonasında yaşayan talış etnik qrupunun adı ilə bağlıdır. Talışlar Ağqoyunlu-Səfəvi mübarizəsində Səfəvilər tərəfindən iştirak edirdilər. Qızılbaşlar içərisində yeganə irandilli tayfa olan talışlar hərbi xidmətlər əvəzində Şimali Azərbaycan ərazisində torpaq sahəsi alırdılar. Talışlar bu torpaq sahəsini öz etnik adları ilə adlandırırdılar. Kənd əhalisi keçən əsrdə Şamaxı şəhərinə köçmüşdür.

**Təklə** - Oykonim səlcuqların təklə tayfasının adı ilə bağlıdır. Əvvəllər Anadoluda yaşamış təklə tayfası Qazi xanın başçılığı ilə 1540-cı ildə I Təhmasibin itaətini qəbul etmiş, şahsevənlərin tərkibinə daxil olmuşdur. XIX əsr mənbəsinə görə təklətilər Mil və Qarabağ düzlərində 14 tirə və müxtəlif nəsillərdən ibarət idilər. Sonralar onlar bir neçə qola ayrılmışdılar.

**Yenikənd** - Yenikənd oykonimi Bəylər və Noraşen kəndlərinin birləşməsi nəticəsində yaranmışdır. Lakin 1824-cü ilə aid mənbələrdə Şirvan əyalətinin Houz mahalına daxil olan Yenikənd yaşayış yerinin adı çəkilir. Ermənilərin yaşadığı bu kənddə 6 ailə var idi.

**Yenilik** - Yenilik kəndi əvvəllər Səfərbinə adlanmışdır. XX əsrin 90-cı illərində adı dəyişdirilən kəndlərdəndir. Kənd Səfər adlı ləzginin burada məskunlaşması nəticəsində yarandığına görə belə adlanmışdır.

**Yekəqurşaqlı** - Padar tayfasının Yekəqurşaqlı tirəsi əksər mənbələrdə Axtaçı-Yekəqurşaqlı kimi qeyd edilir. Axtaçı-Yekəqurşaqlı eli XIX əsrdə Bakı quberniyasının Şamaxı qəzasına daxil olub, 80 ailədən ibarət idi. Yekəqurşaqlılar XX əsrin əvvəllərində köçəri maldarlıqla məşğul olurdular. Onların daimi düşərgələri Kükəş qobusu üstündə Qaraməmmədli və Daşdəmirbəyli kəndləri yaxınlığında idi.

**Ülgüclü** - Şirvan düzündə yerləşən kəndlərdən biri Ülgüclü kəndidir. Ülgüclü kəndi yaxınlığında XVIII əsr Ağsu şəhərinin xarabalığı vardır. Ağsuçayın vadisində yerləşməsinə baxmayaraq kəndin əhalisi XIX əsrdə yarımköçəri həyat

sürmüşdür. Ülgüclü Şamaxı rayonundakı Ülgüc kəndindən köçüb gəlmiş ailələrin yaylaq sahəsinin adı olmuş, oturaq həyata keçdikdən sonra kənd də belə adlanmışdır.

**Zərqava** - Yerli məlumata görə yaşayış məntəqəsini XIX əsrin əvvəllərində Quba rayonunun Zərqava kəndindən gəlmiş ailələr salmışdır.

**Zərdab** - 1578-ci ilə aid Osmanlı sancaq təqsimatında Zərdab sancağının da adı verilir. Zərdab həmin dövrdə 500 ailəsi olan böyük kənd idi. Bu kənddə Həsən bəy Zərdabi dünyaya gəlmişdir. XVIII-XIX əsrdə Zərdab öz şəhər əhəmiyyətini itirirdi. Çoxlu nəsillər kəndi tərk edirdilər. Ağsu rayonunun itib-batmış kəndlərindən olan Ərəbmehdibəy kəndinin 3-4 kilometrliyində Yuxarı Şirvan kanalının altında yerləşən Zərdab kəndi də o vaxtlar məskunlaşmışdır.

Zərdab fars dilində "Sarısu" deməkdir. Oykonimin mənası "axmaz, bataqlıq, gölməçə suyu" anlamındadır.

**Ağamahmud MEHBALIYEV**

## MƏN ÖZÜMLƏ TƏKBƏTƏK

Tariximə nəzər saldım, əlim əldən üzüldü,
İzim qalan yollar boyu günahlarım düzüldü.

Bir dilə gəl, kömək elə, a kor olmuş yaddaşım.
Sən mənə bir söylə görüm, axı nə çəkdi başım?

Geri dönüb xatırladım, yaman çatıldı qaşım
Necə olub, altmış olub mənim əzablı yaşım?

Sən xatırlat mənə qardaş, nə dedi tale quşum?
Necə oldu, yada döndü mənə doğma qardaşım?

Niyə qaldı həsrətimdə ocaq daşım, yurd daşım?
Nə cür oldu zəhər oldu, soyudu hazır aşım?

Xatırlat mənə yaddaş, keç yaşımın həddini
Hansı küfrə yol vermişdi, biz soyduq Nəsimini?

Necə oldu Koroğlunun düşmənləri özgəsi yox, özüm oldu?
Qarşısında qardaşların kəlləsindən düzüm oldu?

Düşündükmü biz görəsən tarix boyu olanları?
Kimdən düşdü qaçaq Nəbi, kimlər oldu düşmənləri?

Bərabərlik deyən yerdə edam etdik Məzdəki
Ələ verdik özgəsinə, doğradılar Babəki.

Nədən belə düşmən oldu güvəndiyim iki nəsil –
İbrahim şah, Fərrux Yasar - Şeyx Heydər, Şah İsmayıl.

Hardan gəldi Nadir Əfşar? Niyə düşdü öz taxtından?
Kim şah oldu qacarlardan, niyə küsdü öz bəxtindən?

Qəzəbləndi Nadir Əfşar nə axtardı, nəyi tapdı?
Şirvanlılar kəlləsindən Ağsuda bir qüllə yapdı.

Cavad xan da silah çəkib tək qorudu doğma yurdu
Gəncəni Bu faciə ayıltmadı daşa dönmüş soydaşlardan kimsəni.

Fətəli xan birlik deyib haray çəkdi Qubadan
O bir cavab eşitmədi, səs qayıtdı qayadan.

Şirvan, Təbriz, Ərdəbil, Gəncə, Şəki, Naxçıvan,
Birləşib bir qeyrətə bütöv olmadı bir an.

Dərbənd, Gəncə, Borçalı, Qarayazı, Zəngəzur,
Təbriz, Zəncan, Marağa, hərə çəkdi qırağa.

Bir obanı ayırdıq biz - aşağı baş, yuxarı baş,
Neçə-neçə qırıldı qol, kəsildi baş.

Niyə belə təkəbbürlük baş qaldırdı görəsən?
Düşmən oldu Qara Yusif, Uzun Həsən?

Analar üçün toylardan çox qismət oldu oğul yası,
Səbəblərin bəllisə də ibtidası, sualların görünməyir intəhası.

Zaman boğdu ləyaqəti, şöhrət, şərəf zəbun oldu,
Qanlar axdı zaman-zaman, baharımız xəzan oldu.

Birlik, hümmət, cihad deyən Peyğəmbəri unutduq,
Saleh yolu tanımayıb kafirlərə üz tutduq.

Bizə böyük ad-san oldu dərəbəylik, qaçaqlıq,
Siyasətdən uzaq düşdük, Vətən oldu qayçılıq.

Qarabağın düşmənlərin saymaq üçün üç barmağın bəs oldu,
Özümüzdən dedim, yazdın, on üç rəqəm nəhs oldu.

Niyə Vətən qürbət oldu vətənində millətə?
Özü özünə dərman deyil, özü döndü illətə.

Ermənilər silah alıb qovladılar evimizdən.
Səbəbini araşdırdıq, yenə çıxdı özümüzdən.

Dağların səngərindən qaçıb endik düzənə,
Özgələri hayladıq, dedik - bəlkə düzələ.

Hər şeyə inananlar çox yerdə aldandılar,
Hər yerdə aldananlar çox həqiqət dandılar.

İstiqlalı axtardıq dənizdə təşnə kimi,
Tarix yetirdi bizə saf, duru çeşmə kimi.

Qorumaq borcumuzdur onu bir xəzinə kimi
Bayrağımız ucalsın, yüksəlsin ərşə kimi,

İnanıram sabahın işığına, nuruna,
İşığı görmək üçün bəbək gərək qoruna.

Bəbək Vətənimizdir, Vətən hər qaya daşı,
Vətən milli qeyrətdir, namus hər şeyin başı.

Nikbin ol Ağamahmud, dərdi, kədəri unut,
Arzuların qoy çin olsun, qalır gəncliyə ümid.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində**

Ağsu rayon prokurorluğunun 26 sentyabr 1988-ci il tarixli qərarına əsasən keçirilmiş yoxlamaya dair akt. Ağsu, 31 oktyabr 1988
ASE III cild B., 1979
ASE VII cild B., 1983
ASE IX cildB., 1986
Azərbaycan tarixi. B., 1993
Azərbaycan tarixi. B., 1994
Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi nəticələri. B., 1956
Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Azərbaycan Ensiklopediyası NPB., B., 2000
Babaşov A. Şeyx Dursun kimdir? // "Birlik" Ağsu, 20 yanvar 1995
Cəbiyev Q. Qırlartəpənin sirri // "Kommunist" №2 4 avqust 1985
Cəbiyev Q. Abidələri qoruyaq // "Birlik" №3 Ağsu, 8 yanvar 1987
Cebiyev Q. Arxeologiya və romantika B., 1990
Dostiyev T. Azərbaycanın orta əsr şəhərləri // "Azərbaycan arxeologiyası" jurnalı №1-2, 1999
Əhmədov H. XIX əsr Azərbaycan məktəbləri, B., 1985
Əhmədov T. El-obamızın adları, B., 1984
Əhmədov T. Azərbaycan toponomikasının əsasları. B., 1990
Əliyev F. Şimali Azərbaycan şəhərləri B., 1960
Hüseynova S. Tarixi abidələri qoruyaq // "Birlik" Ağsu, 3 iyun 1986
Xəlilov F. Ağsuda yeni arxeoloji tapıntılar // "İrs" №4, 2000
Xəlilov F. Qədim Nərgizava // ADPU TEC-nin 62-ci elmi konfransının materialları, IV buraxılış, B., 2001 - Kərəmov N. 40 il səyahətdə B., 1975
Qazıyev S.M. Mingəçevir küp qəbirləri albomu B., 1959
Qasımov A. Şirvan kitabələri. "Elm və həyat", №5, 1998
Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən B., 1994
Mehbalıyev A. XV əsrin yadigarı // "Birlik" Ağsu, 16 mart 1972
Mehbalıyev A. Rayonumuzun tarix və mədəniyyət abidələri // "Birlik" 3 oktyabr 1978
Mehbalıyev A. Ağsunun mədəniyyət abidələri // "Elm və həyat" №2, 1979
Mehbalıyev A. Ağsu şəhərinin keçmişindən // "Birlik" Ağsu, 3 iyun 1985
Mehbalıyev A. Ax, su! Yoxsa ağ su? // "Birlik" Ağsu, 29 iyun 1985
Mehbalıyev A. Yurdun ulu daşları // "Birlik" Ağsu, 17 oktyabr 1995
Mirzəliyev C. Ağsu. B., 1998
Nemanzadə Ö. F. Seçilmiş əsərləri, B., 1992
Nemət M. Azərbaycanda pirlər. B., 1992.

Nuriyev A.B. Şamaxı rayonu ərazisində təsadüfi arxeoloji tapıntılar// Azərb. EA "Məruzələr" 1962, №9
Nuriyev A.B. Şəhərgah yaşayış yeri. // AMM VII cild.
Osmanov F.L. 1975-ci il Nüydi qazıntılarının nəticələrinə dair// Azərb. EA "Xəbərlər" №4, 1976
Osmanov F.L., İbrahimov F.Ə., Nyüdidən tapılmış antik dövr alban silahları haqqında. Azərb. SSR.EA xəbərləri, tarix, fəlsəfə, hüquq seriyası, №4, 1976
Osmanov F.L., İbrahimov F.Ə. Nüydidən tapılmış antik dövrə aid bilərziklər. Azərb. EA "Xəbərlər" №2, 1978
Osmanov F.L., İbrahimov F.Ə. Nüydinin bədii metalı // . Azərb. EA "Xəbərlər" №4, 1979
Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV -e.nin III əsrləri) B., 1982
Osmanov F.L. Qədim Qırlartəpə // "Birlik" Ağsu, №129 1 noyabr 1986
Pənahov B. Boş qalmış yurdlar // "Birlik" Ağsu, 26; 29 iyun 1991, №51-52
Soltanoğlu Q. Yurd sorağında Kalva. B., 2000
Vahidov R. Mingəçevir III-VIII əsrlərdə. B., 1961
Vəliyev V. Azərbaycan folkloru. B., 1985
Vəliyev M.H. Azərbaycan, B., 1993
Yurtsever E. Tamğa, Ankara, 1993
Yusifov Y.B., Kərəmov S.K. Toponomikanın əsasları. B., 1987

**Rus dilində**

Абдуллаев Г. Азербайджанов XVIII веке и взаимоотнешения его с Россией Б., 1965
Бакиханов А.А. Гюлистан-и Ирам, Б., 1991
Халилов Д.А. Раскопки на городище Хыныслы, памятников древней Кавказской Албании // С А 1962, №1
Халилов Д.А. Материальная культура Кавказской Албании Б., 1985
Марковин В.И. Культовая пластика Кавказа // Новие в археологии Северного Кавказе, М., 1986
Османов Ф.Л., Ибрагимов Ф.А., Ахвердиев А. Работа Ню-динского отряда// 1973-cü ilin arxeoloji tapıntıları. M.1974
Османов Ф.Л. Поселение Шортепе близ сел. Шатырлы в Барде и некоторые взамосвязи его с античным миром. // Проблемы исследования Олвии., Парутино, 1985
Османов Ф.Л., Джабиев Г. Античные памятники - Гырлартепе. Б., 1985

Османов Ф.Л. Некоторые образцы художественного металла Азербайджана античной эпохи // Azərbaycan arxeologiyası və et-noqrafiyasının problemləri. B., 1995
Османов Ф.Л. Терракотовые статуэтки Азербайджана // Tarix vo onun problemləri, B., 1998
Османов Л.Ф. Об античных железных псаляхи некоторых оружиях Азербайджана. // Tarix və onun problemləri, B. - 2000.
Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в до н.э.- VII в н.э.. М.-Л.,1959

## ARXİV SƏNƏDLƏRİ

Магальние ведомости доходов с кочевьев и селений Ширванский области за 1824 г. // Azərbaycan Dövlət Tarix Arxivi, fond 91, siyahı 1, vərəq 175.

Отношения Бакинского военного губернатора о снятии и план участка земли "Ясамал" для оседлего поселения жителей кочевя Гегяли Ханчобанского участка Шемахинского уьезда, 16 марта 1862 г. - 23 февраля 1863 г. // Azərbaycan Dövlət Tarix Arxivi, fond 57, siyahı 1, vərəq 3.

Переписка с командирами воинских частей о снабжение войска продовольствием и фуражем, ведомости прихода и расхода продовольствия в Ахсуинском складе. 12 января - 24 декабря 1827. // Azərbaycan Dövlət Tarix Arxivi, fond 91, siyahı 1, vərəq 373.

Списки беков Ширванского уезда. 1851 г. // Azərbaycan Dövlət Tarix Arxivi, fond 44, siyahi 1, vərəq 12.

Шемахинская губернская комиссия по поземельным правам беков. // Azərbaycan Dövlət Tarix Arxivi, fond 42, siyahi 1.

Ведомости о получении провианта и фуража разными воинским частями из Ахсуинского склада. 7-31 марта 1827 // Azərbaycan Dövlət Tarix Arxivi, fond 91, siyahi 1, vərəq 19.

Ведомости и квитанции о поступившем хлебе в Ахсуинский и Матрасинский провиантские магазины, закупленный у жителей Ширванской провинций. 4 июнь 1827-26 января 1828 // Azərbaycan Dövlət Tarix Arxivi, fond 91, siyahi 1, vərəq 88.

**MÜNDƏRİCAT**

Ön söz
Ağsu rayonunun coğrafi mövqeyi və təbii şəraiti
Qədim mədəniyyət abidələri
Qırlartəpə eneolit-antik dövr abidələri
Xanyurdu kurqanı
Ərəbmehdibəy kurqan abidələri və antik dövr qəbirləri
Nüydi antik dövr yaşayış yeri və nekropolu
Qaraçıbulaq antik dövr abidələri
Uzunboylar antik dövr abidəsi
Nərgizava Qafqaz Albaniyasının nadir abidəsidir
Bəyimli qalası
Tarixi memarlıq abidələri
Şeyx Dursun türbəsi
Xəzinə dağı qalası
Şeyx Əmir Əhməd türbəsi
Pir Bəxtiyar türbəsi
Həzrə piri
Dəmir körpü
Şıxməzid türbəsi
Bilal Əfəndi məscidi
Qırmızı günbəz
Ağ günbəz
Qoç qəbirləri
XIX əsr məktəbləri
Ağsu şəhərinin tarixinə dair
Ağsu kəndləri və oykonimlərin etimologiyası
Ağamahmud Mehbalıyev "Mən özümlə təkbətək"
İstifadə olunmuş ədəbiyyat

**V.H. Əliyev, F.S.Xəlilov.**

**"Ağsunun tarixi səhifələri"**

**Bakı, "ADILOĞLU" nəşriyyatı - 2001, 94 səh.**

Kompüter tərtibatçısı. Sadiq İsrafilzadə

Çapa imzalanmışdır: 30.10.2001,

Kağız formatı: 60x84 1/16, həcmi: 5,8 ç.v

Sifariş: 178, sayı: 500

Kitab "Biləndər" firmasının kompüter mərkəzində yığılmışdır.

Kitab "ADILOĞLU" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə
olunmaqla ofset üsulu ilə çap olunmuşdur.
Ünvan: Bakı şəh. S.Vurğun 34 (D.Əliyeva 211)
Tel., 98-68-25